RƏSMİ DÖVLƏT QƏZETİ



# AZƏRBAYCAN

AZƏRBAYCAN RESPUBLİKASI MİLLİ MƏCLİSİNİN ORQANI

№ 73 (8952) BAZAR, 10 aprel 2022-ci il | Qəzetin əsası 1918-ci ildə qoyulmuşdur | www.azerbaijan-news.az



# İLHAM ƏLİYEV siyasəti - Zəfərə aparan yol

**İLHAM ƏLİYEV 2018-ci il aprelin 11-də xalqın mütləq əksəriyyətinin etimadı ilə növbəti dəfə Azərbaycan Prezidenti seçildi**



## Əziz Şuşa, biz qayıtmışıq!

Bax: səh. 4

## İlham Əliyevin yaratdığı gerçəkliklər

Bax: səh. 6



## Xilaskar LİDER

Bax: səh. 7





## Müxalifətdən İlham Əliyevə tam dəstək

Bax: səh. 10-11



## İlham Əliyevin meqalayihələri Avropanın enerji xəritəsini dəyişib

Bax: səh. 12

## Azərbaycan dünya üçün əhəmiyyətli tranzit ölkəyə çevrilib

Bax: səh. 15





# Azərbaycan və Ermənistan arasında münasibətlərin normallaşdırılmasına dair fikir mübadiləsi aparıldı

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev aprelin 9-da Rusiya Federasiyasının Prezidenti Vladimir Putinə zəng edib.

Söhbət əsnasında Ermənistan və Azərbaycan arasında postmünaqişə dövründə münasibətlərin normallaşdırılması məsələlərinə və aprelin 6-da Brüsseldə keçirilmiş görüşə dair fikir mübadiləsi aparılıb.

Prezident İlham Əliyev Azərbaycanın Ermənistanla dövlətlərarası münasibətlərin qurulması üçün beş prinsipdən ibarət təqdim etdiyi sənədi və Ermənistan tərəfinin bu prinsipləri qəbul etdiyini xatırladıb.

Telefon danışığı zamanı Ermənistan və Azərbaycan arasında sülh müqaviləsinin hazırlanması üzrə işçi qrupunun yaradılması, sərhədlərin delimitasiyası üzrə komissiyanın təsis edilməsi, həmçinin nəqliyyat məsələləri üzrə Azərbaycan, Rusiya və Ermənistanın iştirak etdiyi işçi qrupunun fəaliyyəti və bu çərçivədə növbəti təmaslar barədə söhbət aparılıb.

Tərəflər ikitərəfli münasibətlərin cari gündəliyi üzrə sıx əməkdaşlığın davam etdirilməsi üçün qarşılıqlı niyyəti bir daha ifadə ediblər.

***Prezidentin Mətbuat Xidməti***

# Azərbaycan Güləş Federasiyasına maliyyə dəstəyi göstərilməsi haqqında

## Azərbaycan Respublikası Prezidentinin Sərəncamı

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 32-ci bəndini rəhbər tutaraq **qərara alıram:**

1. Böyüklər arasında sərbəst və yunan-Roma güləşçilərinin komanda hesabında Azərbaycan millisinin 2022-ci il Avropa çempionu olması ilə əlaqədar Azərbaycan Respublikasının 2022-ci il dövlət büdcəsində nəzərdə tutulmuş Azərbaycan Respublikası Prezidentinin Ehtiyat Fondundan Azərbaycan Güləş Federasiyasına 1,0 (bir) milyon manat ayrılsın.
2. Azərbaycan Respublikasının Maliyyə Nazirliyi bu Sərəncamın 1-ci hissəsində göstərilən məbləğdə maliyyələşməni təmin etsin.
3. Azərbaycan Respublikasının Nazirlər Kabineti bu Sərəncamdan irəli gələn məsələləri həll etsin.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı şəhəri, 9 aprel 2022-ci il*

# Prezident İlham Əliyevin Brüsselə səfəri dünya mətbuatının diqqət mərkəzindədir

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin Brüsselə səfəri, Avropa İttifaqı Şurasının Prezidenti və Ermənistanın baş naziri ilə keçirdiyi görüşlər və əldə olunan razılaşmalar dünya mətbuatının da diqqət mərkəzindədir.



AZƏRTAC xəbər verir ki, dərc olunan məlumatlarda Avropa İttifaqı Şurasının prezidenti Şarl Mişelə istinadla üçtərəfli görüşün çox səmərəli keçdiyi qeyd olunur. Bildirilir ki, bu müzakirələrdə etimadyaratma və digər müsbət səylərin dəstəklənməsi istiqamətində mühüm irəliləyişlər əldə edilib. İnformasiyalarda Şarl Mişelin "Biz hamımız birlikdə sülh danışıqları üçün konkret prosesə başlamağa, mümkün sülh sazişini hazırlamağa və bu saziş üçün bütün zəruri elementləri həll etməyə qərar vermişik" fikri xüsusi vurğulanıb.

Qardaş Türkiyənin Anadolu Agentliyi, "TGRT Haber", "TRT Haber", "Haber Global" telekanalları, "Yeni şafak", "Akşam" qəzetləri və sair media qurumları səfərin mahiyyəti barədə Türkiyə ictimaiyyətini ətraflı məlumatlandırıb. Verilən informasiyalarda Brüssel görüşünün Azərbaycanın maraqlarına uyğun, bölgənin gələcək sülh və əmin-amanlıq şəraitində inkişafının təmin edilməsi istiqamətində atılmış növbəti önəmli addım olduğu vurğulanır.

Almaniyanın "dpa" agentliyi, "Frankfurter Allgemeine Zeitung" və "Süddeutsche Zeitung" qəzetləri, "tagesschau.de", "deutschlandfunk.de", "spiegel.de", "stern.de" və bu kimi digər xəbər portallarında dərc edilən informasiyalarda Avropa İttifaqının iki ölkə arasında münasibətlərin normallaşdırılması istiqamətindəki səylərindən bəhs olunur. Bildirilir ki, Şarl Mişel tərəflər arasında əldə edilən razılığın "düzgün istiqamətdə atılan addım olduğunu" dilə gətirib.

İspaniyanın EFE xəbər agentliyi, SWI swissinfo.ch media platforması da Brüsseldə keçirilən görüşlə bağlı informasiyalar verib. Vurğulanır ki, bu görüşdə aprelin sonunadək Birgə Sərhəd Komissiyasının iclasının keçirilməsinə dair razılıq əldə olunub.

Avropa İttifaqının "commonspace.eu", "eureporter.co" media resurslarında Azərbaycan Prezidenti İlham Əliyevin Avropa İttifaqı Şurasının prezidenti Şarl Mişellə təkbətək, həmçinin Ermənistanın baş nazirinin iştirakı ilə üçtərəfli görüşünə dair informasiyalar verilib. Bildirilir ki, bu görüşlərdə əsas müzakirə mövzusu Azərbaycan ilə Ermənistan arasındakı münasibətlərin normallaşdırılması məsələsi olub. İnformasiyalarda, həmçinin Azərbaycanın Avropanın enerji təhlükəsizliyində oynadığı roldan da bəhs edilir. Belçikanın "RTBF", "VRT" nəşrləri və "RTL" agentliyi isə Azərbaycanın və Ermənistanın sülhə nail olmaq üçün yenidən danışıqlara başladığını yazır. Qeyd olunur ki, tərəflər aprelin sonunadək Birgə Sərhəd Komissiyasının iclasının keçirilməsi, sülh sazişi üzrə danışıqlara başlamaq kimi önəmli məsələlərdə razılığa gəliblər.

Qeyd edək ki, Avropa İttifaqının Xarici siyasət və təhlükəsizlik məsələləri üzrə Ali nümayəndəsi Cozep Borrell rəsmi "tviter" hesabında etdiyi paylaşımda bildirib ki, davamlı sülh, sabit və təhlükəsiz Cənubi Qafqaz istiqamətində çalışmaq üçün Ermənistan və Azərbaycan arasında mühüm səylər və irəliləyiş əldə olunub. "Mövcud geosiyasi kontekstdə münaqişələrin diplomatik həll yollarını tapmaq həmişəkindən daha vacibdir", - deyə Cozep Borrell qeyd edib.

Azərbaycan Prezidentinin Brüsselə səfəri çərçivəsində keçirdiyi görüşlər ərəbdilli mətbuatın da diqqət mərkəzində olub. "Əl Əhram", "Ən Nahar", "Əl Naşra", "Youm7", digər qəzet və portallarda yayımlanan xəbərlərdə Şarl Mişelin Avropa İttifaqının Azərbaycanla Ermənistan arasında etimadın qurulması tədbirlərinə və humanitar məqsədli minatəmizləmə səylərinə, o cümlədən ekspert məsləhətini təmin etməyə davam etməklə münaqişədən əziyyət çəkən əhaliyə maliyyə yardımının artırılması, bərpa və yenidənqurma işlərinə dəstək olacağı fikirləri yer alıb. Materiallarda diqqətə çatdırılıb ki, bu məqsədlə bütün zəruri məsələləri əhatə edəcək sülh sazişinin hazırlanması üzərində işləmək üçün xarici işlər nazirlərinə tapşırığın verilməsinə dair razılıq əldə olunub.

Həmçinin Misirin "əl-Diplomasi", "Nile1" və "Yeni dünya xəbərləri" portallarında "Brüssel görüşü Azərbaycanın daha bir diplomatik qələbəsidir" sərlövhəli məqalə yayımlanıb. Məqalədə Şarl Mişelin görüşün yekunlarına dair bəyanatında diqqətçəkən məqamlar olduğu qeyd edilib. Belə ki, Avropa İttifaqı Şurasının prezidenti bir dəfə də olsun "Qarabağ münaqişəsi" kəlməsini işlətməyib. Bu, Azərbaycan və Ermənistanın ölkələrin ərazi bütövlüyü çərçivəsində sülh müqaviləsinin imzalanmasına yaxın olduqlarını göstərir.

İranın "Fars news", "Tasnim news", "Aftab news", "İlna news", "Farda news", "Mehr news", "Euro news" saytının fars dilindəki bölməsi və başqa mətbuat orqanları Prezident İlham Əliyevin Aİ Şurasının sədri Ş.Mişel və Ermənistanın baş naziri N.Paşinyanla apardığı danışıqlara geniş yer verib. Materiallarda nəzərə çatdırılıb ki, görüşlərdə qarşılıqlı etimadın qurulması, işğaldan azad olunan ərazilərin minalardan təmizlənməsi, sülh sazişinin hazırlanması prosesinin başlanması, münaqişədən əziyyət çəkən əhaliyə maliyyə yardımının göstərilməsi məsələləri müzakirə olunub.

Ukraynanın "İnterfax", "RBK" informasiya agentlikləri, "Korrespondent.net" xəbər portalı və digər saytlarda yayımlanmış məqalələrdə isə bildirilir ki, Prezident İlham Əliyev və baş nazir Nikol Paşinyan tərəfindən ölkələr arasında sülh sazişinə doğru sürətli irəliləmək arzuları ifadə edilib. Bu məqsədlə bütün zəruri məsələləri əhatə edəcək sülh sazişinin hazırlanması üzərində işləmək üçün xarici işlər nazirlərinə tapşırıq verilib.

Prezident İlham Əliyevin Avropa İttifaqı Şurasının prezidenti Şarl Mişelin dəvəti ilə Brüsselə səfəri və keçirdiyi görüşlər Gürcüstan mətbuatının da diqqət mərkəzində olub, "kavkasia.net (Kavkaz Online)", "24news.ge", "interpress.ge", "aktual.ge" informasiya portalları görüşlərlə bağlı oxuculara dolğun informasiyalar təqdim ediblər.

Moldovanın "Tribuna", "TV8" xəbər portalları, Yaponiyanın "ajmedia.jp" saytı, Meksikanın "Publimetro" qəzetinin elektron nəşrində dərc olunan materiallarda Brüssel görüşünün nəticələrinin səmərəli olduğu qeyd edilir.

# Teymur Əmiraslan oğlu Bünyadov



**Azərbaycan elmi ictimaiyyətinə ağır itki üz vermişdir. Respublikanın qocaman tarixçi-etnoqrafı, Azərbaycan Milli Elmlər Akademiyasının həqiqi üzvü, Əməkdar elm xadimi, tarix elmləri doktoru, professor Teymur Əmiraslan oğlu Bünyadov 2022-ci il aprelin 8-də ömrünün 95-ci ilində vəfat etmişdir.**

Teymur Bünyadov 1928-ci il yanvarın 20-də Qazax rayonunun İkinci Şıxlı kəndində anadan olmuşdur. Orta məktəbi bitirdikdən sonra o, 1946-1951-ci illərdə Azərbaycan Dövlət Universitetinin tarix fakültəsində ali təhsil almış, 1951-ci ildə isə SSRİ Elmlər Akademiyasının Maddi Mədəniyyət Tarixi İnstitutunun aspiranturasına daxil olmuş və burada 1955-ci ildə namizədlik dissertasiyası müdafiə etmişdir.

Teymur Bünyadov 1955-1993-cü illərdə Azərbaycan Elmlər Akademiyasının Tarix İnstitutunda elmi işçi, baş elmi işçi və şöbə müdiri vəzifələrində çalışmış, 1993-cü ildən ömrünün sonunadək AMEA-nın hazırkı Arxeologiya, Etnoqrafiya və Antropologiya İnstitutunda Tarixi Etnoqrafiya şöbəsinin müdiri olmuşdur.

Teymur Bünyadov 1968-ci ildə doktorluq dissertasiyası müdafiə edərək, arxeologiya və etnoqrafiya elmləri sahəsində respublikamızda ilk tarix elmləri doktoru alimlik dərəcəsi almış, 1970-ci ildə professor elmi adına layiq görülmüşdür.

O, 1989-cu ildə AMEA-nın müxbir üzvü, 2001-ci ildə isə həqiqi üzvü seçilmişdir.

Akademik Teymur Bünyadov yarım əsrdən artıq bir dövr ərzində respublikada etnoqrafiya elminin inkişafına sanballı töhfələr vermişdir. Geniş elmi maraq dairəsi olan alim Azərbaycanın tarixşünaslıq baxımından xüsusi əhəmiyyət kəsb edən qədim dövrlərinin bir sıra problemlərini araşdırmışdır. O, 30-dan çox kitab və monoqrafiyanın, yüzlərlə məqalənin müəllifi idi. Alimin Azərbaycanda əkinçilik ənənəsi, təsərrüfat həyatı, maddi və mənəvi mədəniyyət, sənətkarlıq və xalq məişəti ilə bağlı silsilə tədqiqatları elmi ictimaiyyət tərəfindən maraqla qarşılanmış və lazımınca dəyərləndirilmişdir. Azərbaycanın etnoqrafiyasına dair fundamental üççildlik onun bilavasitə rəhbərliyi və yaxından iştirakı ilə işıq üzü görmüşdür.

Teymur Bünyadov yüksəkixtisaslı kadrların hazırlanmasına böyük qüvvə sərf etmişdir. O, elmi yaradıcılığını pedaqoji fəaliyyətlə ahəngdar şəkildə əlaqələndirərək, uzun illər ölkənin aparıcı ali təhsil ocaqlarında mühazirələr oxumuşdur. Teymur Bünyadov bir sıra mötəbər beynəlxalq konfrans və simpoziumlardakı çıxışları ilə Azərbaycan etnoqrafiya elmini layiqincə təmsil etmişdir.

O, eyni zamanda zəngin bədii və publisistik fəaliyyəti ilə tarixi-mədəni irsimizin, milli-mənəvi dəyərlərimizin təbliğində təqdirəlayiq xidmətlər göstərmişdir.

Teymur Bünyadov respublikanın elmi-mədəni həyatında yaxından iştirak etmiş, fəal ictimai işlə məşğul olmuşdur. O, birinci çağırış Azərbaycan Respublikası Milli Məclisinin deputatı seçilmişdir.

Akademik Teymur Bünyadovun uzunmüddətli səmərəli fəaliyyəti yüksək qiymətləndirilmişdir. Azərbaycan elminin inkişafında xidmətlərinə görə o, müstəqil Azərbaycan Respublikasının ali mükafatlarından olan "Şöhrət" və "Şərəf" ordenləri ilə təltif edilmişdir.

Görkəmli alim, səmimi insan Teymur Bünyadovun xatirəsi onu tanıyanların qəlbində həmişə yaşayacaqdır.

**Allah rəhmət eləsin!**

**İlham ƏLİYEV, Mehriban ƏLİYEVA, Əli ƏSƏDOV, Sahibə QAFAROVA, Samir NURİYEV, Eldar ƏZİZOV, Fərəh ƏLİYEVA, Emin ƏMRULLAYEV, Arif HƏŞİMOV, İsa HƏBİBBƏYLİ, Nailə VƏLİXANLI, Yaqub MAHMUDOV**

# Prezident İlham Əliyevin göstərişinə əsasən bölgələrdə vətəndaşların qəbulu keçirilir

Prezident İlham Əliyevin vətəndaşların şəhər və rayonlarda qəbulunun keçirilməsinə dair tapşırığına uyğun olaraq, "Azərişıq" ASC-nin sədri Vüqar Əhmədov aprelin 8-də Gəncə, Samux və Kəlbəcər rayonlarından olan vətəndaşları qəbul edib.

ASC-dən AZƏRTAC-a bildirilib ki, qəbuldan əvvəl Ümummilli Lider Heydər Əliyevin Gəncə şəhərindəki abidəsi ziyarət olunaraq önünə gül dəstələri qoyulub, əziz xatirəsinə dərin ehtiram ifadə olunub.

Qərb RETSİ-nin Gəncə şəhərində yerləşən inzibati binasında baş tutan qəbul zamanı qurumun fəaliyyət istiqamətlərinə uyğun olan müvafiq müraciətlər cavablandırılıb, qaldırılan bəzi məsələlərin yerindəcə həlli ilə bağlı tədbirlər görülüb, həlli araşdırma tələb edən məsələlərlə bağlı yazılı müraciət qeydə alınıb və aidiyyəti şöbələrin icraatına göndərilib.

Vətəndaşlar bölgələrdə qəbulla bağlı göstərdiyi diqqət və qayğıya görə Prezident İlham Əliyevə minnətdarlıqlarını ifadə ediblər.

# "Yaşıl Marafon 2022" ağacəkmə kampaniyası çərçivəsində növbəti aksiya keçirilib

Heydər Əliyev Fondunun vitse-prezidenti, IDEA İctimai Birliyinin təsisçisi və rəhbəri Leyla Əliyevanın təşəbbüsü ilə "Ümumrespublika Yaşıllaşdırma Marafonu" ("Yaşıl Marafon") çərçivəsində ölkə üzrə növbəti ağacəkmə aksiyası aprelin 9-da Xocasən qəsəbəsində keçirilib.



IDEA İctimai Birliyi, Ekologiya və Təbii Sərvətlər Nazirliyinin birgə təşkilatçılığı ilə keçirilən genişmiqyaslı ağacəkmə aksiyasına bu dəfə Rəqəmsal İnkişaf və Nəqliyyat Nazirliyinin və BP-nin Azərbaycan, Gürcüstan və Türkiyə üzrə regional ofisinin əməkdaşları da böyük ruh yüksəkliyi ilə qoşulublar.

AZƏRTAC bildirir ki, aksiya zamanı 3 hektar ərazidə Abşeron yarımadasının torpaq-iqlim şəraitinə uyğun 2000-dən çox Eldar şamı və zeytun ağacı əkilib.

IDEA İctimai Birliyi və Ekologiya və Təbii Sərvətlər Nazirliyinin birgə təşkilatçılığı ilə həyata keçirilən kampaniya zamanı ölkənin müxtəlif regionlarında yaz-payız əkin mövsümləri müddətində kütləvi ağacəkmə aksiyalarının keçirilməsi, yaşıllıq sahələrinin artırılması nəzərdə tutulub.

Qeyd edək ki, builki "Yaşıl Marafon" çərçivəsində Azərbaycanda, xüsusən də Abşeron yarımadasında yaşıl dəhlizlərin yaradılması, mürəkkəb relyefli, sərt yamaclı ərazilərdə ağacların əkilməsi planlaşdırılır ki, bu xüsusda yamaclarda terraslar hazırlanacaq, ağacların əhatəsi təbii sutoplayıcı formaya salınacaq və yağış sularının ağacların suvarılmasına yönəldilməsi mümkün olacaq. Bununla torpaq eroziyasının qarşısı alınacaq, torpağın hava, su keçiriciliyi və münbitliyi artacaq, nəticədə daha yüksək bitiş faizi əldə ediləcək, eləcə də həmin sahələrdə suvarma suyuna qənaət edilmiş olacaq.

Bununla yanaşı, kampaniya ölkənin açıq meşə fondu torpaqlarında 1000 hektar ərazidə yaz və payız əkin mövsümləri müddətində meşəcinsli ağacların əkilməsi, toxumların səpilməsi və meşəbərpa tədbirlərinin keçirilməsini nəzərdə tutur.

Layihənin əsas məqsədi yaşıllıq sahələrinin azalması fonunda yarana biləcək təhlükələrin qarşısını almaq, ağac əkilməsini təşviq edərək ətraf mühitin mühafizəsinə, o cümlədən ölkəmizin flora biomüxtəlifliyinin artırılmasına, yaşıllıqların qorunması ilə bağlı maarifləndirilməyə töhfə verməkdən ibarətdir.

Kütləvi ağacəkmələr, eyni zamanda, iqlim dəyişikliyinə səbəb olan istixana qazı tullantılarının azaldılmasına nail olmaqla bağlı qlobal fəaliyyətlərə dəstək xarakteri daşıyır.

Ölkəmizdə yaşıllıqların mühafizəsi və artırılması səylərini bundan sonra da davam etdirmək niyyətində olan IDEA İctimai Birliyi öz tərəfdaşları ilə birgə ictimaiyyəti planetimizin mühafizəsi ilə bağlı mübarizədə, ətraf mühit naminə görülən tədbirlərdə aktiv iştirak etməyə çağırır.

# Akademik Teymur Bünyadov II Fəxri xiyabanda dəfn edilib

Görkəmli tarixçi-etnoqraf alim, Azərbaycan Milli Elmlər Akademiyasının (AMEA) Arxeologiya və Etnoqrafiya İnstitutunun şöbə müdiri, Əməkdar elm xadimi, "Şöhrət" və "Şərəf" ordenləri laureatı, akademik Teymur Bünyadov II Fəxri xiyabanda dəfn edilib.




AZƏRTAC xəbər verir ki, vida mərasimində akademiyanın bir sıra elmi müəssisə və təşkilatlarının rəhbərləri, Milli Məclisin deputatları, elmi ictimaiyyətin nümayəndələri və mərhumun ailə üzvləri iştirak ediblər.

Alimin məzarı önünə Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin və birinci xanım Mehriban Əliyevanın adından əklil qoyulmuşdur.

Vida mərasimində AMEA-nın prezidenti vəzifəsini icra edən akademik Arif Həşimov, AMEA-nın vitse-prezidenti, Ədəbiyyat İnstitutunun baş direktoru akademik İsa Həbibbəyli, Milli Məclisin deputatı, akademik Nizami Cəfərov, Milli Məclisin Beynəlxalq münasibətlər və parlamentlərarası əlaqələr komitəsinin sədri Səməd Seyidov, AMEA-nın Arxeologiya, Etnoqrafiya və Antropologiya İnstitutunun baş direktoru professor Abbas Seyidov, "Qazax" Xeyriyyə İctimai Birliyi İdarə Heyətinin sədri professor İlham Pirməmmədov akademik Teymur Bünyadovun Azərbaycan elminə töhfələrindən, elmi-pedaqoji və ictimai fəaliyyətindən danışıblar.

Vurğulanıb ki, Teymur Bünyadov respublikada arxeologiya və etnoqrafiya elmləri sahəsində tarix elmləri doktoru dərəcəsini almış ilk alim olub. Onun fəaliyyəti daha çox Azərbaycanın arxeologiya və etnoqrafiya elmi ilə bağlı idi. Yorulmaz tədqiqatçı 35 monoqrafiyanın və 800-dən çox məqalənin, o cümlədən xarici ölkələrdə (Rusiya, İran, Türkiyə, Ukrayna, Norveç və s.) nəşr olunmuş əsərlərin müəllifi idi.

Mərhumun ailəsi adından çıxış edən Bakı Slavyan Universitetinin kafedra müdiri dosent Əsgər Əhməd akademik Teymur Bünyadovun xatirəsinə göstərilən hörmət və ehtirama görə dərin minnətdarlığını bildirib.

Teymur Bünyadov 1928-ci il yanvarın 20-də Qazax rayonunun II Şıxlı kəndində doğulub, orta məktəbi qızıl medalla bitirərək 1951-ci ildə Azərbaycan Dövlət Universitetinin Tarix fakültəsinə qəbul olub. Moskvada SSRİ Elmlər Akademiyasının Maddi Mədəniyyət Tarixi İnstitutunun aspiranturasında təhsil alıb, dünyaşöhrətli qafqazşünas alim Y.İ.Krupnovun rəhbərliyi ilə "Tunc dövründə Azərbaycanda əkinçilik və maldarlıq" mövzusunda namizədlik dissertasiyası müdafiə edib. 1955-ci ilin may ayında Azərbaycan EA Tarix İnstitutunda elmi fəaliyyətə başlayıb. Həmin ildən onun bütün həyatı və elmi fəaliyyəti Azərbaycan EA-nın Tarix, 1993-cü ildən isə Arxeologiya və Etnoqrafiya İnstitutu ilə bağlı olub.

Alim 1968-ci ildə "Azərbaycanın qədim və Orta əsrlər dövrü təsərrüfat həyatı" mövzusunda doktorluq dissertasiyası müdafiə edib, 1970-ci ildə professor elmi adına layiq görülüb. O, 1989-cu ildə Azərbaycan EA-nın müxbir üzvü, 2001-ci ildə AMEA-nın həqiqi üzvü seçilib.

O, elmi və bədii yaradıcılıqla yanaşı, pedaqoji sahədə də səmərəli fəaliyyət göstərib. Uzun illər Bakı Dövlət Universitetində, N.Tusi adına Azərbaycan Dövlət Pedaqoji Universitetində, Bakı Slavyan Universitetində "Azərbaycan tarixi", "Qədim dünya tarixi" və "Arxeologiya" fənlərindən dərs deyib.

Teymur Bünyadov respublikanın ictimai həyatında da fəal iştirak edib. 1995-ci ildə I çağırış Azərbaycan Respublikası Milli Məclisinin deputatı seçilib. O, həmin müddətdə Milli Məclisin Elm və təhsil məsələləri daimi komissiyasının sədri olub.

Akademikin səmərəli elmi, elmi-pedaqoji və ictimai fəaliyyəti dövlətimiz tərəfindən yüksək qiymətləndirilib, o, 2008-ci ildə Əməkdar elm xadimi fəxri adına layiq görülüb, 2005-ci ildə "Şöhrət" ordeni, 2018-ci ildə isə "Şərəf" ordeni ilə təltif edilib.

# İlham Əliyev siyasəti - Zəfərə aparan yol



Hər bir xalqın, dövlətin strateji yolunu, siyasi taleyini, perspektivlərini müəyyənləşdirən həlledici anlar, tarixi əhəmiyyətə malik məqamlar var. Bir əsrdə iki dəfə müstəqillik qazanaraq istiqlaliyyət ideyasına və məfkurəsinə sadiqliyini, mübarizə əzmini, siyasi potensialını, zəngin dövlətçilik ənənələrini, eləcə də unikal, bənzərsiz milli dəyərlərini dünyaya nümayiş etdirən, tarixin ictimai-siyasi yaddaşına əbədi həkk etdirən Azərbaycan xalqı da bu baxımdan istisna deyil.

Azərbaycanın timsalında strateji dönüş nöqtəsi adlandırılan, milli inkişafı, intibahı, tərəqqini və yüksəlişi təmin edən bir çox mühüm amil var, bir çox tarixi an və məqam var, amma həlledici faktorlar sırasında liderlik fenomeni xüsusi yer tutur. Xüsusilə də 1991-ci ildə formal müstəqillik əldə etsə də, ilk illərdə suverenliyini təmin etməmiş, dövlətçiliyin ictimai-siyasi dayaqlarını gücləndirməmiş Azərbaycanın öz siyasi taleyinin sahibi olan qüdrətli dövlətə çevrilməsini, tarixi nailiyyətlər qazanaraq tərəqqi və qələbə zirvəsinə yüksəlməsini mümkün edən amil liderlik fenomeni olmuşdur. Başqa sözlə, güclü, nüfuzlu, qətiyyətli, milli maraqlara və milli-mənəvi dəyərlərə əsaslanan siyasət yürüdən liderlər - Ümummilli Lider Heydər Əliyev və Prezident İlham Əliyevin strateji fəaliyyəti sayəsində Azərbaycanın adı nüfuzlu dövlətlər sırasında çəkilməyə başlanmış, üçrəngli bayrağımız qələbə zirvəsində qürurla və əzəmətlə dalğalanmış, qalib dövlətin vətəndaşları - müzəffər xalqın nümayəndələri olmaq milli qürurunu yaşamışıq. Ümummilli Liderimizin "Mən həmişə fəxr etmişəm, bu gün də fəxr edirəm ki, azərbaycanlıyam" kəlamı artıq hər birimizin milli şüarına çevrilmiş, milli-siyasi şüurumuza əbədi yazılmışdır!

## Xalqın seçimi - dövlətin yüksəlişi

Təbii ki, bu nailiyyətlər lider-xalq birliyi, xalqın öz qətiyyətli, milli maraqlara, müasir çağırışlara adekvat siyasət həyata keçirən, dövlətin strateji mənafelərini üstün tutan Liderini birmənalı və prinsipial olaraq dəstəkləməsi sayəsində mümkün olmuşdur. 11 aprel 2018-ci il tarixində keçirilmiş prezident seçkilərinin nəticələri də bu gerçəkliyin daha bir əyani ifadəsi, növbəti bariz nümunəsidir.

Seçkilərdə xalqımızın iradəsi əsasında cənab İlham Əliyevin növbəti dəfə Azərbaycan Respublikasının Prezidenti seçilməsi, təbii ki, gözlənilən - proqnozlaşdırılan idi. Çünki o zamana qədər son 15 ildə (2003-2018) Heydər Əliyev siyasətini uğurla, uzaqgörənliklə davam etdirən cənab İlham Əliyev Azərbaycanın iqtisadi potensialının, siyasi nüfuzunun artmasını, ikitərəfli və çoxşaxəli münasibətlərinin inkişafını, beynəlxalq mövqeyinin möhkəmlənməsini, xalq-iqtidar birliyinin, milli həmrəyliyin güclənməsini təmin etmiş, mürəkkəb şərtlər və şərait fonunda, sərt geosiyasi mübarizə və rəqabətin aparıldığı vəziyyətdə yaxşı perspektivlər - gələcəyə nikbin baxış formalaşdırmışdı. Bu dövrü ehtiva edən statistika məlum, mənzərə aydındır. Xalq Heydər Əliyev yoluna, İlham Əliyevin siyasətinə ona görə bir daha "hə" demişdi ki:

*- 2003-2018-ci illər ərzində həyata keçirilən səmərəli iqtisadi siyasət nəticəsində ümumi daxili məhsul 3,3 dəfə, büdcə gəlirləri 18,4 dəfə, strateji valyuta ehtiyatları 26,6 dəfə artmışdır. Xarici ticarət dövriyyəsinin 6,1 dəfə, ixracın həcminin 7,8 dəfə artması isə Azərbaycanın iqtisadi potensialının yüksəlməsini təmin etmişdir;*

*- Prezident İlham Əliyevin "Bizim siyasətimizin mərkəzində Azərbaycan vətəndaşının rifahı və mənafeyi dayanır" tezisi söz ilə əməlin vəhdətini ifadə edir. 2003-2018-ci illər ərzində həyata keçirilən nümunəvi sosial siyasətin nəticələri də bu reallığı təsdiqləyir. Həmin dövrdə əhalinin nominal gəlirləri 9,3 dəfə, minimum əməkhaqqı 14,4 dəfə, əhalinin banklardakı əmanəti 33,2 dəfə, maaşlar təxminən 7 dəfə, pensiyalar 9,3 dəfə artmışdır. 2 197 352 yeni iş yerinin açılması, işsizliyin səviyyəsinin 9,2 faizdən 4,9 faizə, yoxsulluğun səviyyəsinin isə 44,7 faizdən 5,1 faizə endirilməsi İlham Əliyevin sosial siyasət modelinin effektivliyini əks etdirən faktlardan idi;*

*- İnnovasiyalara və müasir texnologiyalara əsaslanan iqtisadiyyat quruculuğu, sistemli, kompleks xarakterli islahatlar 2003-2018-ci illərdə Azərbaycanın qlobal rəqabətlilik indeksində dünyadakı mövqeyinin güclənməsini təmin etmişdi. Davos Dünya İqtisadi Forumunun "2017-2018 Qlobal Rəqabətlilik Hesabatı"nda Azərbaycanın 35-ci pillədə qərarlaşması, MDB məkanında liderliyini qoruyub saxlaması, dünyada ən çox islahat aparan 10 ölkədən biri kimi tanınması, innovasiya potensialına görə dünyada 44-cü, dövlət orqanlarında İKT-nin tətbiqi üzrə 14-cü olması Azərbaycan Prezidentinin yeni reallıqlara - modern tendensiyalara əsaslanan dövlət quruculuğu siyasətinin təzahürü və nəticəsi idi;*



*- Həmin müddət ərzində iqtisadiyyatın neft-qaz sektorunun inkişaf etdirilməsi Azərbaycanın həm tərəqqisinə, həm də dünyada etibarlı tərəfdaşa çevrilməsində mühüm rol oynadı. Ulu Öndər Heydər Əliyevin təməlini qoyduğu Bakı-Tbilisi-Ceyhan neft kəmərinin 2006-cı ildə istifadəyə verilməsi, bir il sonra Bakı-Tbilisi-Ərzurum qaz kəmərinin işə salınması, 2018-ci ildə Bakıda "Cənub qaz dəhlizi" layihəsinin, Əskişəhərdə bu dəhlizin mühüm hissəsi olan Trans-Anadolu (TANAP) qaz boru kəmərinin açılışının olması Azərbaycanın strateji valyuta ehtiyatlarının, maliyyə imkanlarının, regional və beynəlxalq enerji təhlükəsizliyində rolunun artmasını, həmçinin iqtisadi və siyasi əlaqələrinin genişlənməsini şərtləndirdi;*

*- Cənab İlham Əliyev dayanıqlı, dinamik iqtisadi sistem formalaşdırmaq və inkişafın ardıcıllığını təmin etmək üçün qeyri-neft sektorunun yüksəlişini strateji prioritetlərdən biri kimi müəyyənləşdirdi, bu istiqamətdə məqsədyönlü tədbirlərin həyata keçirilməsini təmin etdi. Neft gəlirlərindən səmərəli istifadə edilməsi bu prosesə çox mühüm töhfə verdi. Paralel olaraq infrastrukturun yenilənməsi və təkmilləşdirilməsi Azərbaycanın inkişafına əlavə təkan verdi. 30-dan çox elektrik stansiyasının tikilməsi, 15 min kilometr yeni yol çəkilişi, yeddi hava limanının tikilməsi, Xəzər dənizində ən böyük yeni ticarət limanının inşası, dəmir yolu infrastrukturunun yenilənməsi, su və qaz təchizatının yaxşılaşdırılması bu kontekstdə xüsusi qeyd edilməlidir;*

*- Azərbaycanın ərazi bütövlüyünün təmin olunmasını bir nömrəli milli məsələ və xarici siyasət kursunun əsas strateji istiqaməti kimi müəyyənləşdirən Prezident İlham Əliyev hücum diplomatiyası həyata keçirməklə Azərbaycan reallıqlarının təbliğ, erməni yalanlarının isə ifşa olunması ilə bağlı mühüm nailiyyətlər qazanılmasını təmin etdi. Xüsusilə də Birləşmiş Millətlər Təşkilatı, Qoşulmama Hərəkatı, Avropa Şurası, İslam Əməkdaşlıq Təşkilatı və digər bu kimi qurumlarda səmərəli, fəal diplomatik işin aparılması Azərbaycana mühüm üstünlüklər qazandırdı. 155 dövlətin dəstəyi ilə BMT-nin Təhlükəsizlik Şurasının qeyri-daimi üzvü seçilməsi isə Azərbaycanın yüksək beynəlxalq nüfuzunun göstəricisi, Prezident İlham Əliyevin dərin strateji diplomatiya siyasətinin nəticəsi olmaqla yanaşı, Ermənistanın işğalçı və terrorçu siyasətinin dünya ictimaiyyətinin diqqətinə daha dolğun çatdırılması baxımından müstəsna əhəmiyyətə malik oldu. Prezident İlham Əliyevin qeyd etdiyi kimi: "Azərbaycan 2011-ci ildə 155 ölkənin dəstəyi ilə BMT Təhlükəsizlik Şurasına qeyri-daimi üzv seçilmişdir. Yəni bu, özlüyündə böyük bir göstəricidir. Birinci növbədə, ona görə ki, biz ilk dəfə bu böyük, şərəfli missiyaya nail olduq və o vaxt müstəqilliyimizin cəmi 20 yaşı tamam olmuşdu. Digər tərəfdən, bu, Azərbaycanın beynəlxalq nüfuzuna bilavasitə dəlalət edən amillərdən biri idi. Çünki dünya birliyinin mütləq əksəriyyəti bizə inandı, bizə etimad göstərdi və bizə öz səsini vermişdi". Təbii ki, Azərbaycan bu etimadı doğrultdu, BMT TŞ-dəki fəaliyyəti ilə humanizm dəyərlərinə, dünyanın müxtəlif regionlarındakı münaqişələrin aradan qaldırılması üçün göstərilən səylərə verdiyi dəstəyi, önəmi nümayiş etdirdi. Ölkəmizin sədrliyi müddətində qurumun 59 açıq və qapalı iclası keçirildi, 7 qətnamə, Şura sədrinin 3 bəyanatı və 13 mətbuat bəyanatı qəbul edildi ki, burada Azərbaycanın strateji fəaliyyəti və fəallığı yüksək qiymətləndirildi;*

*- 2003-2018-ci illəri əhatə edən dönəm həm də Azərbaycan Ordusunun hərbi potensialının, gücünün artması, vətənpərvərlik ruhunun yüksəlməsi ilə səciyyələndi. Prezident İlham Əliyevin uğurlu, səmərəli və nümunəvi ordu quruculuğu siyasəti nəticəsində silah-sursat, texnika ilə təchizat, döyüş qabiliyyəti baxımından Azərbaycan Ordusu dünyanın ən güclü ordularının sırasına daxil oldu və öz sözünü döyüş meydanında dedi. 2016-cı ildə Ermənistanın diversiya-təxribat cəhdləri nəticəsində baş vermiş dördgünlük Aprel döyüşləri Azərbaycan Silahlı Qüvvələrinin işğal altında olan torpaqlarımızı azad etmək gücündə, əzmində və iqtidarında olduğunu bütün dünyaya nümayiş etdirdi. Azərbaycan Ordusu 2000 hektara yaxın ərazini, o cümlədən Lələtəpə və Talış yüksəkliklərini azad etməklə həm də "güclü Ermənistan ordusu" mifini darmadağın etmiş oldu. Şübhəsiz ki, 4 günlük döyüşlərdən 44 günlük müharibəyə gedən yolda atılan hər bir addım Azərbaycanın tarixi Qələbəsinə - möhtəşəm Zəfərinə etibarlı zəmin formalaşdırdı;*

*- Prezident İlham Əliyev fiziki, mənəvi cəhətdən sağlam, vətənpərvər gəncliyin yetişməsi və milli ruhda tərbiyəsi, bu kontekstdə qara qızılın intellektual kapitala çevrilməsi istiqamətində də Azərbaycanın yeni strateji yol xəritəsini müəyyənləşdirdi, qarşıda duran məqsəd və hədəflərə çatmaq üçün sistemli fəaliyyəti təmin etdi. Keyfiyyətli təhsilə əlçatanlığın gücləndirilməsi, xaricdə təhsil imkanlarının genişləndirilməsi, milli həmrəyliyin əsasını təşkil edən azərbaycançılıq ideologiyasının təşviqinə və təbliğinə xüsusi diqqət yetirilməsi, Azərbaycanın idman ölkəsinə çevrilməsi və digər mühüm istiqamətlərdə atılan addımlar respublikamızın intibahını, yüksəlişini və tərəqqisini sürətləndirdi.*

## Söz ilə əməlin vəhdəti

Şübhəsiz ki, 11 aprel 2018-ci il tarixində keçirilmiş seçkilərin nəticələri təkcə siyasi-hüquqi reallıqları ifadə və ehtiva etmir, həm də strateji əhəmiyyətə malikdir. Çünki Azərbaycan xalqının cənab İlham Əliyevə növbəti dəfə inam ifadə etməsindən - etimad göstərməsindən sonra istər daxili, istərsə də xarici siyasətdə çox mühüm addımlar atıldı, qarşıda duran yeni strateji hədəflərin reallaşdırılması istiqamətində növbəti mərhələ başlandı.

Cənab İlham Əliyev andiçmə mərasimində "Biz gələcəyə baxmalıyıq və baxırıq. Növbəti illərdə görüləcək işlər haqqında bizim çox aydın təsəvvürümüz, planlarımız, proqramlarımız var... Hamımızın amalı ondan ibarətdir ki, ölkəmiz daha da güclənsin, daha da qüdrətli dövlətə çevrilsin, Azərbaycan vətəndaşları daha da yaxşı yaşasınlar" ,- deyə qətiyyətlə bəyan və ifadə etmişdi. Zaman Azərbaycanın Liderinin Vətənə, xalqa və dövlətə sədaqət andını şərəflə və ləyaqətlə yerinə yetirməsinə şahidlik etdi - cənab İlham Əliyev bir daha sübuta yetirdi ki, Onun sözü imzası qədər dəyərli, dəyərli olduğu qədər də keçərlidir.

2018-ci ildən başlayaraq görülən işlər nəticəsində:

*- Azərbaycanın iqtisadi sistemi gücləndirildi, yeni qlobal təsirlərə və şoklara davamlı hala gətirildi, maliyyə imkanları genişləndirildi, strateji valyuta ehtiyatlarının artması tendensiyası davam etdi;*

*- Regionların sosial-iqtisadi inkişafı ilə əlaqədar sistemli fəaliyyət davam etdirildi, reallaşdırılan tədbirlər bölgələrdə iqtisadi fəallığın artmasına, əhalinin rifahının yüksəlməsinə təkan və töhfə oldu;*

*- Cənab İlham Əliyev andiçmə mərasimində yeni islahat dalğasının anonsunu vermişdi. Qısa müddət ərzində çoxşaxəli institusional və digər xarakterli reformalar idarəetmənin səmərəliliyi və çevikliyinin artmasını təmin etməklə yanaşı, vətəndaş məmnunluğuna, xalq-iqtidar birliyinin, milli həmrəyliyin güclənməsinə, ən əsası, Azərbaycan dövlətinin milli gücünün artmasına etibarlı zəmin, əlverişli şərait formalaşdırdı;*

*- İslahatlar nəticəsində yeni siyasi konfiqurasiyanın yaranması, siyasi dialoq prosesinin dərinləşdirilməsi, vətəndaş cəmiyyəti təsisatının inkişafına xidmət edən addımların atılması həm Azərbaycanın mühüm prioritetləri reallaşdırmasına, həm də milli həmrəyliyin gücləndirilməsinə təkan verdi;*

*- Çoxşaxəli reformalar kursu inam və etimad ünvanı olan, ümumxalq partiyası kimi Azərbaycanı qurtuluşdan tərəqqiyə, tərəqqidən isə Zəfərə aparan Yeni Azərbaycan Partiyasını da əhatə etdi. Hakim və alternativsiz siyasi qüvvə olan YAP-ın ötən il martın 5-də baş tutmuş VII qurultayı partiyamızın və ölkəmizin inkişafında yeni mərhələnin əsasını qoydu. Qurultayda qəbul edilən qərarlar və ötən müddət ərzində mühüm addımların atılması, müxtəlif tədbirlərin keçirilməsi partiyamızın inkişafı və müasir çağırışlara cavab verməsi, ictimai-siyasi öhdəlikləri layiqincə yerinə yetirməsi üçün olduqca əhəmiyyətlidir. Bu, həm də milli maraqların qorunmasına siyasi-ideoloji dəstəyin verilməsi, o cümlədən dövlətin strateji maraqlarının müdafiəsi naminə sağlam ictimai rəyin formalaşması baxımından önəmlidir. Görülən işlər həm gənclərin vətənpərvərlik ruhunda tərbiyəsi - milli şüurun gücləndirilməsi, həm Azərbaycan həqiqətlərinin dünya ictimaiyyətinə çatdırılması, həm də partiyamızın beynəlxalq əlaqələrinin möhkəmləndirilməsi baxımından önəmlidir. Partiyamızın Sədri, dövlət başçısı cənab İlham Əliyev tərəfindən qarşıya qoyulmuş, eləcə də milli-strateji prioritetlərdən irəli gələn vəzifələrin ardıcıl və məqsədyönlü şəkildə yerinə yetirilməsi Azərbaycanın yeni dönəmdə davamlı uğurlar əldə etməsinə yeni imkanlar yaradır;*

*- Prezident İlham Əliyevin milli maraqlara əsaslanan strateji kursunun nəticəsi olaraq xalqımızın həmrəyliyinin daha da gücləndirilməsi Azərbaycanın qüdrətinin artmasını təmin etməklə yanaşı, ölkəmiz üçün yeni perspektivlər açıb. Azərbaycançılıq ideologiyasının təbliği və təşviqi istiqamətində məqsədyönlü tədbirlərin həyata keçirilməsi, paralel olaraq respublikamızda müxtəlif xalqların nümayəndələrinin sülh, sabitlik və təhlükəsizlik şəraitində yaşaması, islahatlar nəticəsində siyasi qüvvələrin ümummilli məsələlərdə vahid platformada birləşməsi və digər amillər milli birliyin əsaslarını gücləndirib;*

*- Əhalinin sosial müdafiəsinin mütəmadi olaraq möhkəmləndirilməsinə xidmət edən sosial siyasətin reallaşdırılması, məşğulluq səviyyəsinin yüksəldilməsi, yoxsulluğun azaldılması və digər məqsədyönlü addımlar vətəndaş məmnunluğunun artmasını şərtləndirib;*

*- Azərbaycanın dünya miqyasında reputasiyası güclənib. Prezident İlham Əliyevin müstəqil və milli maraqlara əsaslanan xarici siyasəti Azərbaycanın regional liderə - bölgədə güc mərkəzinə, dünya siyasətində nüfuzlu milli subyektə çevrilməsinə səbəb olub. Azərbaycanın təşəbbüsü və liderliyi ilə mühüm nəqliyyat və enerji layihələrinin reallaşdırılması, ikitərəfli və çoxşaxəli formatda əməkdaşlıq platformalarının yaradılması ölkəmizə mühüm iqtisadi mənfəət və siyasi dividendlər qazandırıb. Respublikamızın həmçinin beynəlxalq təşkilatlarda uğurla təmsil olunması və sədrlik etməsi Azərbaycana, şəxsən cənab İlham Əliyevə olan böyük inam və etimadın ifadəsi, dövlətimizin geostrateji əhəmiyyətinin göstəricisidir. Təsadüfi deyil ki, bu gün ölkəmiz həm müstəqil siyasət yürüdən regional güc mərkəzi, həm nüfuzlu və etibarlı tərəfdaş, həm də beynəlxalq dialoq və əməkdaşlıq məkanı kimi tanınır, beynəlxalq təşkilatlara rəhbərlik, mötəbər tədbirlərə isə evsahibliyi edir. Prezident İlham Əliyevin səmərəli fəaliyyəti və yüksək təşəbbüskarlığı sayəsində Azərbaycan ötən müddət ərzində bəşəriyyət üçün taleyüklü məsələlərin həllində mühüm rol oynayıb, regional və beynəlxalq təhlükəsizliyə mühüm töhfələr verib. Ölkəmizin 120 dövlətin təmsil olunduğu Qoşulmama Hərəkatına üzv qəbul edilməsi, 2019-cu ildən isə həmin təşkilata uğurla sədrlik etməsi bu qəbildən olan nümunələr sırasındadır. Ona görə də nüfuzlu strateji araşdırma mərkəzləri, beynəlxalq ekspertlər tərəfindən ifadə edilən rəylərdə Şərqlə Qərb arasında mənəvi-siyasi və mədəni-intellektual körpü rolunu oynayan Azərbaycanın beynəlxalq əməkdaşlıq prosesinə fundamental töhfələr verməsi olduqca yüksək dəyərləndirilir;*

*- Prezident İlham Əliyevin çoxvektorlu xarici siyasət kursu ilə yanaşı, Azərbaycan Respublikasının Birinci vitse-prezidenti, Heydər Əliyev Fondunun prezidenti, Yeni Azərbaycan Partiyası Sədrinin birinci müavini Mehriban xanım Əliyevanın uğurlu fəaliyyəti nəticəsində ölkəmiz qarşıya qoyduğu bir çox hədəflərə nail olub. Xüsusilə də Mehriban xanım Əliyevanın təşəbbüsləri əsasında reallaşdırılan layihələr vətəndaş məmnunluğunun artmasında, Azərbaycan həqiqətlərinin dünya ictimaiyyətinin diqqətinə çatdırılmasında, ölkəmizin müsbət imicinin beynəlxalq aləmdə daha da möhkəmlənməsində əvəzsiz rola malikdir. Həmçinin Azərbaycan mədəniyyətinin, ölkəmizin zəngin tarixi irsinin qlobal arenada sistemli şəkildə təbliğ olunması, multikulturalizmin və tolerantlıq ənənələrinin təşviqi, sivilizasiyalar arasında dialoqun inkişafına xidmət edən strateji tədbirlərin həyata keçirilməsi olduqca önəmli və faydalıdır;*

*- Nəhayət, bütün andiçmə mərasimlərində olduğu kimi, 18 aprel 2018-ci il tarixli inaqurasiyada da Azərbaycanın ərazi bütövlüyünün bərpasının zəruriliyinə toxunan cənab İlham Əliyev qətiyyətli Lider, cəsur Sərkərdə, polad iradəli Ali Baş Komandan kimi fəaliyyətini davam etdirərək 2 il 7 ay sonra bu ali məqsədə nail olaraq strateji hədəfə çatdı və torpaqlarımız işğaldan azad edildi! Sözsüz ki, bu, xalqımızın çoxəsrlik, zəngin və şərəfli dövlətçilik tarixinin ən parlaq səhifəsi, müstəsna siyasi hadisə və dövlətçilik tariximizdə bənzəri olmayan Zəfər salnaməsi, eyni zamanda, Heydər Əliyev ideyalarının təntənəsi, Prezident İlham Əliyevin böyük siyasətinin real nəticəsidir.*

## Qələbə formulu - güclü dövlət konsepsiyası

Çox vacib məqamlardan biri Böyük yolun - Heydər Əliyev yolunun Müzəffər davamçısı olan Prezident İlham Əliyevin bu tarixi, möhtəşəm, bənzərsiz və şanlı qələbəyə necə nail olması - milli Zəfərin necə qazanılmasıdır. Şübhəsiz ki, torpaqlarımız döyüş meydanında Ali Baş Komandanımızın rəhbərliyi ilə qüdrətli Azərbaycan Ordusunun erməni faşizmini məhv etməsi, işğalçıları darmadağın edərək layiqincə cəzalandırması nəticəsində azad olundu. Lakin məsələnin mahiyyəti daha dərin, məzmunu daha genişdir. Daha dəqiq desək, Prezident İlham Əliyevin milli maraqlara və bəşəri dəyərlərə söykənən dövlət konsepsiyası Azərbaycanı tarixi Zəfərə aparan amil oldu. Yəni ölkəmizin ərazi bütövlüyünün bərpa edilməsi müstəqillik illərində həyata keçirilən uğurlu və ardıcıl strateji kursun məntiqi nəticəsidir.

Müdrik dövlət xadimi, xalqımızın Ümummilli Lideri Heydər Əliyevin əsasını qoyduğu və Prezident İlham Əliyev tərəfindən uğurla davam etdirilən, inkişafa, intibaha, tərəqqiyə və qələbəyə hədəflənən siyasət sayəsində Azərbaycanın milli gücünün və iqtisadi potensialının artırılmasına, torpaqların işğaldan azad edilməsinə zəmin formalaşdıran əsas amil oldu.

Paralel olaraq ordu quruculuğu strategiyasının müvəffəqiyyətlə icra olunması, müasir standartlar və yeni yanaşmalar əsasında Silahlı Qüvvələrin döyüş qabiliyyətinin, hərbi hazırlıq səviyyəsinin artırılması, maddi-texniki təchizatının gücləndirilməsi Azərbaycanın öz milli maraqlarını, suverenliyini döyüş meydanında - hərb səhnəsində təmin etməsini şərtləndirdi.

Azərbaycan öz hədəfinə - ərazi bütövlüyünün bərpasına doğru hücum xarakterli, dərin strateji diplomatiya siyasəti həyata keçirməklə irəlilədi. Müasir beynəlxalq münasibətlər sistemində güclü dostluq və tərəfdaşlıq əlaqələrinin formalaşdırılması, sürətli yüksəlişin təmin edilməsi Azərbaycanın haqq işində qətiyyətli və birmənalı mənəvi-siyasi dəstək qazanılması baxımından xüsusi əhəmiyyətə malik oldu. Qərəzli dairələrin məkrli planlarının iflasa uğradılması, Azərbaycanın ərazi bütövlüyünün dəstəkləndiyi qərar və qətnamələrin qəbuluna nail olunması münaqişənin həlli istiqamətində ölkəmizin mövqeyinin möhkəmlənməsinə şərait yaratdı. Hücum diplomatiyasının tərkib hissəsi kimi uğurlu informasiya strategiyasının tətbiq olunması, mərkəzlərin Azərbaycana qarşı qara piar kampaniyasının fiaskoya uğradılması da mövqeyimizi möhkəmləndirən və təsir imkanlarımızı artıran çox önəmli amillərdən biri oldu.

Bütün bunlar Azərbaycana ərazi bütövlüyünün bərpası üçün çox mühüm üstünlüklər qazandırdı və son sözü döyüş meydanında Müzəffər Ali Baş Komandanın rəhbərliyi ilə şanlı Azərbaycan Ordusu dedi .

## XXI əsrin üçüncü onilliyi - yeni hədəflər və perspektivlər

Şübhəsiz ki, qalib xalq olaraq yaşamaq məğlub toplum kimi siyasi varlığını süründürməkdən şərəfli olmaqla yanaşı, daha çətin və daha məsuliyyətlidir. O səbəbdən hərb meydanında qazanılmış Zəfəri strateji prosesə çevirmək və Qələbəni diplomatiya meydanında, quruculuq müstəvisində möhkəmləndirmək vacibdir, tarixi zərurətdir. Xüsusilə də nəzərə almaq gərəkdir ki, bu Qələbə təkcə torpaqlarımızın işğaldan azad olunması - Azərbaycanın ərazi bütövlüyünün, tarixi ədalətin bərpası deyil, eyni zamanda, milli tərəqqinin yeni mərhələsinin başlanğıcı, yeni şanslar, yeni fürsətlər, yeni perspektivlər deməkdir.

Azərbaycanın qarşısında duran strateji vəzifələrdən biri işğaldan azad edilmiş ərazilərdə nəhəng quruculuq işlərinin aparılması, həmin torpaqlarda layiqli və dayanıqlı məskunlaşmanın təmin olunması üçün Böyük Qayıdışın həyata keçirilməsidir. Bu istiqamətdə mühüm addımlar atılır, həmin ərazilərdə müasir texnologiyalardan istifadə olunur, innovasiyalar tətbiq edilir, yeni infrastruktur yaradılır, beynəlxalq əməkdaşlıq çərçivəsində investisiya cəlb olunur. Prezident İlham Əliyevin "Azərbaycan Respublikasında iqtisadi rayonların yeni bölgüsü haqqında" fərmanından irəli gələn vəzifələrin icrası da diqqət mərkəzində saxlanılır. Şübhəsiz ki, Qarabağ və Şərqi Zəngəzurda bu istiqamətdə ardıcıl işlərin görülməsi, iqtisadi potensialdan səmərəli istifadə olunması milli inkişafın sürətlənməsinə əlavə təkan olacaq.

Bununla yanaşı, regionda kommunikasiya xətlərinin bərpası geniş formatda unikal əməkdaşlıq imkanlarının formalaşması deməkdir. Bu, Azərbaycanın həm tranzit, həm də ixracatçı ölkə kimi mövqeyini möhkəmləndirəcək, Şərqdən Qərbə, Asiyadan Avropaya doğru geniş coğrafiyada Azərbaycanın geosiyasi nüfuz zonasının, işbirliyi və inteqrasiya dairəsinin genişlənməsini təmin edəcək.

Prezident İlham Əliyevin işğaldan azad olunmuş ərazilərə hər səfəri, ikitərəfli münasibətlər formatında və beynəlxalq təşkilatlar çərçivəsində görüşlər zamanı qətiyyətli mövqe sərgiləməsi göstərir ki, ölkəmizin mövqeyi dəyişməzdir, respublikamız bütün strateji hədəflərinə doğru addım-addım irəliləyir, öz gücü ilə milli məqsədlərə nail olmaq iqtidarında olduğunu nümayiş etdirir. Cənab İlham Əliyev tarixin ən güclü Azərbaycanının Lideri kimi tarix yazmağa davam edir, XXI əsrin üçüncü onilliyinə Azərbaycanın müasir çağırışlara adekvat cavab verən suveren ölkə kimi irəliləməsini təmin edir.

*Nəzər yetirdiyimiz faktlar - istinad etdiyimiz reallıqlar, o cümlədən 2018-ci ildən bu günə qədər qət olunan məsafə, əldə edilən nailiyyətlər göstərir ki, qüdrətli, söz - nüfuz sahibi olan Azərbaycan reallığı Prezident İlham Əliyevin uğurlu siyasətinin real təzahürü, məntiqi nəticəsi, xalqımızın qürur, dövlətimizin isə güc mənbəyidir. Əsrə bərabər inkişaf və Zəfər yolu isə Heydər Əliyev ideyaları əsasında və Prezident İlham Əliyevin rəhbərliyi ilə Azərbaycanı yeni hədəflərə, yeni strateji nailiyyətlərə və zirvələrə doğru aparır.*

**Tahir BUDAQOV,**
***Yeni Azərbaycan Partiyası Sədrinin müavini - Mərkəzi Aparatın rəhbəri***

# ƏZİZ ŞUŞA, BİZ QAYITMIŞIQ!

Şuşanın Azərbaycan tarixində xüsusi yeri vardır. Bu, bizim qədim, tarixi şəhərimizdir. Əsrlər boyu azərbaycanlılar Şuşada yaşayıb, qurub, yaradıb. Şuşa nəinki Azərbaycanın, bütün Qafqazın incisidir.

**İlham ƏLİYEV**



## Xəyanətlə verilən Şuşa mərdliklə qaytarıldı, məhəbbətlə qurulur




## Milli Məclisin Şuşada ilk komitə iclası keçirildi

**Şuşaya daxil olan hər bir azərbaycanlı Müzəffər Ali Baş Komandan İlham Əliyevin xalq arasında böyük şöhrət qazanmış bu kəlamını qeyri-ixtiyari olaraq pıçıldayır:**

**"Əziz Şuşa, biz qayıtmışıq!"**

*Sonra sinədolusu nəfəs alır, gözdolusu ətrafa baxır!*

*Nə gözəldir qalib xalq kimi yenidən doğma Şuşaya qayıtmaq!*

*Nə gözəldir qələbə sevincini, qələbə qürurunu Şuşada da yaşamaq!*

*Nə gözəldir Vətəninə, torpağına sahib çıxmaq!*

*Nə gözəldir Vətən uğrunda "uf" demədən canını şəhid edən qəhrəman övladlara, iğid əsgər və zabitlərə sahib olmaq, onlarla qürur duymaq!*

*Nə gözəldir İlham Əliyev kimi rəhbəri, Sərkərdəsi olmaq!*

Bax, onda qalib xalqa çevrilirsən!

Bax, onda məğrur, qürurlu millət sayılırsan!

Bax, onda dünyada da tanınırsan və sevilirsən!

Bax, onda sənə hörmətlə yanaşırlar, müharibə təcrübəndən öyrənərək bəhrələnirlər!

**Bütövlükdə itirdiklərini döyüşərək geri qaytarmaqla Vətəninə, torpağına yiyə durmuş olursan!**

❖ ❖ ❖

*Əziz Şuşa, biz qayıtmışıq!*

*Növbəti dəfə bu sözləri Milli Məclisin bir qrup deputatı böyük sevinclə, fərəhlə, inamla söylədi!*

**Hamımızın ən böyük arzusu idi ki, Milli Məclisin iclaslarından birini azad Şuşada keçirək!**

**Bu arzumuza yaşıl işıq yandıranlar var olsunlar.**

**Bizə bu bəxtəvərliyi qismət etdilər...**

Milli Məclisin Hüquq siyasəti və dövlət quruculuğu ilə Müdafiə, təhlükəsizlik və korrupsiya ilə mübarizə komitələrinin birgə iclasının Şuşada keçirilməsinə qərar verildi!

Xəbəri eşidəndə minnətdarlıq etməyə söz tapmadıq!

**Erməninin saxta parlamenti və onun Şuşadakı yeni binası gorbagor ediləndən sonra Azərbaycan Parlamentinin üzvlərinin burada iclas keçirmələri düşmənə daha bir zərbə sayılır!**

Bəli, Azərbaycan Respublikasının Milli Məclisi də Şuşaya qayıtdı!

Orada ilk komitə iclasını keçirdi.

❖ ❖ ❖

Böyük sevinc və həyəcanla yola düzəldik.

*Bu gün Azərbaycanda ümumilikdə 2 mənzərə var:*

*İşğal zonasına qədər müasir Azərbaycanın görünüşü və işğal ərazilərinin ürəkağrıdan mənzərəsi.*

Bakıdan çıxıb ölkənin istənilən bölgəsinə üz tutsan, hər yerdə geniş və rahat yollar, yaraşıqlı, gözoxşayan evləri olan abad yaşayış məntəqələri, əkin sahələri və bağbağçalar görərsən.

İşğaldan azad olunmuş ərazilər isə erməni vəhşiliyinin və vandallığının əlamətləri olan dağıntı və xarabalıqlardır.

**Ancaq bu viran qoyulmuş yurd yerləri, qırılmış meşələr və kimsəsiz torpaqlar bizim üçün daha çox doğma və əzizdir!**

Çünki ata-baba torpaqlarımızdır!

Çünki onları döyüşərək, qan tökərək geri qaytarmışıq!

Çünki onları şəhid verərək geri qaytarmışıq!

**İşğal ərazilərinin əsas simvolu Zəfər yoludur!**

**44 günlük Vətən müharibəsində qəhrəman Azərbaycan döyüşçüsünün günlərlə rəşadətlə irəlilədiyi, bütün təhlükələrə sinə gərdiyi, nəhayət, əlbəyaxa döyüşlə qədim Şuşamızı geri qaytardığı cığır qısa müddətdə dövlət başçımız cənab İlham Əliyevin iradəsi ilə "Zəfər" adını daşıyan qələbə yoluna çevrildi.**

**Bu gün azad Qarabağın şah damarı Zəfər yolu sayılır!**

Artıq işğal ərazilərində çoxsaylı yollar çəkilir, quruculuq, abadlıq işləri aparılır, böyük qaydışa sürətli hazırlıq işləri görülür.

Yolboyu əsasən rast gəldiklərin torpaq, qum, çınqıl, mişar daşı daşıyan ağırtonnajlı yük maşınları, bir də xüsusi geyimli inşaatçılar olur!

*Daş, qum-çınqıl karxanaları, sement zavodları dayanmadan işləyir.*

*Elektrik xətləri hər elə-obaya işıq, nur daşıyır!*

*Müzəffər Ali Baş Komandan İlham Əliyevin rəhbərliyi ilə xarabalıqların laləzarlığa çevrilməsi üçün genişmiqyaslı nəhəng işlər görülür.*

❖ ❖ ❖

Şuşanı təkcə şuşalılar, qarabağlılar deyil, bütün Azərbaycan xalqı ürəkdən sevir!

Hərə öz sevgisini bir tərzdə, bir formada ifadə edir!

**Mənim təsəvvürümdə isə bu qədim şəhəri Müzəffər Ali Baş Komandan İlham Əliyev qədər sevən tapılmaz!**

**Mübaliğə etmirəm!**

**Hamının gördüyünü, bildiyini dilə gətirirəm!**

**Bir də qısa müddətdə İlham Əliyevin etdiklərini xatırladıram:**

- Şuşa Müzəffər Ali Baş Komandanın rəhbərliyi ilə qeyri-adi hücumla alındı;
- Döyüşlər vaxtı şəhərdə heç bir dağıntıya yol verilmədi;
- Şuşa ilə bağlı xüsusi qanun qəbul edilərək şəhərə fərqli status verildi;
- Heydər Əliyev Fondunun xətti ilə tarixi abidələrin və dini məbədlərin bərpasına başlanıldı;
- Şuşa Azərbaycanın mədəniyyət paytaxtı elan edildi;
- 2022-ci il Azərbaycanda Şuşa ilinə çevrildi;
- Şuşada bir-birinin ardınca mədəniyyət, musiqi tədbirləri keçirilməyə başladı!
- Cıdır düzündə Novruz tonqalı qalandı;
- Azərbaycan-Türkiyə qardaşlığını strateji müttəfiqliyə çevirən Şuşa Bəyannaməsi bu şəhərdə imzalandı!
- Şuşadakı erməni vəhşiliyini və vandallığını bütün dünyaya nümayiş etdirmək üçün beynəlxalq KİV-lərin, QHT-lərin, din xadimlərinin, bloqçuların, tanınmış insanların buraya çoxsaylı səfərləri təşkil edildi;
- Şuşanın bərpasını və insanların qayıdışını təmin etmək üçün zəruri işlərin görülmə sürəti artırıldı...

**Bütün bunların hamısını Prezident İlham Əliyev etdi!**

**Öz düşüncəsi, öz iradəsi, öz təşəbbüsü ilə!**

**Bununla həm də doğma yurda, doğma Azərbaycana tükənməz sevgisini bir daha büruzə verdi!**

**Həm də bir daha Vətənin, xalqın sevgi və ehtiramını qazandı!**

❖ ❖ ❖

Milli Məclisin budəfəki iclası qeyri-adi idi.

Ona görə yox ki, iki komitə birgə tədbir keçirirdi.

Ona görə yox ki, iclas parlament binasında deyildi.

Bir neçə komitənin eyni vaxtda toplaşması və iclasların birlikdə keçirilməsi təcrübəsi dəfələrlə baş vermişdi.

**Qeyri-adilik onda idi ki, Milli Məclis komitələrinin birgə iclası Şuşada keçirilirdi!**

**Müzəffər Ali Baş Komandan İlham Əliyev tərəfindən işğaldan azad edilmiş Şuşada!**

**Yeni dövrünü, yeni həyatını yaşayan Şuşada!**

**Dövlət başçısı tərəfindən mədəniyyət paytaxtı elan olunmuş Şuşada!**

**2023-cü il üçün Türk dünyasının mədəniyyət paytaxtı seçilmiş Şuşada!**

**Həm də Şuşa ilində!**

**Cənab İlham Əliyev bu xoşbəxtliyi də bizə qismət elədi!**

*Ermənilərin Şuşada qondarma parlament yaradaraq qondarma qurumlarının iclaslarını bu qədim Azərbaycan şəhərində keçirmək istəklərini gözlərində qoydu!*

*Parlament binalarını gorbagor etdi!*

❖ ❖ ❖

Bu sevinc, bu qürur, bu minnətdarlıq duyğuları iclasın gedişində aydın duyulurdu, deputatların əhvali-ruhiyyələrində hiss olunurdu, danışan dillərdə səslənirdi!

Hər çıxışda həyəcan qarışıq sevinc də vardı!

Millət vəkilləri Şuşa ilə bağlı xatirələrini söyləyir, Şuşaya olan məhəbbətlərini bölüşürdülər!

**Hamı burada özünü həm də şuşalı hiss edirdi!**

Azərbaycan Milli Məclisinin də qədim Şuşaya qaydışının təsdiqi sayılan iki komitənin birgə iclası daha bir maraqlı məqamla yadda qaldı:

İclasda iştirak edən bütün deputatlar söz alıb ürəyini boşaltdı!

**Bu xoşbəxtliyi, Şuşada ilk parlament iclasının iştirakçısı olmaq səadətini onlara qismət edən Müzəffər Ali Baş Komandan İlham Əliyevə dərin təşəkkür və minnətdarlığını söylədi.**

❖ ❖ ❖

**Erməni yalan danışmaq üçün yaranıb!**

**Hiyləgərlik üçün yaranıb!**

**Aldatmaq üçün yaranıb!**

**Yaltaqlanmaq üçün yaranıb!**

**Yarınmaq üçün yaranıb!**

**Oğurlamaq üçün yaranıb!**

**Dağıtmaq, məhv etmək üçün yaranıb!**

Bu xalq döyüşməyə qadir deyil!

Bu xalq sözünün sahibi deyil!

Bu xalq müstəqil yaşamağa qadir deyil!

Bu xalq müstəqil dövlət qurmağa qadir deyil!

Bu xalq ağasız, sahibsiz mövcud olmağa qadir deyil!

Bu xalq qurmağa, yaratmağa qadir deyil!

*Torpaq oğrusudur!*

*Mədəniyyət oğrusudur!*

*Kilsə oğrusudur!*

*Mətbəx oğrusudur!*

EYNİ ZAMANDA:

- Yalan tarix yazmaq ustasıdır!
- Dini məbədləri saxtalaşdırmaq ustasıdır!
- Özünə "qəhrəman keçmiş" uydurmaq ustasıdır!
- "Böyük Ermənistan" xülyasına qapılmaq ustasıdır!
- "Məğlubedilməz millət" mifi düzəltmək ustasıdır!
- Bütövlükdə alçaq və şərəfsiz əməllər ustasıdır!

**Qədim Azərbaycan torpaqlarında məskunlaşdığı iki əsrə yaxın müddətdə bütün bunları dəfələrlə nümayiş etdirib!**

Deyilənlərin şahidi olmaq üçün bu gün işğaldan azad edilmiş Qarabağa və Şərqi Zəngəzura baş çəkmək kifayətdir!

*Ermənilər bütün vəhşi mahiyyətlərini, rəzil silqətlərini viran etdikləri bu ərazilərdə tam çılpaqlığı ilə ortaya qoyublar...*

*Əsl sifətlərini, simalarını göstəriblər.*

Goreşən olduqlarını isbat ediblər.

Başqalarının qoltuğuna qısılaraq mütiliklərini və qorxaqlıqlarını sübuta yetiriblər.

Güclünün qabağında kölə kimi, zəifin qabağında təkəbbürlü davrandıqlarını göstəriblər.

Bir sözlə, əsl erməni olublar!

❖ ❖ ❖

**Su murdarlıq götürməz - demişlər.**

**Şuşa da su kimi təmiz, saf və pakdır!**

Doğrudur, uzun müddət murdar ləpirlilərin sinəsində gəzməsinə dözdü...

Arxalı köpəklər Şuşanın dağlarında çox hürdülər...

Əsgər payı yeməkdən peysərləri qat baglamış, sinələri dəmirdümürlə dolu "generallar" burada çox lovğalandılar...

Erməni "haxçıqları" poza verərək özlərini nümayiş etdirdilər...

Sərxoş dövlət başçıları yallı getdilər...

"Parlament binası" tikərək iclas keçirmək fikrinə düşdülər...

**Hətta bu qədim Azərbaycan şəhərinin adını belə dəyişərək özününküləşdirməyə çalışdılar...**

**Amma elə ki, bu qala-şəhərin əsl sahibləri hünər və qəhrəmanlıqla geriyə qayıtdılar, bax, həmin anda əsl sifətləri, mahiyyətləri üzə çıxdı!**

Dabanlarına tüpürərək tülkü kimi qaçdılar!

İndi hürmək səsləri ara-sıra eşidilir!

Uzaqdan, kiminsə arxasından!

Tezliklə o səsləri də kəsəcəyik!

Bunu özləri də yaxşı bilirlər!

**Hazırda işimiz çoxdur: Şuşanı bərpa edirik, yenidən tikib qururuq.**

**Şuşaya şöhrət gətirən şuşalıların büstlərini geri qaytararaq yerinə qoymuşuq!**

**Ulu Öndərimizdən yadiğar qalan Vaqifin məqbərəsini yenidən bərpa edərək əvvəlki görkəminə qaytarmışıq!**

EYNİ ZAMANDA:

- Dağıdılmış, yad nəfəs dəymiş və yad yazılar yazılmış məscidləri təzələyib bərpa edirik!
- Yeni içməli su xətləri çəkirik!
- Qurumuş bulaqlara həyat veririk!
- Cıdır düzü də əvvəlki növrağına qayıdıb...
- İndi buradan "Qarabağ şikəstəsi", muğam sədaları ucalır...
- "Xarıbülbül" festivalı keçirilərək Azərbaycanda yaşayan xalqların və bütün millətlərin musiqisi, mədəniyyəti nümayiş etdirilir.
- Ənənəvi "Vaqif poeziyası" günləri keçirilir.

**Təzələnən, saflaşan, əsl həyatına qayıdan Şuşa yenidən dünyanın hər yerindən gələn qonaqlarını sevinclə, fərəhlə qəbul edir!**

❖ ❖ ❖

Müstəqil dövlətimizin parlament tarixində qeyri-adi iclaslar çox olub.

Onların bir qismi tarixə çevrilməklə bərabər, biz deputatların da yaddaşında silinməz izlər buraxıb.

**Ulu Öndərimizin iştirak etdiyi plenar iclaslar...**

**Möhtərəm Prezident İlham Əliyevin iştirakı ilə keçirilən iclaslar...**

**Dünyanın görkəmli siyasi xadimlərinin iştirak etdikləri iclaslar...**

*Milli Məclisin belə möhtəşəm komitə iclasını isə kimsə xatırlamır.*

*Həm də işğaldan azad olunmuş, Prezidentimiz tərəfindən mədəniyyət paytaxtı elan edilmiş Şuşada!*

*Bu tarixi iclasın iştirakçıları arasında olmaq da böyük sevinc və xoşbəxtlik sayılır!*

Bəli, Azərbaycan xalqı sübut etdi ki, o, döyüşkən və qəhrəman xalqdır!

Əsl sərkərdəsini tapanda itirdiklərini geri qaytarmağı, qudurmuş düşməni cəzalandırmağı, qisasını almağı bacarır!

Sonra isə yenidən tikib-quraraq xoşbəxt günlərini də geri qaytarır!

❖ ❖ ❖

*"Əziz Şuşa, biz səni dirçəldəcəyik!"*

*Müzəffər Ali Baş Komandan İlham Əliyevin bu vədi artıq böyük sürətlə reallığa çevrilməkdədir.*

*Çünki Müzəffər Ali Baş Komandanımız hər şeyi vaxtında və özü bildiyi kimi edir!*

**İlham Əliyev qüdrətli, müasir ordu yaratdı!**

**İlham Əliyev bu ordunu ən yeni silahlarla, yeni strategiya və taktika ilə təmin etdi!**

**İlham Əliyev yeni gənclər nəsli - Qarabağı görməyən, amma Qarabağ uğrunda hər an döyüşməyə, lazım gələndə şəhid getməyə hazır olan qəhrəmanlar nəsli tərbiyələndirdi.**

Bu ordu, bu gənclər, bu qəhrəmanlar Şuşanı yalın əllə - keçilməz cığırlardan keçməklə, yalçın qayalara dırmaşmaqla, əsgər süngüsü və lapatkası ilə əlbəyaxa döyüşməklə aldı!

**İndi isə yenə də İlham Əliyevin rəhbərliyi ilə Şuşanı yenidən şəhərlər tacına, Qafqazın incisinə çevirmək üçün ürəklə, hünərlə çalışırlar!**

❖ ❖ ❖

Şuşanın çox qəribə aurası var...

*Buraya gələnlər geri qayıtmağa heç zaman tələsmirlər!*

*Geri dönəndə isə bir daha Şuşa ilə yenidən görüşəcəkləri barədə düşünürlər.*

*Biz də bu düşüncə ilə əziz, doğma Şuşanı tərk etdik!*

I Qarabağ müharibəsində Şuşa xəyanətlə düşmənə verilmişdi.

Şəhərin rəhbəri və özünümüdafiə batalyonunun komandiri xaincəsinə qətlə yetirilmişdi.

AXC-nin xəyanətkar müdafiə naziri Şuşaya gedərək özünə yalançı "sui-qəsd" təşkil etdirmişdi, şəhərin müdafiəsini zəiflətmişdi.

Bütövlükdə Şuşanın müdafiəsi düzgün qurulmamışdı, imkanlar səfərbərliyə alınmamışdı.

Beləliklə, başsızlıq və səriştəsizlik nəticəsində qala-şəhər düşmən əlinə keçmişdi.

❖ ❖ ❖

Vətən müharibəsində Şuşanın qəhrəman Azərbaycan döyüşçüləri tərəfindən geri qaytarılması özünün qeyri-adiliyi ilə dünya müharibələri tarixinə düşdü.

**İndi isə qədim Şuşa Prezident İlham Əliyevin rəhbərliyi ilə xüsusi plan əsasında və məhəbbətlə, Heydər Əliyev Fondunun bir-birindən dəyərli layihələrinin gerçəkləşdirilməsi yolu ilə bərpa olunaraq abadlaşdırılır.**

**Bütün bunlar hər bir azərbaycanlıda haqlı qürur, minnətdarlıq və sevinc hissi doğurur!**

**Qarabağ bizimdir!**

**Qarabağ Azərbaycandır!**

**Bəxtiyar SADIQOV**



# Tarixə yazılan 4 il

Müasir dünyamızın ən parlaq siyasi liderlərindən olan cənab İlham Əliyevin xalqımızın yekdil səsi ilə növbəti dəfə Azərbaycan Respublikasının Prezidenti seçilməsindən dörd il ötür. 2018-ci ilin 11 aprelində xalqımız Prezident İlham Əliyevin şəxsində bir daha sülhə, sabitliyə, inkişafa, tərəqqiyə, insanların təhlükəsiz həyatına, cəmiyyətimizin gələcəyinə səs verdi. Son onilliklərdə görülmüş işlər, ortaya qoyulan real əməllərin nəticələri ən yüksək səviyyədə və obyektiv qiymətləndirildi. Bu seçki, bu parlaq qələbə bizi müasir tariximizdəki ən böyük nailiyyətə yetirən böyük bir yolun başlanğıcı idi. Qədirbilən Azərbaycan xalqı bu dəfə də öz müdrik seçimini etdi. Prezident İlham Əliyevə göstərilən mütləq etimadın illərdən bəri torpaqlarımızın azadlığı uğrunda aparılan fədakar mücadilənin son mərhələsini də tamamlamağa şərait yaradacağına, bizi tarixi zəfərimizə qovuşduracağına bütün qəlbi ilə inandı. Xalqımız öz inamında bu dəfə də yanılmadı.

## Gələcəyə nikbin nəzərlərlə

"Biz gələcəyə baxmalıyıq və baxırıq. Növbəti illərdə görüləcək işlər haqqında bizim çox aydın təsəvvürümüz, planlarımız, proqramlarımız var... Ona görə mən əminəm ki, bütün Azərbaycan xalqı və biz hamımız gələcəyə çox böyük nikbinliklə baxırıq. Hamımızın amalı ondan ibarətdir ki, ölkəmiz daha da güclənsin, daha da qüdrətli dövlətə çevrilsin, Azərbaycan vətəndaşları daha da yaxşı yaşasınlar". Azərbaycan Prezidenti İlham Əliyev seçkidəki qələbəsindən sonra 2018-ci il aprelin 18-də Milli Məclisdə keçirilən andiçmə mərasimindəki çıxışında belə demişdi. Aradan keçən illər bu kəlmələri real əməllərlə təsdiqlədi. Ölkə rəhbərinin milli dövlətçilik tarixinin ən qüdrətli mərhələsinə gətirib çıxardığı Azərbaycan daha da gücləndi. Ölkəmiz dörd il əvvəlkindən də qüdrətli oldu. Vətəndaşlarımızın maddi-rifah halı yüksəldi. Ölkə boyu həyata keçirilən infrastruktur layihələri ilə respublikamızın siması bir qədər də yeniləndi, müasirləşdi. Əvvəlki illərdə olduğu kimi, ötən dörd ildə də Azərbaycan böyük inkişaf yolu ilə irəlilədi. Ölkəmizdə tətbiq edilən mükəmməl islahatlar konsepsiyasının müəllifi kimi, Prezident İlham Əliyev müasir Azərbaycanın iqtisadi inkişaf modeli üzrə yeni nailiyyətlərə imza atdı.

Azərbaycan dövlətinin ümumi siyasətinin ayrılmaz tərkib hissəsi olan bu model ölkəmizin iqtisadi tərəqqisinə, dünya birliyində mövqeyinin köklü surətdə möhkəmlənməsinə, inkişaf etmiş güclü dövlətlər sırasında yer almasına zəmin yaratdı. Prezidentimizin yürütdüyü uğurlu, qətiyyətli siyasət, həyata keçirdiyi dövlət proqramları və makroiqtisadi layihələr ötən dörd ildə Azərbaycan iqtisadiyyatının yüksəlişinə güclü təkan verdi. Bu illərdə iqtisadiyyatımız daha da böyüdü, dövlətçiliyimizin əsasları möhkəmləndi.

## Güclü iqtisadiyyat, müstəqil siyasət

"Ancaq iqtisadiyyatı güclü olan ölkələr müstəqil siyasət apara bilərlər". Bu həqiqət Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin qlobal dünyamızın reallıqlarına baxışında xüsusi yer tutur. İqtisadiyyatın davamlı şəkildə gücləndirilməsi zərurətindən çıxış edərək dövlət başçımız bu sahədə ardıcıl islahatların təşəbbüskarı kimi çıxış edir.

2018-ci il aprelin 11-də keçirilən prezident seçkiləri zamanı xalqın İlham Əliyevə göstərdiyi etimad həm də bu uğurlara verilmiş səs, siyasi kursun davamına göstərilmiş etimad idi. Cənab İlham Əliyevin həmin seçkilərə qədər də Azərbaycana rəhbərlik etdiyi 2003-2018-ci illər tariximizə möhtəşəm iqtisadi yüksəliş dövrü kimi daxil olmuşdur. Bu dövrdə ümumi daxili məhsul 3,2 dəfə, büdcə gəlirləri 13,5 dəfə artmışdır.

Bu illərdə 1 958 400 yeni iş yeri açılmış, 326.6 min nəfərə ünvanlı dövlət sosial yardımı verilmişdir. İşsizliyin səviyyəsi 9.2 faizdən 5 faizə, yoxsulluğun səviyyəsi 44.7 faizdən 5.4 faizə endirilmişdir. 245 min nəfər məcburi köçkün mənzillə təmin olunmuşdur.

Azərbaycan Prezidenti ölkəmizdə azad sahibkarlığa, biznes fəaliyyətinə əlverişli şərait yaratmışdır.

## Uğurlu enerji layihələri

Bu illərdə ölkə iqtisadiyyatının neft-qaz sektoru da əsaslı şəkildə inkişaf etmişdir. Ümummilli Lider Heydər Əliyevin təməlini qoyduğu Bakı-Tbilisi-Ceyhan əsas neft ixrac boru kəməri 2006-cı ildə istifadəyə verilmiş, ölkə böyük neft gəlirləri əldə etməyə başlamışdır. Bakı-Tbilisi-Ərzurum qaz kəməri isə Azərbaycanı qaz ixrac edən ölkəyə çevirmişdir. 2014-cü il sentyabrın 20-də "Cənub qaz dəhlizi"nin təməli qoyulmuş, 2018-ci ilin 29 may tarixində Bakıda "Cənub qaz dəhlizi"nin, 12 iyun tarixində isə Əskişəhərdə bu dəhlizin mühüm hissəsi olan Trans-Anadolu (TANAP) qaz boru kəmərinin açılışı olmuşdur. "Cənub qaz dəhlizi"nə yatırılan sərmayə 40 milyard dollara bərabərdir. Bu vəsaitin böyük hissəsi xarici tərəfdaşlar, banklar tərəfindən qoyulub.

Aparılan düzgün siyasət nəticəsində 2003-2018-ci illər ərzində Azərbaycan həmçinin elektrik enerjisini idxal edən ölkədən ixrac edən ölkəyə çevrilmişdir. Bu illərdə ölkəmizdə böyük infrastruktur layihələri reallaşdırılmışdır. Ölkə daxilində enerji təminatı əsaslı şəkildə yaxşılaşmışdır. 30-dan çox elektrik stansiyası tikilmişdir. Həmçinin ölkənin sosial-iqtisadi inkişafı baxımından son dərəcə mühüm əhəmiyyət kəsb edən yol-nəqliyyat infrastrukturunda da sürətli inkişaf baş vermişdir. Təkcə 2003-2018-ci illərdə Azərbaycanda 15 min kilometr yeni yol çəkilişi təmin edilmişdir. Altısı beynəlxalq stasusa malik olmaqla yeddi aeroport tikilmişdir. Dəmir yolu infrastrukturu yenilənmişdir.

Bu illərdə su təchizatı ilə bağlı məsələlər də, demək olar ki, öz həllini tapmışdır. 2003-2018-ci illər Azərbaycanın möhtəşəm idman uğurları ilə də tarixə yazılmışdır. Azərbaycan idmançıları 15 il ərzində Olimpiya oyunlarında, dünya və Avropa çempionatlarında parlaq qələbələr qazanmışlar.

## Beynəlxalq aləmdə güclənən mövqelər

2003-2018-ci illərdə Azərbaycan qlobal rəqabətlilik indeksində dünyadakı mövqeyini xeyli gücləndirmişdir. Davos Dünya İqtisadi Forumunun "2017-2018 Qlobal Rəqabətlilik Hesabatı"nda Azərbaycan 35-ci pillədə qərarlaşmış və MDB məkanında liderliyini qoruyub saxlamışdır. Azərbaycan dünyada ən çox islahat aparan 10 ölkədən biri kimi tanınmışdır. Həmçinin ölkəmiz innovasiya potensialına görə dünyada 44-cü, dövlət orqanlarında İKT-nin tətbiqi üzrə 14-cü olmuşdur. Ölkə ərazisində internetin tətbiqi genişləndirilmişdir.

İKT sektorunun iqtisadiyyatda payı 3,7 dəfə artmışdır. Azərbaycan bütün sahələrdə uğur hekayəsini əzmlə davam etdirir, müasir dünyanın çağırışlarına daha dayanıqlı iqtisadiyyat formalaşdırmaqla reaksiya verir. Yüksək texnologiyaların sürətli inkişafı, ölkəmizin dünyanın məhdud sayda üzvə malik kosmik klubuna daxil olması da bunun bariz göstəricilərindəndir.

Bu mənada xalqımızın 2018-ci ilin 11 aprel seçkisi zamanı nümayiş etdirdiyi mövqe tam məntiqli idi və qədirbilən xalqımızın qazanılan nailiyyətlərə ədalətli, obyektiv münasibətini göstərirdi. Bu inkişaf siyasəti 2018-ci ildən keçən müddət ərzində də uğurla davam etdirilməkdədir.

Bu dövrdə beynəlxalq müstəvidə də Azərbaycanın mövqeləri xeyli dərəcədə gücləndi. 2003-2018-ci illər ərzində Prezident İlham Əliyevin rəhbərliyi altında həyata keçirilən xarici siyasət və nəticəyə hesablanmış diplomatik uğurlar Azərbaycanın BMT, Avropa Şurası, ATƏT, NATO və digər nüfuzlu beynəlxalq təşkilatların yüksək tribunasından daha qətiyyətlə çıxış etməsinə, bir çox məsələdə beynəlxalq aləmin dövlətimizin rəyinə böyük hörmətlə yanaşmasına münbit şərait yaratdı. Ötən 4 il bu istiqamətdə uğurlarımızın sırasını daha da genişləndirdi.

Bu gün bütün dünyada Azərbaycan Respublikası Prezidentinin mövqeyinə, irəli sürdüyü təşəbbüslərə xüsusi diqqət var. Beynəlxalq ictimaiyyət Prezident İlham Əliyevin fikirlərinə, yanaşmalarına, qlobal proseslər haqqında rəylərinə həssaslıqla, rəğbətlə yanaşır. Çünki Azərbaycan Prezidentinin yürütdüyü mükahimələrin, proqnozların, irəli sürdüyü təkliflərin düzgünlüyünü zaman dəfələrlə sübuta yetirib.

## İnsan amili, yüksək rifah, milli maraqlar

Prezident İlham Əliyevin siyasətində insan amili hər zaman xüsusi önəm kəsb edir. Azərbaycan Prezidentinin rəhbərliyi ilə aparılan və gələcəyə hesablanmış sosial-iqtisadi siyasət sosial dövlət olaraq ölkəmizdə nəzərdə tutulmuş bütün layihələrin icrasını və islahatların dövrün reallıqlarına uyğun olaraq dərinləşməsini təmin edir. Azərbaycanın bu sahədə nüfuz qazanmasında, yeni sosial və iqtisadi çağırışların müzakirəsi üçün ideal məkan kimi qəbul olunmasında dövlətimizin təkmil sosial-iqtisadi islahatları, uğurlu siyasəti əsas rol oynayır.

2003-2018-ci illər ərzində ölkəmizdə maaşlar təxminən 7 dəfə, pensiyalar 10 dəfədən çox artıb. Sosial infrastruktur inkişaf edib. 3100-dən çox məktəb və 640-dan çox xəstəxana tikilib, yaxud təmir edilib. Bölgələrdə 43 olimpiya idman kompleksi yaradılıb. Qeyd olunan rəqəmlər onu göstərir ki, sosial siyasət daim diqqət mərkəzindədir. Ötən dörd il bu istiqamətdə əldə edilmiş nailiyyətlərin sırasını genişləndirən tarixi mərhələdir.

Prezident İlham Əliyevin ölkəmizə rəhbərlik dövrü Azərbaycan Ordusunun da sürətli inkişaf dövrüdür. Bu illərdə ordu quruculuğuna xüsusi diqqət yetirilmiş, şəxsi heyətin hazırlığı, döyüş ruhu, təchizat, silah-sursat, texnika baxımından ordumuz dünyanın ən güclü orduları sırasına daxil olmuşdur. 2016-cı ilin Aprel döyüşləri bütün dünyaya Azərbaycan Ordusunun gücünü, qələbə əzmini göstərdi. Ədalətin bərpa olunacağına ümidlərimizi artırdı. Həmin illər ərzində əldə olunmuş iqtisadi inkişaf və aparılan effektiv xarici siyasət nəticəsində Ermənistan bütün regional layihələrdən təcrid olundu. Azərbaycan diplomatiyasının uğurları sayəsində dünya münaqişə ilə bağlı həqiqətləri daha aydın görməyə, regionun əsas güc mərkəzi, lider dövləti olan Azərbaycana münasibətdə daha rasional mövqe tutmağa başladı. Azərbaycanın mədəniyyət diplomatiyasının uğurlarında ölkəmizin Birinci vitse-prezidenti, Heydər Əliyev Fondunun rəhbəri, UNESCO və ICESCO-nun xoşməramlı səfiri Mehriban xanım Əliyevanın xidmətlərini də xüsusi vurğulamalıyıq. Mehriban xanımın təşəbbüskarı olduğu layihələr sayəsində dünya Azərbaycanın mədəni dəyərlərini, mənəvi dünyasını yenidən kəşf etmiş, fərqli mədəniyyətlərin təmas məkanı, multikulturalizm prinsiplərinə sadiq, zəngin tolerantlıq ənənələrinə malik ölkə kimi Azərbaycanın mövqeləri daha da möhkəmlənmişdir.

## Sağlamlıq naminə

Prezident İlham Əliyevin Azərbaycana rəhbərliyi dövrü səhiyyə sektorunda köklü islahatlarla əlamətdardər. Ölkəmizdə səhiyyə sektorunun inkişafı ilə bağlı görülən işlər dövlətin həyata keçirdiyi sosial siyasətin başlıca istiqamətlərindən birini təşkil edir. Təbii ki, bu da dövlətimizin vətəndaş amilinə verdyi dəyərdən irəli gəlir. İnsanların sağlam, əmin-amanlıq şəraitində yaşaması dövlətin siyasətində əsas yer tutur. Atılan addımlar, həyata keçirilən məqsədyönlü siyasət bu sahəni keyfiyyət və kəmiyyət göstəriciləri ilə zənginləşdirir. Səhiyyə sektoru artıq yeni mərhələdə inkişaf edir.

Səhiyyə ilə bağlı mühüm dövlət proqramlarının hazırlanaraq həyata keçirilməsi, əhalinin sağlamlığının daha etibarlı şəkildə qorunması, onların ən yüksək səviyyədə tibbi xidmətlərlə təmin olunması bu istiqamətdə həyata keçirilən siyasətin prioritetləridir. Səhiyyə müəssisələrinin təmiri və bərpası, ən müasir avadanlıqlarla təchizatı, vətəndaşların pulsuz dərman preparatları ilə təmin olunması, müalicəsi, uşaqların bütün növ tibbi xidmətlərlə əhatə olunması islahatların əsasını təşkil edir.

Azərbaycan Prezidentinin fərmanları əsasında təsdiqlənərək uğurla icra edilən regionların sosial-iqtisadi inkişafına dair dövlət proqramları çərçivəsində bölgələrdə diaqnostika mərkəzlərinin tikilib istifadəyə verilməsi də bu diqqət və qayğıdan irəli gəlir. Cənab İlham Əliyevin bölgələrə səfərləri çərçivəsində yeni səhiyyə ocaqları istifadəyə verilir. Yeni tibb müəssisələrinin təməli qoyulur. Regionlarda yaşayan əhalinin tibbi xidmətlərlə keyfiyyətli şəkildə təmin olunması üçün bütün növ müayinə və müalicə prosesləri təşkil edilir. Regionlarda ən mürəkkəb əməliyyatların həyata keçirilməsinə imkanlar yaradılır.

Prezident İlham Əliyev digər sahələr kimi, səhiyyədə də yüksəkixtisaslı kadrların yetişdirilməsinə xüsusi önəm verir. Dünya səhiyyə elminin uğurlu inkişafını insanların sağlamlığına töhfə kimi dəyərləndirən dövlət başçısı bildirir: "Biz çalışmalıyıq ki, dünyada bu sahədə gedən ən son yeniliklər, ixtiralar Azərbaycanda da tətbiq olunsun. Biz buna hazır olmalıyıq. Yaradılan maddi-texniki baza, müasir avadanlıqlar belə imkanları verir. Həkimlərin peşəkarlığı, bilikləri artmalıdır. Həkimlər daim öz fəaliyyətləri, işləri ilə elə etməlidirlər ki, daha da bilikli olsunlar. Elə edək ki, Azərbaycanda istənilən ən ağır əməliyyat aparıla bilsin. Son illərdə deyə bilərəm ki, biz buna nail ola bilmişik. Çünki bu gün Azərbaycanda ən ağır ürək-damar əməliyyatları, orqan transplantasiyaları aparılır. Ancaq sirr deyil ki, bəzi insanlar, xüsusilə imkanlı insanlar müalicə üçün hələ də daha çox xaricə üz tuturlar. Biz elə bir vəziyyət yaratmalıyıq ki, buna ehtiyac olmasın. Azərbaycanda ən yüksək tibbi xidmət, ən yüksək peşəkarlıq olmalıdır. Mən əminəm ki, birgə səylər, həm dövlət tərəfindən aparılan siyasət, yeni tibb ocaqlarının yaradılması, müasir avadanlığın mövcudluğu və həm də həkimlərin peşəkarlığı, təkmilləşməsi bizi bu məqsədə nail olmağa gətirib çıxaracaqdır".

Azərbaycan dövləti bu istiqamətdə bütün mümkün addımları atır. Bir məqamı da qeyd edək ki, beynəlxalq təşkilatlar, o cümlədən Dünya Səhiyyə Təşkilatı Azərbaycanda həyata keçirilən islahatları yüksək dəyərləndirir. Kompleks tədbirlər qarşıya qoyulan məqsədlərə lazımi səviyyədə nail olmağa əsas yaradır. Bütün dünyanı çənginə almış koronavirus pandemiyası dövründə Azərbaycan dövlətinin həyata keçirdiyi tədbirlər, ölkə səhiyyəsinin bu qlobal bəlanı hazırlıqla qarşılaması dövlət rəhbərimizin bu sahədə gördüyü işlərin nəticəsi idi. Qısa müddətdə Azərbaycanda modul tipli xəstəxanalar quruldu. Tibbi personal koronavirus xəstələrinin müalicəsi üçün səfərbər edildi. Xəstələrin bütün qayğılarını dövlət öz üzərinə götürdü. Bunun nəticəsində Azərbaycan pandemiyadan ən az ziyan çəkən, ən az insan itkisinə məruz qalan ölkələrdən oldu. Azərbaycanda vaksinləşmə prosesi də vaxtında başlandı və qısa müddətdə geniş insan kütləsini əhatə etdi. Bütün bunlar bir tərəfdən Azərbaycanın sosial-iqtisadi imkanlarından irəli gəlir, digər tərəfdən də dövlət rəhbərimizin vətəndaşlara diqqət və qayğısının, beynəlxalq nüfuzunun, hər addımı vaxtında ata bilmək bacarığının göstəricisidir.

Azərbaycan Prezidentinin insan amilinə verdiyi yüksək önəm, atılan hər addımda bu önəmin daha qabarıq şəkildə özünü büruzə verməsi təbii ki, hər kəsdən üzərinə düşən vəzifəni yüksək səviyyədə yerinə yetirməyi bir tələb kimi qarşıya qoyur. İnsanların sağlamlığının keşiyində dayanmaq, onlara yüksək xidmət göstərmək səhiyyə işçilərinin borcudur. İyunun 17-sinin ölkəmizdə tibb işçilərinin peşə bayramı günü kimi qeyd olunması dövlətimizin bu sahədə çalışanların əməyinə verdiyi ən böyük dəyərdir. Bu diqqət və qayğı hər bir səhiyyə işçisindən məsuliyyət tələb edir. Möhtərəm Prezident İlham Əliyevin bu fikirləri insan amilinə dəyəri bir daha təsdiqləyir: "İnsanların sağlamlığı dövlətimiz üçün prioritet məsələdir. Mənim bölgələrə səfərlərim zamanı açılan xəstəxanalar, su xətləri, ekologiya ilə bağlı digər tədbirlər bir məqsədi güdür - Azərbaycanda insan sağlamlığı qorunsun, keyfiyyətli müalicə almaq üçün imkan, şərait olsun".

Ölkəmizdə icbari tibbi sığorta sisteminin tətbiqinə başlanması, İcbari Tibbi Sığorta üzrə Dövlət Agentliyinin, Tibbi Ərazi Bölmələrini İdarəetmə Birliyinin (TƏBİB) yaradılması da vətəndaşlarımıza tibbi xidmətin ən yüksək səviyyədə təşkili və əhalinin sağlamlığı məqsədlərinə xidmət edir. Azərbaycanda bütün sahələrdə aparılan islahatlar yaşayış standartlarını dəyişir, bu kontekstdə səhiyyə xidmətinin keyfiyyətinə də tələbat yüksəlir.

Məlumat üçün bildirmək istəyirəm ki, icbari tibbi sığorta sisteminə keçilməsi "Tibbi sığorta haqqında" Azərbaycan Respublikasının Qanununda təsbit olunmuşdur. Ötən müddət ərzində yeni sistemin tətbiq edilməsi ilə əlaqədar çox ciddi islahatlar həyata keçirilmişdir. Hər şeydən əvvəl səhiyyə infrastrukturunun köklü surətdə yeniləşdirilməsini qeyd etmək yerinə düşər. Əhalinin sağlamlıq göstəriciləri yaxşılaşıb, uşaq ölümləri azalıb, orta ömür uzanıb. Bütün bunlar Prezident İlham Əliyevin xüsusi diqqət və qayğısı sayəsində mümkün olub.

İcbari tibbi sığortaya keçidlə paralel baş verən bir çox mütərəqqi yenilik, inkişaf prosesləri Azərbaycanda səhiyyə xidmətinin fəlsəfəsini dəyişir. Əhaliyə daha keyfiyyətli səhiyyə xidmətinin təmin edilməsi mümkün olur. Xidmətin keyfiyyəti artırılır.

Səhiyyə elə bir sahədir ki, orada islahatlar daimidir. Burada həyata keçirilən islahatlar bütövlükdə Prezident İlham Əliyevin modernləşmə və yeniləşmə siyasətinin tərkib hissəsi kimi qəbul edilir. İnsanlar səhiyyə islahatlarının daha ardıcıl surətdə davam etdiriləcəyinə və müsbət nəticələr verəcəyinə inanırlar.

## Müstəqil siyasət

Prezident İlham Əliyev Azərbaycanın milli maraqlarına sadiq qalaraq ötən dörd il ərzində xarici aləmlə balanslaşdırma xəttini təmin etmişdir. Azərbaycanın milli dövlətçilik maraqlarının müdafiəsini uğurla həyata keçirmişdir.

Bu dörd ilin və ondan əvvəlki dönəmin müşahidələri göstərir ki, cənab İlham Əliyevin xarici siyasət kursu üçün çoxvektorluluq, çevik alyanslar strategiyası xarakterikdir. Bunlar sadəcə bəyanat deyil, Azərbaycan Prezidentinin mükəmməl diplomatik məharətlə, müdrik dövlət rəhbərinə xas uzaqgörənliklə həyata keçirdiyi xarici siyasətin sərgilədiyi real nümunələrdir. Bu siyasət əvvəlki illərdə olduğu kimi, bu gün də Azərbaycanın uzunmüddətli, dayanıqlı inkişafı üçün nəhəng potensialı təmin edir. Müstəqil xarici siyasətin həyata keçirilməsinə etibarlı təminat verir. Ölkəmizin işıqlı gələcəyinə zəmin yaradır. Azərbaycan geosiyasi qruplaşmalardan heç birinə qoşulmadan, çevik xəttə malik olmaqla bizə dost münasibəti göstərən yaxın qonşularla, eləcə də uzaq olan xarici ölkələrlə dostluq və əməkdaşlıq münasibətlərini yüksək qiymətləndirir. Bu münasibətlərdən hər kəsin faydalanmasına şərait yaradır.

Prezident İlham Əliyev cəsarətli, milli mənafelərimizin qorunmasına və ölkəmizin müstəqilliyinin gücləndirilməsinə təminat verən uzaqgörən siyasətinin nəticələrini pandemiya dövrünün gərgin vaxtlarına təsadüf edən çıxışlarının birində belə şərh etmişdir: "Baxmayaraq ki, bölgədə yaranmış böhranlı vəziyyət bizim iqtisadi maraqlarımıza ziyan vurmuşdur, ancaq Azərbaycan dövləti və xalqı bunu hiss etmədi. Yəni bu, insanların gündəlik həyatında özünü göstərmədi. Düzdür, Azərbaycanın ixrac imkanları qısa müddət müəyyən dərəcədə məhdudlaşdı, ancaq bizim çevik hərəkətlərimiz və mövcud olan bütün infrastruktur layihələrimiz və artıq güclü imkanlarımız yol verdi ki, biz bu vəziyyətdən minimum itkilərlə çıxaq. Bu, bir daha onu göstərdi ki, bizim həm güclü iqtisadi imkanlarımız var, həm çox güclü siyasi sistem mövcuddur və həm də Azərbaycanda dövlətçilik prinsipləri çox möhkəmdir. Yəni hətta bizim ərazimizin, hüdudlarımızın yaxınlığında yaşanan böhranlı vəziyyət bizə təsir etmədi. Bu, bir daha onu göstərir ki, apardığımız siyasət düzgün siyasətdir və biz yalnız və yalnız daxili resurslara istinad edərək, ölkəmizi inkişaf etdiririk. Azərbaycanda artıq çox güclü sənaye potensialı, çox güclü infrastruktur yaradılıbdır. İqtisadiyyat şaxələndirilir və beləliklə, istənilən böhranlı vəziyyət Azərbaycana az təsir edir".

Beləliklə, insan amili, xalqın rifahı və milli maraqlar əvvəlki illərdə olduğu kimi, ötən dörd ildə də yenə dövlət siyasətinin strateji prioritetləri oldu və bunların hər biri üzrə mühüm nailiyyətlər qazanıldı.

## Milli birliyimizin gücü

2018-ci ilin prezident seçkisi maraqlı bir məqamı ilə də diqqəti çəkir. Dörd il əvvəl Azərbaycan xalqının cənab İlham Əliyevə və onun şəxsində Azərbaycanın tarixi nailiyyətlərinə səs verməsi ölkəmizin siyasi həyatında da yeni bir səhifə açdı. Xalqın içindəki az sayda destruktiv qüvvələr, xaricdən maliyyələşərək bədxahlarımızın sifarişləri ilə ölkəmizin uğurlarına kölgə salmaq istəyən ziyanlı zümrələr tam iflasa uğradılar. Azərbaycan seçicilərinin mütləq əksəriyyətinin Prezident İlham Əliyevə səs verməsi xalqın ölkəmizdəki bütün destruktiv və xain qüvvələrə yox deməsinin təzahürü oldu. 2018-ci ildə keçirilmiş seçkilərin nəticələri bir daha göstərdi ki, radikalizmə, destruktiv qüvvələrə Azərbaycan siyasi səhnəsində yer yoxdur və heç zaman da olmayacaq. Xalq Azərbaycanın son onilliklərdəki tarixi uğurlarının rəhni olan islahatlar yolu ilə inkişaf xəttini alternativsiz saydığını, bu yola inandığını, güvəndiyini sərgilədi. Xarici qrantlar, ianələr hesabına fəaliyyət göstərən, öz dövlətinə qarşı çıxış edən ünsürlərə xalqımız bir daha öz yerlərini göstərdi.

Bu seçkilərlə Azərbaycan xalqı ölkəmizdə aparılan demokratik islahatlara səs verdi. Demokratik institutların inkişafı ilə bağlı siyasətin davamlı olması arzusunu ifadə etdi. Cəmiyyətimizdə artıq qaragüruh düşüncəyə yer olmadığı, dövlət müstəqilliyimiz sayəsində öz taleyinin sahibinə çevrilmiş ölkəmizdə siyasi mədəniyyət səviyyəsinin xeyli dərəcədə yüksəldiyi də təsdiqini tapdı.

*Bu da Ulu Öndər Heydər Əliyevin dövlətçilik ideyalarına yüksək sadiqlik göstərən Azərbaycan Prezidenti İlham Əliyevin xalqı milli strateji hədəflər ətrafında birləşdirmək əzminin qüdrətidir. Ümummilli Liderin müstəqil Azərbaycana rəhbərlik illərində gündəmə gətirdiyi azərbaycançılıq məfkurəsi bu gün cəmiyyətimizdə tam bərqərar olub. Vətən müharibəsindəki tarixi qələbəmizi də ordumuzun qüdrəti, milli birliyimizin gücü ilə qazandıq.*

***Əhliman ƏMİRASLANOV,***
***Milli Məclisin Səhiyyə komitəsinin sədri, akademik***

# İlham Əliyevin yaratdığı gerçəkliklər



**XXI əsr dünyaya yeni mesajları və reallıqları ilə daxil olmuşdur. SSRİ dövründə iki sistemin - sosializm və kapitalizmin sərt qarşıdurması sovetlər birliyinin dağılması ilə aradan qalxmışdısa, əvəzində dünyada yeni müharibə ocaqlarının, fərqli blokların, gözlənilməz siyasi gərginliklərin meydana çıxması ilə nəticələnmişdi. Belə çətin və mürəkkəb şəraitdə beynəlxalq münasibətlərdə və regionda gənc müstəqil dövlətimizin mövqeyini qoruyub saxlamaq, onu daha da möhkəmləndirmək, ölkəmizin hərtərəfli inkişafını təmin etmək böyük siyasi təcrübə, aydın və qəti mövqe, böyük islahatçılıq əzmi tələb edirdi.**

Azərbaycan xalqının böyük şansıdır ki, XXI əsrin həmin çətin və mürəkkəb dövrlərində müstəqil dövlətimizə Ümummilli Lider Heydər Əliyev kimi görkəmli dövlət xadimi rəhbərlik edərək müstəqilliyin möhkəm təməllərini atmış, xalqımızı böyük bəlalardan, ölkəmizi parçalanmaqdan xilas edərək gələcəyin siyasi-ideoloji, hərbi-iqtisadi yollarını açmışdır.

Xalqımız üçün daha böyük xoşbəxtlik isə ondan ibarətdir ki, Ulu Öndər Heydər Əliyev kimi qüdrətli dühadan sonra müstəqil Azərbaycan dövlətinə Prezident İlham Əliyevin simasında yeni tarixi epoxanın meydana çıxardığı bütün istiqamətlərdə hərtərəfli yüksək professionallığa malik yeni tipli bir lider rəhbərlik edir. Xalqımız XXI əsrin əvvəllərində məkrli qüvvələrin ortaya atdığı süni demokratiya oyunlarına uymayaraq, mövcud siyasi reallığı düzgün dəyərləndirərək hakimiyyətdə davamlı proseslərin ardıcıl olaraq inkişaf etdirilməsinə üstünlük vermişdir. Cavan və perspektivli lider İlham Əliyevin seçkilərdə qazandığı inamlı qələbə Azərbaycan xalqının yeni tarixi epoxadakı rifahının və inkişafının gerçəkliyinə, real təminatına çevrilmişdir.

Sonrakı proseslər yeni tipli lider İlham Əliyevin siyasi hakimiyyətə gəlməsinin və müstəqil Azərbaycan dövlətinə rəhbərlik etməsinin ən düzgün yol olduğunu dönə-dönə isbat etmişdir. Hazırda Azərbaycan Respublikası Prezident İlham Əliyevin məqsədyönlü rəhbərliyi ilə keçid dövrünün, qlobal iqtisadi böhran mərhələlərinin, ikili standartların doğurduğu mürəkkəb və məsuliyyətli proseslərin çətinliklərindən şərəflə çıxaraq qətiyyətlə irəli getməyə davam edir. Ötən 18 il ərzində ölkəmiz həm beynəlxalq münasibətlərdə, həm də regional və ölkədaxili inkişafın bütün istiqamətlərində möhtəşəm nailiyyətlərə imza atmışdır. Məhz Prezident İlham Əliyevin düşünülmüş rəhbərliyi, çevik və uzaqgörən siyasəti, həyata keçirdiyi çoxaspektli düşünülmüş islahatlar XXI əsrdə müstəqil Azərbaycan dövlətini dünyanın inkişaf etmiş dövlətlərinin sıralarına çıxarmışdır. Hərtərəfli inkişafın real göstəriciləri və böyük nailiyyətləri müstəqil Azərbaycan dövlətinin inkişaf etməkdə olan dövlətlərin miqyasına gəlib çatmasına imkan yaratmışdır. Bu möhtəşəm zirvə müstəqil Azərbaycan dövlətinin yüksək inkişafının İlham Əliyev gerçəkliyidir.

Müstəqil Azərbaycan Respublikasının hər ili ölkəmizin tarixinə yeni parlaq səhifələr əlavə edən İlham Əliyev gerçəkliklərinin şərəfli salnaməsindən ibarətdir. Prezident İlham Əliyevin uzaqgörən müdrik siyasəti, böyük qətiyyəti, qurub-yaratmaq bacarığı, uzaqgörənliyi sayəsində cəmiyyət həyatının bütün sahələrində qazanılmış mühüm nailiyyətlər müstəqil Azərbaycanın inkişaf gerçəklikləri salnaməsinin çoxcildlik külliyatıdır. Bu, Azərbaycanın müstəqillik tarixinin İlham Əliyev erasının reallıqlarıdır.

İlham Əliyev erası Azərbaycan Respublikasının dövlət müstəqilliyinin xüsusi bir mərhələsindən ibarət olub, özünəqədərki çətin, mürəkkəb və şərəfli inkişaf dövrünün tamamlayan, xalqımızı və ölkəmizi yeni intibah səviyyəsinə çatdırmağa xidmət edir.

İlham Əliyev erası - siyasi varislikdən siyasi liderliyə qədər keçilən məsuliyyətli yolun qanunauyğun məntiqi yekunudur.

İlham Əliyev erası - Qarabağ Zəfəri erasıdır.

İlham Əliyev erası - müstəqillik qazanmış yeni Azərbaycandan inkişaf etmiş modern Azərbaycana gəlib çatmış şərəfli yoldur.

Müstəqil Azərbaycan Respublikası hazırda Prezident İlham Əliyev erasının reallıqlarını və sabaha olan böyük ümidlərini yaşamaqda davam edir.

Hər ili ölkəmizin tarixinə və xalqımızın taleyinə böyük hərflərlə həkk olunan İlham Əliyev erasının inkişafında 2018-ci ildən başlanan 4 ilin böyük nailiyyətləri və prosesləri xüsusi əhəmiyyətə malikdir. Prezidentliyi dövrünün əvvəlki inkişaf proseslərinin və uğurlarının qanunauyğun məntiqi davamı olan bu yeni tarixi mərhələ ölkəmizə böyük inkişafın möhtəşəm salnaməsini bəxş etmiş və daha parlaq gerçəkliklərini gətirmişdir.

Bakı-Tbilisi-Ceyhan və Bakı-Tbilisi-Ərzurum neft-qaz kəmərlərinin davamı olan, Avropa ölkələrinə uzanıb getmiş TANAP-TAP layihələri qədim neft ölkəsi olan Azərbaycanın yeni neft erasının İlham Əliyev gerçəkliyinin real səhifələridir. Müstəqil Azərbaycan dövlətinin iqtisadi qüdrətinin təmin edilməsində və beynəlxalq əlaqələrinin inkişaf etdirilməsində neft-qaz gerçəkliklərinin xüsusi rolu və əhəmiyyəti Prezident İlham Əliyev erasında yaranmış yeni mərhələnin böyük masştabını təsəvvür etməyə imkan yaradır.

Qoşulmama Hərəkatını Birləşmiş Millətlər Təşkilatı səviyyəsində dünyanın böyük həmrəylik hərəkatı miqyasına yüksəltmək Prezident İlham Əliyevin dünya liderlərindən biri olması reallığının de-fakto gerçəkliyidir. Bu gün Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev dünyanın ən nüfuzlu liderlərindən biri kimi qəbul olunur. Dünyada və ölkəmizdə baş vermiş hər növbəti ictimai-siyasi, iqtisadi-mədəni hadisə zamanı hər dəfə yenidən nümayiş etdirdiyi ağıllı siyasət, diplomatik məharət, praqmatik baxış İlham Əliyevin lider kimi nüfuzunu daha da artırır və möhkəmləndirir.

Qlobal pandemiya dövründə rəhbərlik etdiyi müstəqil Azərbaycan dövlətinin rəhbəri kimi xalqımızı böyük təhlükələrdən xilas edən Prezident İlham Əliyevin həm də beynəlxalq miqyasda dünyanı bu böyük bəladan xilas etmək üçün zəruri olan böyük siyasəti uğurla həyata keçirməsi, beynəlxalq miqyasda mühüm əməli addımlar atması Ümumdünya Səhiyyə Təşkilatının etiraf etdiyi gerçəklikdir. Azərbaycan Prezidentinin təşəbbüsü ilə Birləşmiş Millətlər Təşkilatının pandemiyadan xilas olmaq yollarını müəyyənləşdirmək, həmin sahədə beynəlxalq əməkdaşlıq və həmrəyliyə nail olmaq məsələlərini müzakirə etmək üçün xüsusi sessiyanın çağırılmasına təşəbbüs göstərmək və bu missiyanı gerçəkləşdirmək müstəqil dövlətimizin tarixində qeyri-adi dərəcədə əhəmiyyətə malik olan tarixi hadisədir. İndi isə Azərbaycan Respublikasının pandemiya ilə mübarizədə dünya ölkələri arasında təkrəqəmli göstəricilərə malik nadir dövlətlərdən biri olması dünyanın gözü qarşısında baş verən reallıqlardandır.

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin Ali Baş Komandan kimi qazandığı zəfər ölkəmizin çoxəsrlik tarixinin ən möhtəşəm hadisəsidir. Qalib Ali Baş Komandan İlham Əliyevin başçılığı ilə qəhrəman Azərbaycan Ordusu tərəfindən 44 gün ərzində aparılmış Qarabağ müharibəsi dünya hərb tarixinin fərqli hadisəsidir. Bu, XXI əsrdə Vətən torpaqlarının işğalçılardan azad olunması uğrunda aparılan ədalətli müharibə nümunəsidir. Qarabağ müharibəsində ən yeni hərbi texnologiyaların bacarıqla tətbiq edilməsi ilə vətənpərvərlik ruhunun üzvi surətdə birləşdirilməsi hərb tarixinin yeni mərhələsinin canlı təzahürüdür. Qarabağda qazanılmış böyük tarixi zəfər Prezident İlham Əliyevin simasında qalib Ali Baş Komandan olmağın isbatıdır. Vətən müharibəsində qeyri-adi qəhrəmanlıqlar göstərmiş Azərbaycan əsgərlərinin nümayiş etdirdikləri vətənpərvərlik, igidlik və şücaət İlham Əliyev epoxasının gerçəkliyidir. Ulu Öndər Heydər Əliyevin böyük uzaqgörənliyinin ifadəsi kimi meydana çıxmış “bir millət, iki dövlət” aforizminin tədricən inkişaf edərək, Azərbaycan-Türkiyə dövlətlərarası münasibətlərinin strategiyasına çevrilməsi də Qarabağ savaşı - Vətən müharibəsində gerçək olaraq bir daha möhkəmləndirilmiş qardaşlıq və həmrəylik doktirinasıdır.

Böyük Qayıdış Hərəkatı Azərbaycan Respubliksının Prezidenti İlham Əliyevin elan etdiyi və həyata keçirdiyi Möhtəşəm Quruculuq Hərəkatıdır. Prezident İlham Əliyevin Böyük Qayıdış Hərəkatı Azərbaycan daxilində yeni bir Azərbaycan qurmaq qədər məsuliyyətli və şərəfli bir gerçəklikdir. Artıq bu istiqamətdə qısa müddətdə həyata keçirilmiş böyük layihələr Böyük Qayıdış Hərəkatının nəhəng addımlarla irəlilədiyini göstərməkdədir. Böyük sürətlə qurulmaqda davam edən qədim Şuşa şəhərinin həmişəcavan dünya şəhərlərindən birinə çevrilməsi istiqamətində yerinə yetirlmiş böyük tarixi əhəmiyyətə malik layihələr nəinki bu qədim qala - şəhərin yenidən bərpa olunacağına, hətta daha gözəl bir şəhərə çevriləcəyinə düşünməyimizə əsas verir. Görkəmli Azərbaycan şairi Xurşidbanu Natəvanın, dahi bəstəkar Üzeyir hacıbəylinin və məhşur xanəndə Bülbülün güllələnmiş heykəllərinin yenidən Şuşa şəhərində ucaldılması yeni zamanın İlham Əliyev gerçəkliyinin ibrətamiz mədəniyyət hadisələridir. Şuşada - Cıdır düzündə təşkil edilmiş ilk “Xarı bülbül” musiqi festivalı Böyük qayıdışın möhtəşəm bayram təntənəsidir. Molla Pənah Vaqifin ermənilər tərəfindən vəhşicəsinə dağıdılmış məqbərəsinin yüksək memarlıq əsəri səviyyəsində yenidən bərpa edilməsi və Prezident İlham Əliyevin rəhbərliyi, Azərbaycan ziyalılarının iştirakı ilə 2021-ci ilin 28-29 avqust tarixlərində rəsmi açılış mərasiminin keçirilməsi, burada “Vaqif Poeziya Günləri”nin təşkili Azərbaycanın mədəniyyət paytaxtı elan olunmuş Şuşanın müasir dövrdəki növbəti gerçəkliyidir. Artıq Şuşa şəhərinin türk dünyasının mədəniyyət paytaxtı elan olunması da xəyal deyil, gerçəklikdir. Beynəlxalq TÜRKSOY təşkilatı 31 mart 2022-ci il tarixdə Türkiyənin Bursa şəhərində keçirilmiş illik yığıncağında Şuşanı 2023-cü il üçün Türk dünyasının mədəniyyət paytaxtı elan etmişdir. Bundan başqa, Şuşa şəhərinə avtobus marşrutlarının açılması, çoxsaylı Azərbaycan vətəndaşlarının 30 illik işğaldan sonra Şuşa şəhərini ziyarət etmək imkanlarının gerçəkləşməsi ölkəmizdə əfsanələrin reallığa çevrilməsinin nümunəsidir.

Əfsanələri reallığa çevirən İlham Əliyev həm də yeni möcüzələr yaradır. Şuşa şəhərinə dünya ölkələrindən rəsmi şəxslərin, görkəmli insanların və səyyahların gəlişi, bu qədim Azərbaycan şəhərinə arzu edən hər bir Azərbaycan vətəndaşının gedib-gəlmək imkanının olması bugünün həm möcüzəsi, həm də gerçəkliyidir. Qarabağ bölgəsində və Şərqi Zəngəzur ərazisində salınan “ağıllı kənd” və “ağıllı şəhər” layihələri dünyaya nümunə ola biləcək ağıllı Prezident örnəyi tərəfindən həyata keçirilə biləcək fantastik gerçəkliklərdir. Artıq istifadəyə verilmiş və ən yüksək dünya standartlarına cavab verən Füzuli aeroportu, Laçında, Kəlbəcərdə, Zəngilanda təməlləri atılan və inşası sürətlə davam etdirilən aeroportlar silsiləsi Qarabağın yeni dövrünün İlham Əliyev reallıqlarıdır. Şuşa şəhərinə çəkilmiş böyük Zəfər yolu İlham Əliyev yoludur. Erməni vəhşiləri tərəfindən dağıdılmış, Azərbycanın Xirosiması kimi tanınan Ağdam şəhərinin sürətlə bərpa edilməsi və yenidən qurulması Böyük Qayıdış Hərəkatının möhtəşəm quruculuq ritmlərini özündə əks etdirir. Qarabağda tikilməkdə davam edən məktəblər, xəstəxanalar, hotellər, yaşayış evləri, sənaye müəssisələri, alternativ yaşıl enerji stansiyaları İlham Əliyev gerçəkliklərinin geniş mənzərəsini təsəvvür etməyə imkan verir. 2022-ci ildə Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin elan etdiyi “Şuşa ili”nin məhz ölkəmizin mədəniyyət paytaxtı Şuşa şəhərində böyük təntənə ilə qeyd olunması da 2020-ci ilin Qələbə paradından sonra Qarabağın yeni tarixində ən möhtəşəm tarixi hadisə olacaqdır.

Zəngəzur dəhlizi istiqamətində məqsədyönlü şəkildə həyata keçirilən davamlı və uğurlu siyasət Prezident İlham Əliyevin uğrunda ardıcıl olaraq mübarizə apardığı daha böyük bir gerçəkliyin reallaşdırılmasına xidmət edir. XX əsrin əvvəllərində ermənilərin bolşeviklərin dəstəyi ilə ələ keçirdikləri qədim Azərbaycan torpağı olan Zəngəzurun beynəlxalq nəqliyyat dəhlizinə çevrilməsi istiqamətində aparılan böyük siyasət və bu istiqamətdə yerinə yetirilməkdə olan layihələr İlham Əliyev gerçəkliyinin daha bir mühüm istiqamətidir. Əvvəla, Zəngəzur dəhlizi üzrə aparılan danışıqlar, imzalanmış sənədlər, əldə edilmiş razılaşmalar bu beynəlxalq nəqliyyat qovşağının reallığa çevriləcəyinə tam əsas verir. İkincisi, Zəngəzur nəqliyyat qovşağının salınmasına Rusiya və Çin kimi dövlətlərin maraq göstərməsi və dəstək verməsi, Türkiyə və İranın bu nəqliyyat dəhlizinin açılmasına qapılarını açmaları Zəngəzur dəhlizinin ən yaxın dövrün gerçəkliyinə çevriləcəyini təsəvvür etmək üçün şərait yaradır. Bu yaxınlarda İran İslam Respublikası ilə Azərbaycan Respublikası arasında imzalanmış sənədlər, əldə olunmuş razılaşmalar artıq 45 kilometrlik məsafəsi dost və qonşu ölkədən keçməklə Zəngəzur nəqliyyat qovşağının reallığa qovuşacağı günün çox da uzaqda olmadığını göstərir. Naxçıvan Muxtar Respublikasında və Cəbrayıl-Qubadlı-Zəngilan istiqamətində dəmir və şose yollarının çəkilməsi istiqamətində başlanmış böyük işlər Zəngəzur dəhlizi ilə əlaqədar tədbirlərin sürətlə davam etdirilməkdə olduğunu göstərir. İnanırıq ki, insanların Bakıdan-Naxçıvana, oradan da İrəvandan keçməklə qardaş Türkiyəyə gedəcəkləri günlər yaxın dövrün reallıqlarından biri olacaqdır.

Mədəniyyət sahəsində Prezident İlham Əliyevin rəhbərliyi ilə həyata keçirilməkdə davam edən məqsədyönlü siyasət Azərbaycan xalqının ümumi mədəni inkişafının ardıcıl olaraq təmin edilməsinə böyük təkan verir. 2019-cu ildə keçirilmiş “Nəsimi ili” Azərbaycan tarixinə böyük mədəniyyət və ədəbiyyat ili kimi daxil olmuşdur. Bu, çoxəsrlik Azərbaycan tarixində keçirilmiş birinci “Şair İli” kimi də tarixə yazılmışdır. Azərbaycan dövləti “Nəsimi ili”ndə həyata keçirdiyi beynəlxalq festivallar, elmi konfranslar, səfərlər, ədəbi görüşlər, sərgilər, konsertlər vasitəsilə XV əsrdə edama çəkilmiş böyük şair və mütəfəkkirin şərəfinə XXI əsrdə sönməz əbədiyyət məşəli şöləndirmişdir. Məhz “Nəsimi ili”ndən sonra dünyada böyük Azərbaycan şairi İmadəddin Nəsiminin adı və idealları haqqın, ədalətin təntənəsi kimi səsləndirilmişdir. “Nəsimi ili” ölkəmizdə XXI əsrin mərd, əqidəli, mütəfəkkir davamçılarının yetişdirilməsinə böyük töhfələr vermişdir.

Böyük Azərbaycan şairi Nizami Gəncəvinin anadan olmasının 880 illiyinin “Nizami Gəncəvi ili” səviyyəsində beynəlxalq miqyasda və ölkə masştabında geniş qeyd olunması Prezident İlham Əliyevin böyük mədəniyyət və ədəbiyyat siyasətinin möhtəşəm gerçəkliyidir. “Nizami Gəncəvi ili” - dünyaya Nizami Gəncəvi kimi qüdrətli sənətkarı Azərbaycan şairi və mütəfəkkiri kimi təqdim etmək ili olmuşdur. “Nizami Gəncəvi ili” - Nizamini doğma vətənində yeni nəsillərə Azərbaycan şairi olaraq daha dərindən mənimsətmək ilinə çevrilmişdir. “Nizami Gəncəvi ili”ndə Azərbaycan Milli Elmlər Akademiyasının ayrı-ayrı elmi-tədqiqat institutlarında nəşr edilmiş 45 monoqrafiya, dünya dillərində çap olunmuş çoxsaylı kitablar və məqalələr Azərbaycan Nizamişünaslıq elmini yeni inkişaf səviyyəsinə qaldırmışdır. Bununla Azərbaycan dünya Nizamişünaslıq elminin əsas elmi mərkəzi olmaq statusu qazanmışdır. Beləliklə, “Nizami Gəncəvi ili”ndə Azərbaycan Respublikası ölkəmizi, qüdrətli sənətkarımızı, xalqımızın ədəbiyyatını və milli mədəniyyətimizi dünyaya çıxarmaq vəzifəsini şərəflə həyata keçirmişdir. Bu da İlham Əliyevin gerçəklikləri serialının parlaq və sönməz Nizami Gəncəvi səhifəsidir.

Göründüyü kimi, Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev dünyada müasir dövrün liderlik modelinin ən real gerçəkliyidir.

Dünya ictimaiyyəti və Azərbaycan xalqı ürəkdən inanır ki, Ermənistan-Azərbaycan münaqişəsinə son qoymuş, Qarabağ müharibəsində tarixi zəfər qazanmış Prezident İlham Əliyev Böyük Sülh Sazişini də qətiyyətlə gerçəkləşdirəcəkdir. Bu günlərdə keçirilmiş Brüssel görüşlərinin və danışıqlarının dəmir məntiqi sülh sazişinin artıq gündəmdə olduğunu nəzərə çarpdırır.

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin simasında xalqımızın özünün qüdrətli lideri ilə ürəkdən fəxr etməsi və dərk olunmuş şəkildə iftixar hissi yaşaması danılmaz gerçəklikdir.*

*Möhtərəm Prezidentimizin dünyada və ölkəmizdə sülh, əminamanlıq və inkişaf naminə həyata keçirəcəyi daha böyük gerçəkliklər hələ qabaqdadır.*

**İsa HƏBİBBƏYLİ,**
***AMEA-nın vitse-prezidenti,***
***Milli Məclisin deputatı, akademik***

# Xilaskar LİDER



Müasir parlaq tariximiz məhz xalqımızın müstəqil, müdrik seçiminin məhsuludur. Arzuladığımız qüdrətli dövlətin vətəndaşlarıyıq. Bu möhtəşəm tarixi bizə yaşadan isə Azərbaycanı tarixinin ən qüdrətli dövlətinə çevirən Prezident İlham Əliyevdir.

Ölkəyə rəhbərlik etdiyi son 19 ildə cənab İlham Əliyevin gördüyü fantastik işlər ona təkcə daxildə deyil, beynəlxalq aləmdə də böyük hörmət, nüfuz qazandırıb. Sadəliyi, səmimiliyi, milli təəssübkeşliyi, Azərbaycan sevgisi, vətəninə, xalqına sədaqəti, qətiyyəti, prinsipiallığı və ən nahayət, 30 illik həsrətimizə son qoyan Vətən müharibəsində Baş Sərkərdə kimi Qarabağı işğaldan azad etməsi ona ümumxalq sevgisi qazandırıb.

Dörd il öncə, 2018-ci il aprelin 11-də keçirilən prezident seçkilərində cənab İlham Əliyevin xalqın mütləq əksəriyyətinin etimadını qazanaraq növbəti müddətə Azərbaycan Prezidenti seçilməsi də məhz bu sevginin, inamın əyani təzahürü idi. Xalq növbəti dəfə cənab İlham Əliyevi alternativsiz lider kimi qəbul edərək onu özünə rəhbər seçdi və bu günədək baş verən proseslər bu seçimin nə dərəcədə doğru olduğunu isbatladı.

## Xalqın mütləq əksəriyyətinin seçimi

Şəffaf, azad, demokratik şəraitdə keçirilən seçkilərdə cənab İlham Əliyev seçicilərin 86,02 faizinin səsini qazanaraq Prezident seçildi. Azərbaycan xalqı görülən işlərə yüksək qiymət verdi, inkişafa, tərəqqiyə, təhlükəsizliyə, gələcəyə səs verdi. Seçkilərdən əvvəl yerli və beynəlxalq təşkilatlar tərəfindən keçirilmiş rəy sorğuları, seçkilər günü beynəlxalq və yerli təşkilatlar tərəfindən keçirilmiş “exit-poll”lar seçkilərin rəsmi nəticələri ilə üst-üstə düşdü. Hər zaman sözü ilə əməli, işi bir olan dövlət başçısı aprelin 18-də keçirilən andiçmə mərasimindəki çıxışı zamanı bəyan etdi ki, Azərbaycanın daha qüdrətli ölkəyə çevrilməsi üçün bütün imkanları səfərbər edəcək: “Biz gələcəyə baxmalıyıq və baxırıq. Növbəti illərdə görüləcək işlər haqqında bizim çox aydın təsəvvürümüz, planlarımız, proqramlarımız var... Ona görə mən əminəm ki, bütün Azərbaycan xalqı və biz hamımız gələcəyə çox böyük nikbinliklə baxırıq. Hamımızın amalı ondan ibarətdir ki, ölkəmiz daha da güclənsin, daha da qüdrətli dövlətə çevrilsin, Azərbaycan vətəndaşları daha da yaxşı yaşasınlar”.

Ötən 4 il ərzində Azərbaycanın ictimai-siyasi həyatında olduqca böyük tarixi hadisələr baş verib, mühüm proseslər yaşanıb. Bu baxımdan son 4 ili Azərbaycan üçün böyük tarixi mərhələ kimi dəyərləndirmək olar.

## Mütərəqqi islahatlar, yeni inkişaf strategiyasının yol xəritəsi

Son 4 il Prezidentin özü üçün də, Azərbaycan xalqı üçün də böyük sınaq və uğur mərhələsi kimi də səciyyələndirilə bilər. Ötən 4 ildə cənab İlham Əliyevin uğurları, nailiyyətləri əsasən 4 mühüm mərhələdə reallaşıb:

- *Siyasi və iqtisadi uğurların əldə edilməsini şərtləndirən mütərəqqi islahatlar;*
- *Qlobal pandemiyaya qarşı səmərəli mübarizənin təşkili;*
- *Vətən müharibəsindəki Şanlı Zəfərlə torpaqlarımızın işğaldan azad edilməsi;*
- *Qarabağ və Şərqi Zəngəzurda misli görünməmiş quruculuq, yenidənqurma işlərinin başlanması.*

Son 4 ildə əvvəlki dövrdə olduğu kimi, Azərbaycanın hər bir vətəndaşının və dövlətimizin maraqlarının təmin edilməsi məsələsi Prezident İlham Əliyevin həyata keçirdiyi siyasətin prioritetini təşkil etdi. Ölkədə dayanıqlı inkişaf, sabitlik və əmin-amanlıq təmin olundu, beynəlxalq mövqelərimiz daha da möhkəmləndirildi. Son 4 ildə minimum əməkhaqqı 2,3 dəfə, orta aylıq əməkhaqqı 40 faizə yaxın artdı. Minimum pensiyada 2,2 dəfə, müavinət və təqaüdlərdə orta hesabla 2,5-3 dəfə, bəzi istiqamətlərdə 3 dəfədən çox artım baş verdi.

2018-ci il prezident seçkisindən sonra cənab İlham Əliyevin ilk imzaladığı fərman şəhid ailələrinin sosial məsələlərinin həlli istiqamətində oldu. Bu sənədə əsasən 12 min şəhidin 18 mindən çox vərəsəsinə dövlət tərəfindən 11 min manat vəsait ödənildi.

Ümumiyyətlə, Prezidentin mütəmadi olaraq paytaxtda və bölgələrdə vətəndaşlarla keçirdiyi səmimi görüşlər, onların qayğıları ilə yaxından maraqlanması, insanların sosial rifahının yaxşılaşdırılması istiqamətində verdiyi qərarlar xalqın cənab İlham Əliyevə olan inamını daha da artırdı. Bu amillər həm də Prezident və xalqın birliyi konsepsiyasının əsas qayəsini təşkil etdi.

İqtisadi islahatlarla yanaşı reallaşan siyasi islahatlar daha çevik idarəetmə strukturunun yaradılması ilə nəticələndi. Dövlət idarəetmə sistemində modernləşmənin, şəffaflığın təmin edilməsi və idarəetmədə yeni fəaliyyət üslubunun formalaşdırılması istiqamətində böyük uğurlara imza atıldı.

Həmçinin Prezident Administrasiyasının, Nazirlər Kabinetinin və digər dövlət qurumlarının, yerli icra hakimiyyəti orqanlarının strukturunun optimallaşdırılması və idarə edilməsinin təkmilləşdirilməsi istiqamətində ciddi islahatlar aparıldı. Növbədənkənar parlament seçkiləri də bu islahatların tərkib hissəsi oldu.

2019-cu ilin əvvəlindən başlayaraq İlham Əliyev tərəfindən müxtəlif istiqamətlərdə olduğu kimi, sosial sahədə də ciddi islahatlar aparıldı. Ekspertlər tərəfindən sosial inqilab xarakterli qərarlar adlandırılan fərman və sərəncamlar demək olar ki, əhalinin bütün təbəqələrini əhatə etdi.

Fəaliyyəti ədalətə, humanizm və mərhəmət prinsiplərinə söykənən, Ulu Öndər Heydər Əliyevin müəyyənləşdirdiyi strategiyanı davam etdirən Prezident İlham Əliyev son 4 ildə də ənənəsinə sadiq qalaraq əfv sərəncamları və amnistiya aktları imzalamaqla minlərlə ailəyə sevinc payı bəxş etdi. Vətən müharibəsində böyük qələbəmizi təmin edən Müzəffər Ali Baş Komandanın təşəbbüsü ilə 2021-ci il noyabrın 5-də qəbul edilmiş Zəfər amnistiyasını da Prezident İlham Əliyevin humanist siyasətinin növbəti təzahürü adlandıra bilərik. İcrası bu il martın 5-də başa çatan amnistiya aktı ümumilikdə 15 min 450 nəfərə şamil edildi. Onlardan 8626 nəfər cəzadan tam azad edildi, 6490 nəfərin cəza müddəti azaldıldı.

Dövlət başçısının tapşırıqları ilə 2018-ci ildən Azərbaycanda başlanan köklü sosial islahatlar vətəndaş rifahı və məmnunluğunun təmini istiqamətində inqilabi addımların atılmasına, sosial müdafiə və sosial təminat, məşğulluq, əmək münasibətləri, tibbi-sosial reabilitasiya və sosial sahənin digər sektorları üzrə ötən 4 illik bir dönəmdə ciddi irəliləyişlərə imkan verdi.

Bütün bu islahatlar əlbəttə ki, beynəlxalq səviyyədə təqdir edildi. Azərbaycan Prezidentinin güclü siyasi iradəsi və davamlı dəstəyi sayəsində aparılan kompleks islahatlar ölkəmizin yeni rekordlara imza atmasına imkan yaratdı. Dünyada ən vacib və etibarlı reytinq göstəricisi hesab olunan Dünya Bankının “Doing Business-2019” hesabatı İlham Əliyevi ən islahatçı Prezident kimi dəyərləndirdi. Hesabata əsasən Azərbaycan dünyanın 10 islahatçı dövləti siyahısına daxil edilərək ən çox islahat aparan ölkə elan olundu.

## Qlobal pandemiya ilə mübarizədə nümunəvi ölkə

2020-ci il dünyada baş verən qlobal pandemiyanın demək olar ki, bütün ölkələrə yayılması, daha çox yoluxma və insan ölümünə səbəb olması ilə yadda qaldı. Müxtəlif ölkələrdə virusa qarşı peyvəndin yaradılması üzrə işlər əsasən məhz bu dövrə təsadüf etdi. Ötən iki il ərzində dünya ölkələri koronavirusla mübarizəyə kökləndi. Bu dövrün reallıqlarından biri ondan ibarət oldu ki, problemə laqeyd yanaşan, virusun təhlükəli olmadığını düşünən ölkələrdə daha ciddi fəsadlar baş verdi. Xəstəlik dünyanın bir hissəsi olan Azərbaycandan da yan ötmədi. Lakin infeksiyanın aşkarlandığı ilk gündən ölkəmizdə təxirəsalınmaz addımlar atıldı.

Nazirlər Kabineti yanında Operativ Qərargah fəaliyyətə başladı, “Azərbaycan Respublikasında yeni koronavirus xəstəliyinin yayılmasının qarşısının alınmasına dair Fəaliyyət Planı” və daha geniş əhatəli Tədbirlər Planı təsdiq edildi. 2020-ci il martın 19-da Koronavirusla Mübarizəyə Dəstək Fondu dünyada ilk dəfə Azərbaycanda təsis edildi. İlkin olaraq Prezidentin Ehtiyat Fondundan 20 milyon manat vəsait ayrıldı. Xalqımızın milli həmrəyliyi və dəstəyi ilə fonda 100 milyon manatdan artıq vəsait toplandı. Prezident İlham Əliyev və Birinci vitse-prezident Mehriban Əliyeva birillik əməkhaqlarını fonda ianə etdilər.

COVID-19 virusuna yoluxmuş şəxslərin müalicəsi üçün 46 xəstəxana müəyyən edildi. Hansı ki, bu xəstəxanalın 41-i 2004-cü ildən sonra inşa olunub. 11 modul tipli xəstəxana istifadəyə verildi. Bu, virusa yoluxanların effektiv müalicə almasında böyük rol oynadı. Daha bir neçə modul tipli xəstəxananın tikintisi nəzərdə tutulsa da, virusun yayılmasına qarşı keçirilən effektiv mübarizə tədbirlərinin nəticəsində onlara ehtiyac olmadı.

Prezident İlham Əliyev 2020-ci il martın 28-də Bakıda “Yeni klinika”nın, iyulun 6-da isə FHN-nin modul tipli hospitalının açılışını etdi.

Prezidentin sərəncamı ilə yaşına və səhhətinə görə xüsusi qayğıya ehtiyac duyan yaşı 65-dən yuxarı olan 176 məhkum, o cümlədən 165 kişi və 11 qadın cəzalarının çəkilməmiş hissəsindən azad edildi.

Ən mühüm addımlardan biri də o oldu ki, ölkəmizdə qoruyucu və dezinfeksiya vasitələrinin istehsalı təşkil olundu və qısa müddətdə bu sahədə olan çatışmazlıqlar aradan qaldırıldı. 2020-ci il aprelin 6-da Sumqayıt Kimya Sənaye Parkında “Bakı Tekstil Fabriki” MMC tərəfindən yaradılan tibbi maska istehsalı müəssisəsi açıldı.

Dövlət başçısnın fərman və sərəncamlarına, tapşırıq və göstərişlərinə uyğun olaraq bütün dünyada nadir nümunələrdən biri kimi respublikamızda pandemiya dövründə geniş sosial proqramlar həyata keçirildi. Müstəqillik tarixinin ən böyük sosial paketi qəbul olundu. 5 milyona yaxın insan geniş sosial paketlə əhatə olundu.

Azərbaycan dünyada COVID-ə qarşı vaksinləşdirməyə başlayan ilk ölkə olaraq, bu sahədə əhəmiyyətli addımlar atdı. Ölkədə 2021-ci il yanvarın 18-dən başlayan koronavirusa qarşı vaksinasiya dövlət hesabına aparılır.

Pandemiya ilə mübarizədə qlobal həmrəyliyə nail olunmasının vacibliyi ilk gündən meydana çıxan çağırış idi. Bu çağırışı ilk dəyərləndirən Prezident İlham Əliyev oldu. Məhz cənab İlham Əliyev koronavirusla mübarizədə beynəlxalq həmrəyliyin əldə olunması üçün təşəbbüslərlə çıxış etdi. 2020-ci ilin aprel ayında Prezident İlham Əliyevin təşəbbüsü ilə Türk Şurasının koronavirusla mübarizəyə həsr olunmuş Zirvə görüşüünün keçirilməsi bu istiqamətdə baş tutan ilk beynəlxalq tədbir idi.

Azərbaycan Prezidenti ortaya qoyduğu məqsədyönlü mövqeyi, prinsipial yanaşmanı daha bir qlobal təşəbbüslə davam etdirdi. Türk Şurasının Zirvə görüşündən sonra Azərbaycanın təşkilatçılığı ilə koronavirusla mübarizə üzrə növbəti beynəlxalq tədbir baş tutdu. 2020-ci ilin may ayında Qoşulmama Hərəkatının Təmas Qrupu formatında videokonfrans vasitəsilə “COVID-19-a qarşı birlikdəyik” mövzusunda Zirvə görüşü keçirildi. 2021-ci il dekabrın 16-da BMT Baş Assambleyasının 76-cı sessiyası çərçivəsində assambleyanın plenar iclasında Qoşulmama Hərəkatının Sədri qismində Azərbaycan Prezidentinin təşəbbüsü ilə QH üzvləri adından irəli sürülmüş “COVID-19 əleyhinə peyvəndlərə bərabər, məqbul qiymətə, vaxtında və universal əlçatanlığın təmin edilməsi” adlı qətnamə BMT-yə üzv dövlətlərin mütləq əksəriyyətinin (179 dövlət) dəstəyi ilə qəbul edildi.

BMT-yə üzv olan 126 dövlət qətnaməyə həmmüəllif qismində qoşuldu. Qətnamənin qəbulu Azərbaycan Prezidentinin sədrliyi ilə Qoşulmama Hərəkatının COVID-19 pandemiyasına qarşı mübarizədə qlobal təşəbbüslərin mərkəzində olmağa davam etdiyinin daha bir göstəricisi idi.

Peyvəndlərə çıxışla əlaqədar dövlətlər arasında dərinləşən qeyri-bərabərliyin aradan qaldırılması üçün Azərbaycan ÜST-ə 10 milyon ABŞ dolları həcmində könüllü maliyyə töhfəsi etdi ki, onun da yarısı Qoşulmama Hərəkatının üzvlərinə birbaşa yardım oldu.

## Qələbəyə aparan yol, hücum diplomatiyası və Baş Sərkərdənin tarixi zəfəri

Prezident İlham Əliyevin yürütdüyü hücum diplomatiyası erməni lobbisinin xaricdəki gücünü sındırdı, əsl sərkərdəlik qabiliyyəti isə Qarabağda “keçilməz”, “dağılmaz” dedikləri müdafiə istehkamları ilə bağlı mifi darmadağın etdi.

Öncə Azərbaycanın dövlət başçısı siyasi meydanda möhtəşəm uğurlar qazandı. Ermənistanın baş naziri Nikol Paşinyanı siyasi dialoqlarda mat vəziyyətində qoydu. Dünya Dağlıq Qarabağ probleminin mahiyyətinə varmağa başladı, Azərbaycan haqqında həqiqətlərə diqqət kəsildi. Bütün beynəlxalq tribunalardan, ali kürsülərdən dünyaya səslənən Azərbaycan Prezidenti Ermənistanın işğalçı dövlət olduğunu isbatladı. Beynəlxalq ictimai rəy Azərbaycanın xeyrinə dəyişməyə başladı.

Cənab İlham Əliyev Ali Baş Komandan kimi Azərbaycanda dünyanın 50 ən güclü ordusundan birini qurdu və bu ordu işğalçıların təxribatlarına qarşı əks-hücum həmləri ilə müəyyən vaxtlarda düşmənə öz gücünü göstərdi.

Ən nəhayət, cənab İlham Əliyev Ali Baş Komandan kimi xalqa verdiyi vədi gerçəkləşdirdi. Hansı ki, 4 il öncə andiçmə mərasimində söyləmişdi ki, Azərbaycan xalqı heç vaxt bu işğal faktı ilə barışmayacaq və torpaqlarımız düşmən tapdağından azad ediləcək. Buna nail olmaq üçün daha da güclü olmalıyıq və olacağıq.

2020-ci il sentyabrın 27-də əks-hücum əməliyyatları ilə başlayan Vətən müharibəsi düşmənə tarixinin ən ağır zərbəsini vurdu. Düzdür, bu savaş zamanı Azərbaycana böyük təzyiqlər də göstərildi. Ancaq qətiyyətli siyasi iradə nümayiş etdirən cənab İlham Əliyev bütün təzyiqlərə mərdanə şəkildə sinə gərərək, öz prinsipial mövqeyindən dönmədi.

Müzəffər Ali Baş Komandanın rəhbərliyi ilə Azərbaycan Ordusu 44 gün müddətində Ermənistanı diz çökdürüb hərbi kapitulyasiyaya məcbur etdi. Qələbə günündən 8 gün və Ermənistanın kapitulyasiyasından 6 gün keçəndən sonra Ali Baş Komandan Qalib Sərkərdə kimi noyabrın 16-da Qarabağa səfər etdi. Həmin an tarixi gün idi. O gün Prezident İlham Əliyev savaş dövründə Azərbaycanın qəhrəman oğullarının döyüşə-döyüşə Şuşaya qədər getdikləri çığırları Zəfər yolu adlandırdı və Füzulidən Şuşaya aparacaq yeni avtomobil yolunun təməlini qoydu.

2012-ci il yanvarın 14-də isə Prezident Əhmədbəyli-Füzuli-Şuşa avtomobil yolunun 27-ci kilometrində Füzuli-Şuşa yolunun, həmçinin Füzuli rayonunda hava limanının təməllərini qoydu, Zəfər yolu ilə Şuşaya Qalib Sərkərdə kimi ayaq basdı və qədim qalamızdan düşmənə gözdağı verdi: “Biz qalib xalqıq. Mən Şuşaya son dəfə 39 il bundan əvvəl gəlmişəm. 39 il bundan əvvəl iki dəfə gəlmişəm və birinci dəfə yanvarın 14-də gəlmişəm. Bax, bu gün, yanvarın 14-də yenə də buradayıq. Bu dəfə müzəffər Azərbaycan Ordusunun, qalib Azərbaycan Ordusunun Ali Baş Komandanı kimi gəlmişəm. Düşmənin belini qıran ordunun Ali Baş Komandanı kimi gəlmişəm və burada müqəddəs bayrağın altında, qəhrəman hərbçilərin önündə deyirəm ki, biz bu torpaqlarda əbədi yaşayacağıq! Biz Şuşanı və dağıdılmış bütün başqa şəhər və kəndlərimizi bərpa edəcəyik. Dağıdılmış bütün tarixi abidələrimizi bərpa edəcəyik”.

Bu, təkcə Ermənistana deyil, bütün dünyaya mesaj idi. Azərbaycan Prezidenti bəşəriyyətə səslənərək dedi ki, düşmənin 30 ilə daşı daş üstündə qoymadığı şəhər və kəndlərimizi qısa zamanda öz gücümüzə bərpa edəcəyik.

Beləliklə, İkinci Qarabağ müharibəsi böyük zəfərimizlə bitdi. Azərbaycan son 200 illik tarixində müharibədən ərazi itkisi ilə yox, ərazi bütövlüyünü bərpa edərək çıxdı. Bu şanlı qələbədən sonra regionda Azərbaycanın maraqlarına cavab verən yeni siyasi reallıq yarandı.

Müharibə dövründə Prezident İlham Əliyev bütün cəbhələrdə öndə idi və diplomatik məharəti ilə hətta informasiya cəbhəsində apardığı mübarizədən qalib çıxdı. Tutarlı, sərrast cavabları, dəmir məntiqə əsaslanan arqumentləri ilə dünyanın aparıcı media mənsublarına verdiyi cavablarla Ermənistanın bu sahədə apardığı yalan, heç bir həqiqətə əsaslanmayan böhtan dolu təbliğatını alt-üst etdi. Təkcə Vətən müharibəsi dövründə 40-a yaxın xarici KİV-ə müsahibə verən dövlət başçısı Azərbaycan həqiqətlərini çatdırmaqla ölkəmiz haqqında dünya ictimaiyyətində müsbət rəy formalaşdırmağı bacardı. Artıq mövcud olmayan Qarabağ münaqişəsi, müharibənin başlama səbəbləri, gedişi barədə analitik şərhləri, diplomatik cavabları ilə Ermənistanın işğalçı, təcavüzkar mahiyyətini açıb göstərdi, terrorun bu ölkə tərəfindən dövlət səviyyəsində dəstəkləndiyini sübut etdi. Qərəzli, təxribat xarakterli suallara verdiyi təmkinli, səbirli, həmçinin əsaslandırılmış cavablarla hər kəsə öz yerini göstərdi.

Bu müharibə dünyaya Azərbaycan xalqının nə qədər böyük, yenilməz, dəmir iradəli, müzəffər xalq olduğunu göstərdi. Bu tarixi nəticə bizlər haqqında “məğlub xalq” rəyini sındırdı, xalqımıza özgüvən aşıladı, milli qürurumuzu qabartdı.

Vətən müharibəsində qazandığımız qələbə İlham Əliyevin hakimiyyətdə olduğu illər ərzində həyata keçirdiyi güclü dövlət, güclü ordu strategiyasının məntiqi nəticəsi idi. Tarixi qələbə ilə Azərbaycan bir daha dünyanın inkişaf etmiş dövlətlərindən biri olduğunu təsdiqlədi. Bu zəfərlə adını Azərbaycan tarixinə qızıl hərflərlə yazdıran Ali Baş Komandana ümumxalq sevgisi daha da artdı.

## Qarabağ və Şərqi Zəngəzurda misli görünməyən quruculuq işləri

Bu zəfərdən sonra regionda yeni reallıqlar yarandı. Azərbaycan işğaldan azad etdiyi torpaqlarında erməni vəhşiliyini, barbarlığını dünyaya nümayiş etdirdi. Hansı ki, son 28 ildə şəhərlərimizin, kəndlərimizin daşı daş üstündə qalmayıb, darmadağın edilərək sanki torpaq üzərindən silinib. Bəşəriyyət bir daha şahidlik etdi ki, Ermənistan illərlə dünyaya yalan satıb.

Amma düşmənin bu xisləti heç də Azərbaycanı ruhdan, həvəsdən salmadı. Prezidentin sərəncamı ilə Qarabağ və Şərqi Zəngəzur iqtisadi rayonları yaradıldı və azad edilən torpaqlarımızda quruculuq, yenidənqurma işlərinin başlanması ilə bağlı tapşırıq verildi. Heç bir maliyyə təşkilatından, beynəlxalq qurumdan, hansısa dövlətdən yardım almadan Azərbaycan öz imkanları hesabına bu işləri həyata keçirməyə başladı.

Hava limanları, dəmir və avtomobil yolları, enerji və su təchizatı, daxili infrastrukturlar, yaşayış məskənləri və Zəngəzur dəhlizinin açılması istiqamətində başlanan işlər getdikcə geniş vüsət aldı. Bu gün işğaldan azad edilmiş torpaqlarımızda misli görünməmiş quruculuq işləri davam edir. Prezidentin şəxsi nəzarətində olan bu işlər sürətlə aparılır. Cənab İlham Əliyev mütəmadi olaraq Qarabağa və Şərqi Zəngəzura səfər edərək görülən işlərlə maraqlanır və hər səfərində hansısa obyektin ya açılışını edir, ya da təməlini qoyur.

Artıq vətəndaşlarımız marşrut avtobusları ilə Şuşaya, Ağdama səfərlər edirlər. Füzuli hava limanı Qarabağın ilk hava qapısı kimi vətəndaşların xidmətindədir. Bu ərazilərdə 16 avtomobil yolunun inşası davam edir və tezliklə bütün istiqamətlərə yeni asfalt yollarla hərəkət başlayacaq. Bütün bunlarını baş memarı əlbəttə ki, Azərbaycanı tarixinin ən qüdrətli dövlətinə çevirən cənab İlham Əliyevdir.

Əminliklə deyə bilərik ki, Azərbaycan Prezidentinin “Qarabağı yenidən cənnətməkana çevirəcəyik” fikri tezliklə reallaşacaq və dünya bir daha ölkəmizin iqtisadi qüdrətinin şahidi olacaq.

Bütün bunlar onu deməyə əsas verir ki, Prezident İlham Əliyevin qətiyyəti, yüksək siyasi iradəsi sayəsində həyata keçirilən ardıcıl islahatlar ölkəmizi gücləndirir, insanların rifah halını yüksəldir, dövləti, dövlət məmurlarını xalqa daha da yaxınlaşdırıb, doğmalaşdırır.

## Sülh danışıqları prosesini Qalib Komandan idarə edir

Azərbaycanın Qarabağ münaqişəsini həll etməklə yaratdığı dəyişməz reallıqlar bu gün bütün tərəflərin maraqlarına cavab verir. Bunu beynəlxalq təşkilatların, həmçinin prosesə münasibət bildirən dövlətlərin davranışları da sübut edir. Reallıq isə ondan ibarətdir ki, işğala son qoyulmaqla region Ermənistanın yaratdığı bataqlıqdan xilas olaraq sürətli inkişaf yoluna qədəm qoyub. Bu, bütövlükdə region ölkələrinin siyasi-iqtisadi maraqlarına tam cavab verir.

Postmüharibə dövründə aparılan bütün danışıqlar Azərbaycanın milli maraqları çərçivəsində və irəli sürdüyü təkliflər əsasında aparılır. Bu istiqamətdə aprelin 6-da Prezident İlham Əliyevin Brüsselə səfəri, Avropa İttifaqı Şurasının prezidenti Şarl Mişellə, Ermənistanın baş naziri Nikol Paşinyanla ikinci görüşünü və əldə olunmuş nəticələri əhəmiyyətli irəliləyiş kimi qiymətləndirmək olar. Bunu həyata keçirilən ardıcıl və məqsədyönlü siyasətin növbəti böyük uğuru kimi dəyərləndirmək lazımdır. Ermənistanla Azərbaycan arasında sülh müqaviləsi üzrə danışıqlara başlanılması, bu istiqamətdə işçi qrupun yaradılması, Azərbaycanın irəli sürdüyü 5 təklif və bunun əsasında predmetli danışıqların aparılması Azərbaycanın ərazi bütövlüyünün təmin olunması istiqamətində önəmli işlərdir. Delimitasiya prosesinə başlanılması məsələsi müharibə başa çatdıqdan sonra Azərbaycanın irəli sürdüyü ilk təkliflərdəndir və son danışıqlarda bu barədə razılığın əldə olunması çox əhəmiyyətlidir.

Beləliklə, danışıqlar Azərbaycanın irəli sürdüyü 5 təklifin əsasında aparılır. Bu təklifdəki əsas məqam Azərbaycanın ərazi bütövlüyüdür. Məhz bu səbəbdən də Brüsseldə keçirilən ikinci görüş Prezident İlham Əliyevin siyasi diplomatiyasının növbəti uğuru hesab olunmalıdır. Çünki görüşdə tərəflərin, konkret olaraq Ermənistanın üzərinə götürdüyü öhdəlik elə Azərbaycanın iradəsinin reallaşması deməkdir. Bütün bunlar onu deməyə əsas verir ki, həm məğlub Ermənistan, həm də vasitəçilik edən beynəlxalq təşkilatlar Azəbaycan Prezidentinin siyasi qərarları ilə razılaşmaq məcburiyyətindədirlər. Çünki bu gün regionda diktəni Qalib Komandan cənab İlham Əliyev edir.

Göründüyü kimi, adını tariximizə həm də Xilaskar Lider kimi yazdıran cənab İlham Əliyev milli maraqlara əsaslanan, tam müstəqil, prinsipial siyasəti ilə Azərbaycanı daha qüdrətli dövlətə çevirmək üçün var gücü ilə çalışır. Bu istiqamətdə həyata keçirilən qətiyyətli siyasətin mərkəzində həm də Azərbaycan Respublikasının Birinci vitse-prezidenti Mehriban xanım Əliyevanın əzmkar fəaliyyəti də dayanır. Dövlət başçısının verdiyi strateji qərarların, islahatların aparılması, müsbətə doğru dəyişikliklərin həyata keçirilməsi niyyəti ilə irəli sürdüyü vəzifələrin uğurla icrasını, öz məqsədinə çatmasını təmin edən başlıca dəstək də məhz Mehriban xanım Əliyeva tərəfindən verilir. Mehriban xanım Əliyeva bütün cəhətləri ilə xalq adamıdır, vətəndaşlarımızın birmənalı dəstəyini qazanmış dövlət xadimidir, gördüyü işlərlə xalqın istəklərini yerinə yetirən, insanların arzularından gəlmiş uğurlu, parlaq simadır. Gördüyü bütün işlərlə Prezidentə dayaqdır, ən yaxın silahdaşdır.

*Həm Prezidentin, həm də Birinci vitse-prezidentin Azərbaycanın uğurları naminə həyata keçirdikləri siyasət, apardıqları təbliğat, xalqın xoş rifahı naminə gerçəkləşdirdikləri layihələr onu deməyə əsas verir ki, Azərbaycan daha möhtəşəm, daha qüdrətli gələcəyə doğru inamla addımlayır.*

**Səttar MÖHBALIYEV,**
***Milli Məclisin deputatı,***
***Azərbaycan Həmkarlar İttifaqları Konfederasiyasının sədri***

# Etimadı doğruldan Lider

Dünyanın ictimai-siyasi və sosial-iqtisadi mənzərəsi həm rəngarəng, həm də ziddiyyətlidir. Bir sıra ölkələrdə və regionlarda xaos-anarxiya, qarşıdurma-toqquşma, tənəzzül-böhran hökm sürür, mürəkkəb şərait və çətinliklər xalqların həyatına, dövlətlərin fəaliyyətinə ciddi təsir göstərir. Amma müsbət nümunə - inkişaf və tərəqqi örnəkləri də var. Cənubi Qafqazın lideri - regional güc mərkəzi olan Azərbaycan kimi.

Müstəqillik dövrünün, eləcə də son zamanların prosesləri və reallıqları göstərir ki, Azərbaycan dövləti müxtəlif qlobal kataklizmlərin yaratdığı hər cür mürəkkəb situasiyadan çıxmağa, öz inkişafını davam etdirməyə, istənilən şəraitdə xalqının təhlükəsizliyini təmin etməyə qadirdir. Çünki ölkəmizin Prezident İlham Əliyev kimi qətiyyətli, güclü siyasi iradəyə malik, xalqının və dövlətinin maraqlarını əzmlə, cəsarətlə müdafiə edən dövlət başçısı var. Azərbaycan ötən müddət ərzində Prezident İlham Əliyevin rəhbərliyi ilə böyük inkişaf yolu keçib, bütün sahələrdə tarixi nailiyyətlər əldə edib.

Ümumiyyətlə, inkaredilməz həqiqətdir ki, Azərbaycan xalqının çoxəsrlik dövlətçilik tarixinin ən parlaq səhifələri və həlledici məqamları məhz lider fenomeni və liderlik amili ilə əlaqədardır. XX əsrdə ikinci dəfə müstəqillik əldə edən Azərbaycan dövləti xalqımızın Ümummilli Lideri Heydər Əliyevin zəngin dövlətçilik təcrübəsi sayəsində xaos və tənəzzüldən xilas olaraq tərəqqi yoluna qədəm qoyub. Ulu Öndərin xalqımız qarşısında müstəsna xidmətlərindən biri isə siyasi varisliyin təmin edilməsidir. Ümummilli Liderin layiqli davamçısı olan Prezident İlham Əliyev Azərbaycanın möhtəşəm nailiyyətlər qazanaraq zirvələr fəth etməsinə müvəffəq olub.

Şübhəsiz ki, Azərbaycanın güclü - qüdrətli və nüfuzlu dövlət kimi ardıcıl müvəffəqiyyətlər qazanmasını, sabitlik adası, inkişaf diyarı kimi strateji hədəflərinə çatmasını, beynəlxalq münasibətlər sistemində söz sahibinə çevrilməsini təmin edən əsas amil xalqın öz liderinə dəstək verməsi, liderin isə milli mənafelərə adekvat siyasət həyata keçirməsidir. Qətiyyətli lider - müdrik siyasətçi olan Prezident İlham Əliyevin qeyd etdiyi kimi: “Azərbaycanda sabitliyin təminatçısı Azərbaycan xalqıdır və bizim siyasətimizdir. Ona görə xalq-iqtidar birliyi bizim uğurlarımızın əsas şərtidir. Azərbaycan bu gün dünya miqyasında sabitlik məkanı, sabitlik adası kimi tanınır və bu, bizim böyük nailiyyətimizdir”.

11 aprel 2018-ci il tarixdə ölkəmizdə keçirilən prezident seçkilərinin nəticələri də bu reallığı təsdiqlədi, xalq öz liderinə növbəti dəfə inam və etimad göstərdi. Dövlət başçısı həmin seçkilərdən sonra andiçmə mərasimində qeyd etdi ki, “Biz bundan sonra da müstəqillik və qələbələr yolu ilə gedəcəyik”. Beləliklə, cənab İlham Əliyev növbəti dəfə Prezident seçildikdən sonra verdiyi bütün vədlərə əməl etdi, Azərbaycanı daha güclü və qüdrətli dövlətə çevirdi. Bu isə xalqın Prezident İlham Əliyevə inamını və güvənini daha da artırdı. Azərbaycan xalqı həm də onunla qürur duyur ki, dünya miqyasında nüfuzlu siyasi xadim olan dövlətimizin başçısı İlham Əliyev öz fəaliyyəti ilə ölkənin təkcə sürətli inkişafını təmin etməyib. Onun ideyaları, əməli fəaliyyəti həm də bəşəriyyətin inkişafına vacib töhfələr verib. Bu gün Prezident İlham Əliyevin rəhbərlik etdiyi qüdrətli Azərbaycan beynəlxalq əməkdaşlığın inkişafında, dünya miqyasında təhlükəsizliyin təmin olunmasında çox əhəmiyyətli rol oynayır. Xüsusi vurğulamaq gərəkdir ki, Prezident İlham Əliyevin həyata keçirdiyi siyasət ölkəmizin müasirləşməsini, respublikamızın simasının əsaslı dərəcədə dəyişməsini, dünya birliyinin layiqli üzvünə çevrilməsini təmin edib. Bu gün Azərbaycanın müxtəlif sahələrdə təcrübəsi hətta inkişaf etmiş ölkələr üçün nümunə göstərilir. Genişmiqyaslı islahatların aparılması, idarəetmənin səmərəliliyinin artırılması və digər mühüm addımlar Azərbaycanın uzunmüddətli inkişafını təmin edir.

Ən mühüm məqamlardan biri bölgələrin tarazlı inkişafının təmin olunmasıdır. Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin təşəbbüsü və müvafiq tapşırıqları ilə qəbul edilən, icrası uğurla təmin olunan regionların sosial-iqtisadi inkişafına dair dövlət proqramlarının səmərəli nəticələri göz önündədir. Bu proqramların uğurlu icrası nəticəsində əhalinin məşğulluq səviyyəsi, iqtisadiyyatın rəqabətqabiliyyətliliyi artıb, insanların rifahı daha da yaxşılaşıb, müxtəlif sahələrdə inkişaf dinamikası sürətlənib. Əldə olunmuş nailiyyətlər gələcək inkişaf üçün də mühüm sosial-iqtisadi baza yaradıb.

Prezident İlham Əliyevin rəhbərliyi ilə torpaqlarımızın işğaldan azad olunması Azərbaycanın inkişafında yeni mərhələnin əsasını qoyub. Burada işğaldan azad olunmuş ərazilərdə bərpa və quruculuq işləri aparmaq, yeni infrastrukturların yaradılmasına, sərmayələrin cəlb edilməsinə nail olmaq xüsusi yer tutur. Artıq bu proses başlanıb, əsas infrastruktur layihələrinin icrasına start verilib. Prezident İlham Əliyevin “Azərbaycan Respublikasında iqtisadi rayonların yeni bölgüsü haqqında” fərmanı əsasında aparılan yeni bölgü və vahid proqram əsasında görüləcək işlər azad edilmiş ərazilərin zəngin iqtisadi potensialından, təbii sərvətlərindən və geniş turizm imkanlarından səmərəli istifadə edilməsinə imkan verəcək. Bu da bütövlükdə həm regionların sosial-iqtisadi tərəqqisinin yeni mərhələsinin başlanmasına, həm də Azərbaycan iqtisadiyyatının inkişafına əlavə təkan olacaq.

Dövlət başçısının bütün sahələri əhatə edən uğurlu strateji fəaliyyətinin nəticələri ilə əlaqədar digər bir sıra məqamlara xüsusi diqqət yetirmək lazımdır. Bunlardan biri Azərbaycanın sabitlik adasına və təhlükəsizlik məkanına çevrilməsidir. Nüfuzlu beynəlxalq təşkilatlar Azərbaycandakı təhlükəsizlik mühitini çox yüksək qiymətləndirirlər. Ölkəmizdə müxtəlif xalqların nümayəndələri sülh, əmin-amanlıq şəraitində mehriban birgəyaşayışa malikdirlər. Bununla yanaşı, siyasi dialoq prosesi, hakimiyyətlə müxalif partiyalar arasında təmasların yaradılması, fikir mübadilələrinin, müzakirələrin aparılması Azərbaycan Prezidentinin siyasi iradəsini əks etdirir. Dövlət başçısının iradəsi əsasında Prezident Administrasiyasında müvafiq struktur islahatlarının aparılmasından sonra siyasi partiyalarla iş sahəsində yeni mərhələ başlanıb, islahat xarakterli siyasi sistemin inkişafına yönəlmiş mühüm addımlar atılıb. Yeni siyasi partiyaların qeydiyyatdan keçməsi, partiyaların qərargahlarla təmin olunması, dialoq prosesinin sistemli şəkildə aparılması və digər faktlar bu reallığın tərkib hissəsidir. Bütün bunlar həm də siyasi birliyin və milli həmrəyliyin güclənməsinə əhəmiyyətli töhfələr verir. Biz bu gerçəkliyi Vətən müharibəsi zamanı gördük və hazırda da müşahidə edirik.

Digər məsələ milli maraqlara əsaslanan praqmatik və çoxvektorlu xarici siyasətin həyata keçirilməsi, Azərbaycanın qlobal siyasi arenada mövqeyinin möhkəmlənməsinə nail olunmasıdır. Bu gün Azərbaycan dünyada etibarlı tərəfdaş, nüfuzlu dövlət kimi tanınır. Azərbaycan 155 ölkənin dəstəyi ilə 2011-ci ildə BMT Təhlükəsizlik Şurasına qeyri-daimi üzv seçilib, 2014-cü ildə Avropa Şurasının Nazirlər Komitəsinə sədrlik edib, Qoşulmama Hərəkatına sədrliyi uğurla davam etdirir. Prezident İlham Əliyev dünya ölkələri və bütövlükdə bəşəriyyət üçün olduqca həssas bir dönəmdə çox mühüm təşəbbüslərlə çıxış edir, Azərbaycanın nümunəvi təcrübəsini bölüşür və liderlik keyfiyyətini nümayiş etdirir. Başqa sözlə, qətiyyətli liderin rəhbərlik etdiyi qüdrətli Azərbaycan qlobal taleyüklü məsələlərdə öz fəal rolu və liderlik missiyası ilə fərqlənir. Azərbaycanın həmrəyliyə və əməkdaşlığa xidmət edən təşəbbüslərinin beynəlxalq arenada yüksək qiymətləndirilməsi isə ölkəmizə, şəxsən Prezident İlham Əliyevə olan etimadın bariz nümunəsidir.

Heç şübhəsiz, tariximizin və müstəqillik dövrümüzün ən əlamətdar, zirvə hadisəsi Azərbaycanın ərazi bütövlüyünün bərpa olunmasıdır. Ötən müddət ərzində Prezident İlham Əliyevin rəhbərliyi ilə öz hərbi qüdrətini və iqtisadi imkanlarını artıran, uğurlu diplomatik fəaliyyət həyata keçirən Azərbaycanın münaqişənin həllinə nail olması müstəsna tarixi hadisədir. Azərbaycan öz ərazi bütövlüyü ilə yanaşı, tarixi ədalətin və beynəlxalq hüququn bərpasına da müvəffəq olub. Ölkəmiz öz hərbi-siyasi gücü ilə BMT Təhlükəsizlik Şurasının 822, 853, 874 və 884 saylı qətnamələrinin icrasını təmin edib, işğalçı Ermənistanın təcavüzkar siyasətini müdafiə edən, ikili standartlara əsaslanan ədalətsiz mövqe sərgiləyən dairələrə ədalət dərsi verib. Bu həm də BMT tarixində bir ilkdir. Azərbaycan mürəkkəb beynəlxalq şəraitə və bir sıra təzyiq cəhdlərinə baxmayaraq, bir ölkənin öz gücü ilə işğal faktını aradan qaldıra və separatizmi məhv edə biləcəyi ilə bağlı nümunə yaradıb. Xüsusi vurğulamaq istəyirəm ki, bu qələbənin əldə olunmasında xalq-iqtidar birliyi, dünya azərbaycanlılarının Ali Baş Komandanımızın ətrafında sıx birləşməsi və milli həmrəyliyimiz vacib rol oynadı. Azərbaycan xalqı, sözün əsl mənasında, vahid amal uğrunda dəmir yumruq kimi birləşdi, öz hədəfinə çatdı. Xalq-iqtidar birliyi, dünya azərbaycanlılarının həmrəyliyi öz sözünü dedi, bütün dünya, o cümlədən işğalçı Ermənistan və onun havadarları gücümüzü, qüdrətimizi gördü. Bu gün işğaldan azad edilmiş ərazilərdə bərpa-quruculuq işlərinin aparılması, yeni infrastrukturun yaradılması həm tarixi qələbəmizin möhkəmləndirilməsi, həm də ölkəmizin sosial-iqtisadi inkişafı baxımından çox mühüm əhəmiyyətə malikdir. Zəfər yolunun, Füzuli, Laçın və Zəngilan rayonlarında beynəlxalq hava limanlarının inşası, “ağıllı kənd” konsepsiyası əsasında müasir yaşayış məntəqələrinin yaradılması və digər mühüm addımlar sosial, iqtisadi, siyasi və strateji önəm daşımaqla yanaşı, böyük Qayıdışın ən yüksək səviyyədə təmin olunmasına vacib töhfədir. Nəhayət, şərtləri diktə edən qalib Azərbaycanın siyasi iradəsi və yaratdığı reallıqlar əsasında regionda yeni sülh, təhlükəsizlik və əməkdaşlıq mühiti formalaşıb. Xüsusilə də kommunikasiya xətlərinin bərpası, yeni formatda əməkdaşlıq platformasının yaradılması həm Azərbaycan, həm də regionda bütün xalqlar və dövlətlər üçün mühüm siyasi-iqtisadi üstünlüklər vəd edir. Bu kontekstdə Zəngəzur dəhlizinin yaradılması da çox önəmli amillərdən biridir. Zəngəzur dəhlizi həm ölkəmizin yerləşdiyi regionda, həm də Asiyadan Avropaya doğru geniş məkanda yeni siyasi-iqtisadi mənzərənin formalaşmasına zəmin yaradacaq. Bu ərazidən keçən nəqliyyat xətti bir çox dövlətin əməkdaşlıq imkanlarını genişləndirəcək. Ən vacib məqamlardan biri yeni kommunikasiya vasitəsilə Azərbaycanın Naxçıvan Muxtar Respublikası vasitəsilə Türkiyə ilə birləşməsi, Azərbaycanın əsas hissəsi ilə muxtar respublika arasında birbaşa quru əlaqəsinin yaranmasıdır.

Bütövlükdə isə Azərbaycanın müəllifi olduğu yeni geostrateji reallıqlar bölgəyə rifah və inkişaf gətirəcək. Nəticə etibarilə 44 günlük Vətən müharibəsi bizim şanlı tariximizdir. Bu qələbə dastanı həm də böyük zəfər salnaməsidir. Əminliklə söyləyə bilərik ki, Azərbaycan bundan sonra da Prezident, Müzəffər Ali Baş Komandan İlham Əliyevin rəhbərliyi ilə böyük nailiyyətlər qazanaraq tarix yazacaq!

Nəticə etibarilə çoxəsrlik tarixində heç vaxt indiki qədər qüdrətli olmayan Azərbaycan öz strateji hədəflərini ardıcıl olaraq reallaşdırır, dövlətimizin qüdrəti mütəmadi olaraq artır. Ona görə də Azərbaycan xalqı Prezident İlham Əliyevin ətrafında sıx birləşib. Dünya azərbaycanlıları Azərbaycanın gələcək inkişafının məhz Prezident İlham Əliyevin adı ilə bağlı olduğunu əminliklə vurğulayırlar. Xalqımız hər bir azərbaycanlının Prezidenti olan, milli maraqlara əsaslanan çoxşaxəli fəaliyyəti nəticəsində söz ilə əməlin vəhdətini yaratmış Liderə - dövlət başçısı İlham Əliyevə tam güvənir, onun müstəqil Azərbaycanın gələcək tərəqqisi naminə zamanında qəbul etdiyi qərarların uğurlu icrası sayəsində ölkəmizin inkişafının davam edəcəyinə, firavanlığın və yüksək rifahın daimi olacağına inanır! Xalq-iqtidar birliyi, güclü milli həmrəylik isə ölkəmizin bundan sonra da Prezident İlham Əliyevin rəhbərliyi ilə uğurla inkişaf edəcəyini əminliklə söyləməyə imkan verir. Dövlət başçısının qeyd etdiyi kimi, bu gün müstəqil Azərbaycan dövləti özünün ən şanlı dövrünü yaşayır: “Çünki Azərbaycan tarixdə heç vaxt bu qədər güclü olmamışdır. Bu gün bu həm siyasi gücdür, iqtisadi gücdür, xalq-iqtidar birliyidir, hərbi gücdür və bizim regionda oynadığımız müsbət roldur”.

***Siyavuş NOVRUZOV,***
***Milli Məclisin Regional məsələlər komitəsinin sədri***



# Xalqımız öz rəhbəri ilə qürur duyur

Bu gün Azərbaycan dünya birliyi ölkələri arasında öz yeri və nüfuzu, beynəlxalq məsələlərin həllində söz demək, təşəbbüslər irəli sürmək imkanlarına malik olan, müstəqil siyasət yürüdən azad, sivil və demokratik dövlətlərdən biridir.

Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin düşünülmüş siyasi xətti ölkəmizi nəinki regionda, eləcə də beynəlxalq aləmdə şöhrətləndirmiş, rolunun artmasına, nüfuzunun gündən-günə yüksəlməsinə zəmin yaratmışdır.

Cənab İlham Əliyev Prezident seçildiyi ilk gündən bəşəri ideyalara sahib olduğunu, insanlara sədaqətini, torpağa, vətənə sonsuz məhəbbətini nümayiş etdirmiş, “mən hər bir Azərbaycan vətəndaşının Prezidenti olacağam” vədini əməli fəaliyyəti ilə sübut etmişdir. Çox fərəhli haldır ki, bu gün cənab İlham Əliyev yalnız ölkəmizin vətəndaşlarının deyil, dünya ölkələrinin sülhsevər vətəndaşlarının da böyük hörmət etdiyi bir Prezident kimi tanınır, seçilir və qiymətləndirilir.

Əlbəttə, bu, dövlət başçısının xalqımızın milli maraqlarına söykənən və inkişafımıza təkan verən səmərəli fəaliyyətinin, dünyada baş verən hadisələri, reallıqları görmək və qiymətləndirmək bacarığının, düşünülmüş siyasi gedişlərinin nəticəsidir.

Son illərin hadisələri - pandemiyaya qarşı mübarizə, 44 günlük müharibənin gedişi və qazanılan tarixi qələbəmiz, Azərbaycan Prezidentinin bu dövrlərdəki gərgin fəaliyyəti, beynəlxalq aləmdə münasibətlərin tənzimlənməsində göstərdiyi cəhdlər və əldə edilən parlaq nəticələr cənab İlham Əliyevin çox böyük rəhbər, sərkərdə, siyasətçi məharətinə malik olduğunu sübut etdi.

Pandemiyanın tüğyan etdiyi, müharibənin gündən-günə şiddətləndiyi, dinc sakinlərimizin, şəhər və kəndlərimizin top, raket atəşinə tutulduğu, bombalandığı həmin günlərdə Azərbaycan Prezidentinin öz xalqının qayğıları ilə bərabər, xəstəliklərdən əziyyət çəkən ölkələrin vətəndaşlarının qeydinə qalması, halına acıması, bir çox ölkəyə yardım əlini uzatması, maddi kömək göstərməsi, ən mötəbər beynəlxalq təşkilatlar qarşısında məsələlər qaldırması, hətta BMT-nin xüsusi sessiyasının, Qoşulmama Hərəkatının toplantısının keçirilməsi, dünya dövlətlərinə müraciətlərin ünvanlanması İlham Əliyev böyüklüyünün, bəşəri ideyalarının təzahürü idi. Bunu ancaq öz taleyini insanların xoşbəxtliyində, işıqlı həyatında görən bir insan edə bilərdi.

Azərbaycan Respublikasının Prezidenti 2018-ci ilin prezident seçkiləri ərəfəsində ən mötəbər tribunalardan qətiyyətlə bildirdi ki, işğal altında olan torpaqlarımız mütləq, hansı yolla olursa-olsun erməni təcavüzkarlarından azad ediləcək, haqq-ədalət bərpa olunacaq, vətəndaşlarımız öz ata-baba yurdlarına qayıdacaqlar. Bu təsadüfi səsləndirilən bəyanatlar deyildi və onlar reallıqlara əsaslanırdı.

Cənab İlham Əliyevin ölkəyə rəhbərliyi illərində Azərbaycan iqtisadiyyatı dinamik olaraq inkişaf etmişdi. Sosial-iqtisadi sahələrdə mühüm islahatlar həyata keçirilmişdi. Ordu quruculuğu sürətləndirilmiş, maddi texniki baza gücləndirilmiş, əsgər və zabitlərdə qələbəyə böyük ruh yüksəkiliyi tərbiyə edilmişdi. Ölkədə ictimai-siyasi sabitlik yaranmış, vətəndaş həmrəyliyi güclənmişdi. Xalq öz Prezidentinə inanır, etimad göstərir və onun milli maraqlara xidmət edən siyasətini dəstəkləyirdi. Dövlət başçısı da hər an insanların arasında idi, onların qayğıları ilə yaşayıb işləyirdi. Azərbaycanın beynəlxalq aləmdə nüfuzu da qat-qat yüksəlmişdi, haqq-ədalət uğrunda mübarizəmizə dəstək verənlərin sayı xeyli artmışdı.

Azərbaycan Ordusunun Aprel döyüşlərindəki şücaəti, iki min hektardan artıq ərazimizin, Lələtəpə yüksəkliyinin ələ keçirilməsi, strateji mövqelərin alınması düşmən üzərində qələbənin uzaqda olmadığını göstərir, ölkə rəhbərinin düşünülmüş siyasətinin mütləq bəhrələrini verəcəyinə ümidləri artırırdı. Xalq, ordu öz Prezidentinin döyüş əmrini gözləyirdi.

Cənab İlham Əliyev 2018-ci ilin prezident seçkilərinə məhz bu inamla, bu qətiyyətlə, xalqın ruh yüksəkliyi və dəstəyi ilə getdi və seçkilərdə qalib gəldi. Başqa seçim də ola bilməzdi. Çünki Azərbaycan xalqı İlham Əliyevin qətiyyətinə, uzaqgörənliyinə, vətənpərvərliyinə və torpaqlarımızın azğın düşmənlərdən məhz onun bacarığı sayəsində azad ediləcəyinə inanırdı.

Xalq öz inamında yanılmamışdı. Cənab İlham Əliyev Prezident seçildikdən az sonra, ilk günlərdən erməni təcavüzkarlığının bəlalarını, törədilən faciələrin, təxribatların yolverilməzliyini daha qətiyyətlə qabartdı.

Ən mötəbər təşkilatlardan - BMT-dən, ATƏT-in Minsk qrupunun həmsədrlərindən, Qarabağ münaqişəsinin tənzimlənməsinə cavabdeh olanlardan haqq-hesab, səmərəli fəaliyyət, təcavüzkarların əməllərinə obyektiv qiymət verməyi tələb etdi və özünün kəskin mövqeyini ortaya qoydu: ya sülh, ya müharibə.

Çox təəssüflər olsun ki, Ermənistanın hərbi-siyasi hakimiyyəti kimi, beynəlxalq təşkilatlar, eləcə də böyük dövlətlər Azərbaycan Prezidentinin sülh çağırışlarını lazımınca dəyərləndirmədilər.

Belə olduqda Azərbaycan Prezidenti öz sözünü dedi, məqsədini bəyan etdi, səsini dünyaya çatdırdı və erməni təcavüzkarları, onların rəhbərləri sülhə gəlmədikdə, danışıqlar fayda vermədikdə Ali Baş Komandan döyüş əmrini verdi və məharətli siyasi gedişləri, müsahibələri, görüşləri ilə, ordumuzun, xalqımızın birliyi və mübarizliyi ilə bütün dünyanı heyrətdə qoydu, düşmənlərimizi əzdi, çaşdırdı, şoka saldı, dostlarımızı sevindirdi.

Cənab İlham Əliyev son prezident seçkilərinə qəlbində qələbəyə inam, xalqına məhəbbət və həm də intizar, torpaq həsrəti ilə getmişdi. Ancaq liderimiz qələbənin yaxınlaşdığını görürdü, duyurdu, çünki bunun üçün güclü zəmin hazırlamışdı, əsaslı tədbirlər həyata keçirmişdi, ürəklərdə qələbəyə ruh oyatmışdı, beynəlxalq imic formalaşdırmışdı.

İlham Əliyev prezident seçildiyi ilk gündən beynəlxalq təşkilatlarla, aparıcı dövlətlərlə əməkdaşlığa çox böyük önəm vermişdir. Cənab İlham Əliyevin uğurlu siyasəti nəticəsində Azərbaycan Respublikası 24 oktyabr 2011-ci ildə BMT Təhlükəsizlik Şurasının iki illiyə qeyri-daimi üzvü seçilmişdir. Bu, ölkəmizin dünyada artan nüfuzunun ifadəsi idi və Azərbaycanın Təhlükəsizlik Şurasındakı fəaliyyəti beynəlxalq əlaqələr sistemində unudulmaz bir tarixdir.

Azərbaycanın İslam Əməkdaşlıq Təşkilatındakı fəaliyyəti geniş və səmərəlidir və ölkəmiz bu təşkilatın ən nüfuzlu üzvlərindən biri kimi seçilir və qiymətləndirilir.

Fərəhli haldır ki, Azərbaycan 2019-cu ildən yüz iyirmidən çox ölkənin birləşdiyi Qoşulmama Hərəkatına sədrlik edir. Azərbaycanın bu mötəbər quruma sədrlik müddəti 2022-ci ildə bitməli olduğu halda üzv dövlətlərin yekdil istəyi ilə bu müddət 2023-cü ilə qədər uzadılmışdır ki, bu da ölkəmizə və Prezidentimizə göstərilən etimadın böyük ifadəsidir. Bu, cənab İlham Əliyevin quruma rəhbərlik etdiyi illər ərzində onun nüfuzuna böyük önəm verməsindən, hərəkat üzvlərinin maraqlarının qorunmasından və təmin edilməsindən, beynəlxalq hüququn, haqq-ədalətin müdafiə edilməsi sahəsində həyata keçirilən mühüm tədbirlərdən irəli gəlir.

İlham Əliyevin arzu və məqsədləri bəşəridir. O, dünya xalqlarını azad, xoşbəxt və mehriban görmək istəyir. Regionda sabitliyin, təhlükəsizliyin təmin olunması, eləcə də dünyada münaqişələrin aradan qaldırılması üçün əlindən gələni əsirgəmir. Prezidentimiz düşmən Ermənistan üzərində tarixi qələbənin qazanılmasına, bu ölkənin çıxılmaz iqtisadi-siyasi böhran şəraitində olmasına baxmayaraq, Ermənistanla münasibətlərin yaxşılaşdırılmasına, sülh yaradılmasına böyük önəm verir.

Aprelin 6-da Avropa İttifaqı Şurasının prezidenti Şarl Mişelin təşəbbüsü ilə Brüsseldə keçirilən üçtərəfli görüş, əldə olunan razılaşmalar da Prezident İlham Əliyevin növbəti diplomatik uğurudur. Bu proses onu deməyə əsas verir ki, sülh gündəliyi Azərbaycanın şərtləri əsasında formalaşır.

Ümumilikdə isə Brüssel görüşü Cənubi Qafqazda təhlükəsizliyin yaradılması istiqamətində sülh prosesinin başlanğıcı hesab oluna bilər. Bütün bunlar bir daha təsdiq edir ki, Avropa İttifaqı Prezident İlham Əliyevin regional liderliyini qəbul edir, dövlət başçısı ilə yaxın təmasları regionda sülh və sabitliyin bərqərar olmasında mühüm amil kimi görür.

Azərbaycanı iqtisadi cəhətdən inkişaf edən ölkələr sırasına çıxarmaq, respublikada ictimai-siyasi sabitliyi qorumaq və uzun illər davam etdirmək, siyasi qüvvələrin, vətəndaşların birliyinə və həmrəyliyinə nail olmaq, 30 il düşmən işğalı altında olan torpaqları az bir müddətdə düşməndən təmizləmək, tarixi ədaləti bərpa etmək, beynəlxalq aləmdə böyük nüfuz qazanmaq və söz sahibi olmaq dövlət rəhbərindən yüksək siyasi bacarıq, dərin zəka, təfəkkür, müdriklik, uzaqgörənlik tələb edir.

Cənab İlham Əliyev məhz bu keyfiyyətlərə sahib olan, xalqının sevimlisinə, torpağının cəfakeşinə çevrilən dövlət xadimi, tarixi şəxsiyyət və dünyada tanınan, sevilən, dəyərləndirilən bir dövlət rəhbəridir.

Azərbaycan xalqı öz rəhbəri ilə öyünür, qürur duyur, onu dəstəkləyir və İlham Əliyev kimi bir Prezidentin rəhbərliyi altında yaşadığı, işlədiyi üçün özünü xoşbəxt hesab edir.

***Tahir RZAYEV,***
***Milli Məclisin Aqrar siyasət komitəsinin sədri***

# Tarix yaradan şəxsiyyət

2018-ci il aprelin 11-də Azərbaycanda 8 namizədin iştirakı ilə keçirilən növbədənkənar prezident seckilərində Yeni Azərbaycan Partiyasının namizədi olaraq cənab İlham Əliyev seçicilərin mütləq əksəriyyətinin - 86,02 faizinin səsini qazanaraq Azərbaycan Prezidenti seçildi.

Xalq növbəti dəfə öz seçimini etdi. Azərbaycanın tərəqqisi, aydın inkişaf yolu, rifahı və əbədi müstəqilliyi məhz bu seçimdən keçirdi. Xalq səhv etmir və edə də bilməz. Məsud gələcək, nəsildən-nəslə ötürülən dəyərlər və babalarımızın bizə əmanət qoyduğu Vətən torpaqlarının təhlükəsizliyi bu qərardan asılı idi.

İlk dəfə 2003-cü ildə xalqın etimadını qazanaraq prezident seçilən İlham Əliyevin prezidentlik dövrü quruculuq, yenidənqurma illəri kimi yadda qaldı. Ulu Öndər, Azərbaycan xalqının böyük oğlu Heydər Əliyevin siyasətini uğurla davam etdirən cənab Prezidentin siyasi hakimiyyəti dövründə Azərbaycan dövlətçiliyinin əsasları ciddi şəkildə möhkəmləndi, ölkənin siyasi gücü-qüdrəti və iqtisadiyyatı daha da artdı, beynəlxalq müstəvidə mövqeyi, nüfuzu xeyli gücləndi. 2018-ci il seçkilərində qazandığı parlaq qələbə isə xalqın öz liderinə olan sonsuz məhəbbəti, inamı və gələcəyinə etibarı idi. 2003-2018-ci illərdə Prezident İlham Əliyev ölkəmizin hərtərəfli inkişafına nail olmuş, onun siyası və iqtisadi nüfuzunun artması və regionda gücə çevrilməsini təmin etmişdi. "Ancaq iqtisadiyyatı güclü olan ölkələr müstəqil siyasət apara bilərlər" fikrini səsləndirən Prezident İlham Əliyev bu illər ərzində davamlı olaraq iqtisadiyyat sahəsində islahatların təşəbbüskarı kimi çıxış etmişdi.

2003-2018-ci illər tariximizə möhtəşəm iqtisadi yüksəliş dövrü kimi daxil olmuşdur. Bu dövrdə ümumi daxili məhsul 3.2 dəfə, büdcə gəlirləri 13.5 dəfə, ölkənin strateji valyuta ehtiyatları 26.6 dəfə, xarici ticarət dövriyyəsi 4.6 dəfə, ixracın həcmi 6 dəfə artmışdır. İşsizliyin səviyyəsi 9.2 faizdən 5 faizə, yoxsulluğun səviyyəsi 44.7 faizdən 5.4 faizə enmişdir. Bütün bunların nəticəsi olaraq 2003-2018-ci illərdə Azərbaycan qlobal rəqabətlilik indeksində dünyadakı mövqeyini xeyli gücləndirmişdir. 2003-2018-ci illərdə iqtisadiyyatın neft-qaz sektoru əsaslı şəkildə inkişaf etmiş, ölkəmiz elektrik enerjisini idxal edən ölkədən ixrac edən ölkəyə çevrilmişdir. Həmçinin kənd təsərrüfatının inkişafı istiqamətində aparılan planlı işlər öz səmərəsini vermiş, ərzaq təhlükəsizliyinin təmin olunmasında mühüm nailiyyətlər qazanılmışdır. Bu istiqamətdə böyük meliorasiya tədbirləri görülmüş, dörd böyük su anbarı tikilərək istifadəyə verilmişdir. Bir sıra beynəlxalq təşkilatlar kənd təsərrüfatı sahəsində Azərbaycanın son illərdə apardığı səmərəli islahatları təqdir edib. Dünya Bankı hesab edir ki, Azərbaycanın ərzaq təhlükəsizliyinin möhkəmləndirilməsi məqsədilə atdığı addımlar və kənd təsərrüfatı istehsalçılarına göstərilən dövlət dəstəyi məhsuldarlığın artırılmasını hədəfləyir ki, bu da həm istehlakçı, həm də istehsalçı üçün faydalıdır.

İqtisadiyyatı güclənməklə yanaşı, müstəqil Azərbaycanın beynəlxalq aləmdə siyasi mövqeləri də möhkəmləndi. 2003-2018-ci illərdə Prezident İlham Əliyevin rəhbərliyi altında həyata keçirilən xarici siyasət və uğurlu diplomatik gedişlər, Azərbaycanın BMT, Avropa Şurası, ATƏT, NATO və digər bu kimi nüfuzlu qurumların tribunasından səsləndirdiyi qətiyyətli bəyanatlar və bir çox məsələdə onun rəyinə göstərilən hörmət ölkəmizin siyasi mövqeyini möhkəmləndirib. Azərbaycan beynəlxalq münasibətlər sistemində müstəqil siyasət yürüdən, etibarlı tərəfdaş, sözü və əməli bir-biri ilə eyni olan olkə kimi tanınır. Təbii ki, qazandığımız bu status məhz İlham Əliyevin müfəssəl liderlik istedadı, yüksək diplomatik qabiliyyəti və siyasi nüfuzunun vəhdəti nəticəsində əldə edilibdir.

Prezident İlham Əliyevin siyasi hakimiyyəti dövründə strateji hədəflərə nail olundu, peşəkar ordu quruculuğu müvəffəqiyyətlə həyata keçirildi, Ali Baş Komandanın rəhbərliyi altında ordu quruculuğu sahəsində mükəmməl standartların tətbiqi, genişmiqyaslı və planlı addımlar, köklü islahatlar və yenidənqurma işləri nəticəsində Silahlı Qüvvələrimiz dünyanın ən güclü orduları sırasına daxil oldu. Azərbaycan Ordusu Cənubi Qafqaz regionunda ən güclü ordu olmaqla bərabər, dünyanın 50 ən güclü ordusundan da biridir. Məhz bu ordu 2020-ci ildə Ali Baş Komandan, Prezident İlham Əliyevin rəhbərliyi altında Azərbaycan tarixinə qızıl hərflərlə zəfər səhifəsini yazdı. 44 günlük Vətən müharibəsində Azərbaycan hərbçilərinin göstərdiyi şücaət, döyüş taktikası və hərbi innovativlik bütün dünyanı özünə cəlb etdi. Hazırda məhz bu döyüşlərin taktika və texnikası dünyanın bir sıra hərbi mərkəzlərində dərindən öyrənilir.

Əminliklə söyləmək olar ki, Azərbaycan tarixinin 2003-2018-ci illəri əhatə edən dövrü milli maraqların qorunmasına xidmət edən strateji nailiyyətlər dövrüdür. Prezident İlham Əliyev xalqı milli ideya ətrafında birləşdirib azərbaycançılıq məfkurəsini daha da dərinləşdirdi. Bugünkü Azərbaycan dünyanın bütün ölkələrində yaşayan hər bir azərbaycanlının fəxr etdiyi, qürur duyduğu, arzuladığı doğma Vətənidir.

Milli-mənəvi dəyərlərimizə sıx bağlı olan, vətənpərvər gənclərimiz isə Azərbaycanın ən böyük varidatıdır, bugünü və gələcəyidir. Prezident İlham Əliyevin Azərbaycan xalqı qarşısında ən böyük xidmətlərindən biri milli ruhda tərbiyə alan parlaq gəncliyimizin yetişdirilməsidir. Onların təlim-tərbiyəsinə, təhsilinə, müasir inkişafına göstərilən diqqət və qayğının nəticəsində yetişən sağlam düşüncəli gənclər etibarlı gələcəyimizi təmin etməyə qadirdilər. Çiçəklənən, məsud, güclü Azərbaycan Prezident İlham Əliyevin amalıdır. Tarix yazan və yaradan ŞƏXSİYYƏT tarixin qızıl səhifəsidir!

**Sevil MIKAYILOVA,**
***Milli Məclisin deputatı***

# Müəllifi İlham Əliyev olan yüksəliş salnaməsi



2018-ci il Azərbaycan üçün olduqca əlamətdar hadisələrlə yadda qaldı. Həmin ilin ən böyük hadisəsi isə cənab İlham Əliyevin prezident seçkilərindəki qələbəsidir.

4 il əvvəl, aprelin 11-də keçirilən növbədənkənar seçkilərdə İlham Əliyevin seçicilərin 86,02 faizinin dəstəyini qazanması və növbəti müddətə prezident seçilməsi Azərbaycan cəmiyyətinin öz rəhbərinə və ölkədə həyata keçirilən siyasi kursa sarsılmaz inam və rəğbətinin təsdiqi oldu.

Xalq növbədənkənar seçkilərdə cənab İlham Əliyevə etimad göstərməklə inkişafa və Azərbaycanı qüdrətli dövlətə çevirən siyasətə səs verdi. Bu qələbənin kökündə Prezident İlham Əliyevin 2003-2018-ci illərdəki fəaliyyəti, Azərbaycanda həyata keçirdiyi genişmiqyaslı layihələr, ölkəmizin iqtisadiyyatında, sosial həyatında və digər sahələrdə qazanılan əzəmətli uğurlar dayandı. Xalqımız bütün bunları əsas tutaraq İlham Əliyev siyasətinin yenilməzliyinə və alternativinin olmadığına dərindən inandığını ortaya qoydu. Azərbaycan vətəndaşlarının bu seçimi həm də ölkəmizin inkişafına yönəlmiş bir ümumxalq qərarı idi.

İlham Əliyevə verilən hər bir səs eyni zamanda Heydər Əliyevin siyasi kursuna xalqın etimadını təcəssüm etdirdi. Xalqımız cənab İlham Əliyevin ətrafında sıx birləşməklə həm də Heydər Əliyev ideyalarının davamına səs verdi. Bu baxımdan İlham Əliyevin qələbəsi Heydər Əliyevin dövlətçilik xəttinə sadiq olan milyonların qələbəsi kimi tarixə düşdü.

2018-ci il aprel ayının 18-də Milli Məclisdə keçirilən andiçmə mərasimində möhtərəm İlham Əliyevin nitqini qürur hissi ilə dinlədim. Növbəti müddətə Prezident seçilən İlham Əliyev əvvəlki dövrdə inkişaf yoluna çıxardığı Azərbaycanın iftixar doğuran yüksəlişinin icmalını verdi və qarşıdakı 7 ildə respublikamızın hədəflərini diqqətə çatdırdı, inkişafının yeni prioritetlərini elan etdi. Bir daha İlham Əliyev kimi liderimizin olması ilə fəxr etdik, qürur duyduq. "Azərbaycanı daha da qüdrətli ölkəyə çevirəcəyik. Hər bir sahə üzrə bizim konkret proqramlarımız, planlarımız var. Həm beynəlxalq məsələlərlə, həm bölgələrimizin möhkəmləndirilməsi, siyasi-iqtisadi islahatların dərinləşməsi, sosial siyasət, ordu quruculuğu ilə bağlı bizim konkret proqramlarımız var. Güclü siyasi iradə, böyük maliyyə resurslarımız var. Biz bu maliyyə resurslarını öz əlimizlə yaratmışıq və biz indi öz hesabımıza yaşayırıq. Xalq-iqtidar birliyi var. Ona görə mən əminəm ki, bütün Azərbaycan xalqı və biz hamımız gələcəyə çox böyük nikbinliklə baxırıq. Hamımızın amalı ondan ibarətdir ki, ölkəmiz daha da güclənsin, daha da qüdrətli dövlətə çevrilsin, Azərbaycan vətəndaşları daha da yaxşı yaşasınlar" deyən İlham Əliyevin elan etdiyi prioritetlərin hamısı son 4 ildə uğurla həyata keçib. Təsadüfi deyil ki, ötən 4 ildə Azərbaycan bir dövlət kimi uğurlarının kifayət qədər çoxşaxəli və mötəbər olması ilə diqqət çəkir. Bu dövrdə yerləşdiyi region ətrafında cərəyan edən ziddiyyətli proseslər şəraitində ölkəmiz daxili sabitliyini daha da möhkəmləndirməklə, iqtisadiyyatını artım dinamikasına kökləməklə, irimiqyaslı layihələr həyata keçirməklə inkişafa və beynəlxalq səviyyədəki nüfuzunu yüksəltməyə müvəffəq olub.

Prezident seçkilərinin keçirildiyi 2018-ci il Azərbaycanın iqtisadi inkişafına və beynəlxalq nüfuzunun artmasına xidmət edən layihələrin icrasının başa çatması ilə əlamətdar oldu. "Cənub qaz dəhlizi" istifadəyə verildi, üçüncü peykimiz kosmosa uçdu. Türkiyədə "Star" zavodunun və "Cənub qaz dəhlizi"nin 4 seqmentindən biri olan TANAP-ın məhz həmin il istifadəyə verilməsi cənab Prezident İlham Əliyevin həyata keçirdiyi yüksəliş siyasətinin möhtəşəm uğurları kimi tarixə düşdü. Bütün bunlar onu göstərdi ki, Prezident İlham Əliyev Azərbaycanın qüdrətli dövlətə çevrilməsi istiqamətində elan etdiyi prioritetləri inamla reallaşdırır. Azərbaycanın müasir hərb tarixinin şərəfli səhifələrindən olan Günnüt əməliyyatı da 2018-ci ilə təsadüf etdi.

Prezident seçkilərindən qısa müddət sonra İlham Əliyevin elan etdiyi prioritetlərə uyğun olaraq Azərbaycan cəmiyyəti genişmiqyaslı islahatlara da şahidlik etdi. Bu islahatların əsas hədəfləri Azərbaycanı müasir, inkişaf edən və gələcəkdə inkişaf etmiş ölkəyə çevirmək, vətəndaşları narahat edən problemləri tamamilə gündəlikdən çıxarmaq, insanların rifah halını daha da yaxşılaşdırmaq idi. İstər sosial, istər iqtisadi islahatlar olduqca mütərəqqi məzmun daşımaqla cəmiyyətimizə yüksək ovqat və əhvali-ruhiyyə bəxş etdi. Bu islahatlar məzmununa görə məqsədyönlü olmaqla konkret hədəfə doğru hesablandı və kompleks xarakter daşıdı. Bütövlükdə ötən illərin reallıqları göstərir ki, ölkəmiz bu hədəflərə doğru sürətlə və inamla irəliləyir. Bütün bu islahatların nəticəsində Azərbaycan öz inkişafının yeni dövrünə qədəm qoyub.

Milli Məclisdə keçirilən andiçmə mərasimində Prezident İlham Əliyev demişdi: "Ermənistan-Azərbaycan Dağlıq Qarabağ münaqişəsi yalnız və yalnız ölkəmizin ərazi bütövlüyü çərçivəsində öz həllini tapmalıdır. Bunun başqa yolu yoxdur. Azərbaycan heç vaxt imkan verməz ki, bizim ərazimizdə ikinci qondarma erməni dövləti yaradılsın". Bəli, 2020-ci ilin 44 günlük Vətən müharibəsində qazanılan qələbə İlham Əliyevin nə qədər müdrik, uzaqgörən rəhbər, əsl lider olduğunu bir daha təsdiq etdi. Çünki artıq keçmişdə qalmış Dağlıq Qarabağ münaqişəsi məhz Prezident, Müzəffər Ali Baş Komandan İlham Əliyevin dediyi kimi öz həllini tapdı, Azərbaycan dövləti öz ərazilərində ikinci qondarma erməni dövlətinin yaradılmasına imkan vermədi.

Xalqımız dərindən inanırdı ki, İlham Əliyevin yürütdüyü qətiyyətli, hər addımda milli maraqlarımızı layiqincə qoruyan, Azərbaycanı tarixinin ən güclü dövlətinə çevirən siyasi kursu mütləq torpaqlarımızın işğaldan azad olunmasını da təmin edəcək. Möhtərəm Prezidentin yürütdüyü siyasət torpaqlarımızın işğaldan azad ediləcəyi günü sürətlə yetişdirdi və 44 günlük müharibədə tarixi zəfəri təmin etdi. Ona görə İlham Əliyevin ötən 4 illik fəaliyyətinin möhtəşəm uğurları sırasında Vətən müharibəsindəki qələbənin xüsusi yeri var.

Bütövlükdə ötən 4 il Azərbaycanın müstəqillik tarixinin həm inkişaf, həm də qələbə ilə əhatə olunan möhtəşəm yüksəliş mərhələsidir. Bu inkişafın və zəfərin müəllifi isə Prezident İlham Əliyevdir.

**Novruzəli ASLANOV,**
***Milli Məclisin deputatı,***
***Azərbaycan Qızıl Aypara Cəmiyyətinin prezidenti***

# Azərbaycana yüksəliş bəxş edən siyasət

Azərbaycan xalqının Ulu Öndər Heydər Əliyev ideyalarının ən layiqli davamçısı olan cənab İlham Əliyevə dərin etimadının növbəti təsdiqi kimi tarixə düşən sonuncu prezident seçkilərindən 4 il ötür.

2018-ci il aprelin 11-də keçirilən növbədənkənar seçkilərdə İlham Əliyevin növbəti 7 il müddətinə prezident seçilməsi xalqımızın, Azərbaycanın yüksəlişini, aydın sabahını və tərəqqisini düşünən hər bir vətəndaşımızın qələbəsi oldu.

Bu seçkilərin nəticələri bir daha Azərbaycan xalqının iradəsini əks etdirdi. Seçicilər İlham Əliyevin timsalında Azərbaycanın uğurlarının davamlı olmasına, etibarlı gələcəyinə səs verdilər. Namizədliyi Yeni Azərbaycan Partiyası tərəfindən irəli sürülən İlham Əliyevin 86,02 faizlik qələbəsi isə onun yalnız partiyamızın çoxminli üzvlərinin deyil, bütün xalqın dəstəklədiyi alternativsiz lider olduğunu göstərdi.

Növbədənkənar seçkilərdə xalqın seçimini Prezident İlham Əliyevin xeyrinə müəyyən etmiş amillər olduqca əhatəlidir. Bu sırada cənab İlham Əliyevin prezidentliyi dövründə ölkəmizin böyük inkişaf yolu keçməsini, Azərbaycan dövlətçiliyinin əsaslarının ciddi şəkildə möhkəmlənməsini, onun güclənməsini, qüdrətinin və iqtisadiyyatının daha da artmasını xüsusi qeyd etməliyik. Təsadüfi deyil ki, 2018-ci ilin prezident seçkilərinə qədər İlham Əliyevin 15 illik fəaliyyətinə nəzər saldıqda olduqca çoxşaxəli inkişaf nümunələrinin şahidi oluruq. 2003-2018-ci illərdə Azərbaycan iqtisadiyyatının 3,2 dəfə artması, ölkə üzrə 3100-dən çox məktəbin, 640-dan artıq tibb müəssisəsinin, 40-dan çox olimpiya idman kompleksinin tikilməsi kimi möhtəşəm quruculuq işləri, Bakı-Tbilisi-Qars dəmir yolunun, "Cənub qaz dəhlizi"nin inşa olunması İlham Əliyevin rəhbərliyi ilə keçilən inkişaf yolunun qürurdoğuran nümunələrinin yalnız bir qismidir. Artan maliyyə vəsaitləri Azərbaycanın öz təhlükəsizliyini daha etibarlı və güclü formalaşdırmağa imkan verdi, Ermənistanla müharibə şəraitində ölkəmizin hərbi üstünlüyü tam təmin olundu. Dövlət başçısının müdrik diplomatiyası və xarici siyasət kursu milli maraqlarımızı layiqincə təmin etdi, Azərbaycanın regional və beynəlxalq müstəvidə nüfuzunun əhəmiyyətli şəkildə yüksəlməsinə gətirib çıxardı. Ötən illər ərzində Azərbaycan xalqı respublikamızın BMT Təhlükəsizlik Şurasına üzv seçilməsinə, kosmik klubun üzvünə və beynəlxalq tədbirlərin məkanına çevrilməsinə qürurla şahidlik etdi.

2018-ci ilin prezident seçkilərində öz siyasi iradəsini nümayiş etdirən xalqımız məhz bu uğurlara istinad etdi, İlham Əliyevin müəllifi olduğu inkişafın davamlılığına səs verdi. Ötən 4 ilin mənzərəsi göstərir ki, İlham Əliyevin yürütdüyü müdrik siyasi kursun nəticəsi olaraq Azərbaycanın inkişafı davamlı, sürətli və sistemlidir. Eyni zamanda ötən 4 il dövlətçiliyimizin əsaslarının daha da möhkəmlənməsini təmin edən, Azərbaycanın qlobal nüfuzunu yüksəldən hadisələrlə zəngindir. Bu dövrdə uğurla reallaşan sosial islahatlar nəticəsində vətəndaşların rifahı əhəmiyyətli dərəcədə yüksəldi. İqtisadi islahatlar nəticəsində iqtisadi inkişafa yeni nəfəs verildi. O cümlədən idarəetmədə, məhkəmə-hüquq sistemində həyata keçirilən islahatlar köklü yeniliklərə səbəb oldu.

Ötən 4 il Naxçıvan Muxtar Respublikasının da həyatında əlamətdar hadisələrlə zəngindir. Fərəh hissi ilə bildirmək istəyirəm ki, sonuncu prezident seçkilərindən ötən dövrdə möhtərəm İlham Əliyev iki dəfə - 2018-ci və 2021-ci ilin may aylarında Naxçıvan Muxtar Respublikasına səfər edib. Dövlət başçısının bu səfərlərinin hər biri muxtar respublikanın sosial-iqtisadi və mədəni həyatında dərin iz buraxıb, inkişaf proseslərinə böyük təkan verib. Bu baxımdan ötən 4 il Naxçıvanda sosial-iqtisadi inkişafda mühüm mərhələ kimi səciyyələndirilir. Elə son iki ilin makroiqtisadi göstəricilərinə qısa nəzər yetirməklə bunu görmək mümkündür: 2021-ci ildə inkişafı xarakterizə edən əsas göstərici kimi ümumi daxili məhsul istehsalı 3 milyard 16 milyon 315 min manat olmuşdur ki, bu da bir il öncəki göstəricidən 2,4 faiz çoxdur. Hər bir nəfərə düşən ümumi daxili məhsul isə əvvəlki ilə nisbətən 3,4 faiz artaraq 6525 manat olmuşdur. 2021-ci ildə muxtar respublikada 1 milyard 69 milyon 655 min 700 manat dəyərində sənaye məhsulu istehsal olunmuşdur ki, bu da bir il öncəki göstəricini 1,7 faiz üstələmişdir. Bütün bunlar muxtar respublikada iqtisadi və sosial inkişafın davamlı olduğunu göstərir.

Ötən 4 ildə tək Naxçıvanın deyil, bütün Azərbaycanın tarixinə həkk olunan əlamətdar hadisələrdən biri Günnüt əməliyyatıdır. 2018-ci ildə Günnüt əməliyyatı zamanı 11 min hektar ərazi düşməndən azad edildi. Əlahiddə Ümumqoşun Ordunun əks-həmlə əməliyyatı nəticəsində Günnüt kəndi, "Ağbulaq" yüksəkliyi, Qızılqaya dağı, Qaraqaya dağı və yüksəklikləri Azərbaycan Ordusunun nəzarətinə keçdi. Ali Baş Komandan İlham Əliyev hələ o zaman Günnüt zəfəri ilə göstərmişdi ki, torpaqlarımızın işğaldan azad ediləcəyi gün lap yaxındadır. Günnüt əməliyyatından cəmi 2 il yarım sonra Prezident İlham Əliyev xalqımıza daha möhtəşəm zəfər sevinci yaşatdı, 44 günlük Vətən müharibəsində torpaqlarımız işğaldan azad olundu. Bu zəfər cənab İlham Əliyevin yeni müddətə prezidentliyinin tariximizə qızıl hərflərlə həkk olunan salnaməsinə çevrildi.

Vətən müharibəsində qələbə qazanan, pandemiyanın çətinliklərini inamla dəf edən Azərbaycan indi inkişafının yeni mərhələsinə qədəm qoyub. Azərbaycana yüksəliş bəxş edən bu siyasət qarşıdakı illərdə də layiqincə davam etdiriləcək, ölkəmiz Prezident İlham Əliyevin rəhbərliyi ilə inkişaf kursunu daha da sürətləndirəcək, dünya birliyindəki layiqli yerini daha da möhkəmləndirəcək.

**Cəbi QULİYEV,**
***Milli Məclisin deputatı***

# Müdrik seçim

Seçkilər hər bir dövlətin və xalqın demokratik dəyərlərə sadiqliyinin əsas göstəricilərindən biridir. Keçirilməsinin 4-cü ili tamam olan son prezident seçkiləri də Azərbaycanın demokratik inkişafının təcəssümü idi.

Bu seçki bütün cəhətləri ilə respublikamızın müasir tarixinə azad və ədalətli seçkilər kimi həkk olundu. Müdrik xalqımız növbəti dəfə doğru seçimini edərək bu seçkidə ölkəmizə uğurlar və inkişaf bəxş etmiş möhtərəm İlham Əliyevi dəstəklədi.

Prezident İlham Əliyev 2018-ci il fevralın 5-də imzaladığı müvafiq sərəncamla növbədənkənar prezident seçkilərinin keçirilməsini elan etdi. Yeni Azərbaycan Partiyasının fevralın 8-də keçirilən VI qurultayında isə seçkilərdə iştirak etmək üçün cənab İlham Əliyevin prezidentliyə namizədliyinin irəli sürülməsi yalnız YAP-ın yüz minlərlə üzvünün və təəssübkeşlərinin deyil, Azərbaycan xalqının mütləq əksəriyyətinin arzusunun təcəssümüydü. Bunu seçki kampaniyası dövründə cəmiyyətin reaksiyası da təsdiq edirdi və görünən o idi ki, seçicilər İlham Əliyevin növbəti müddətə prezident seçilməsini arzu edirlər. Bu da təsadüfi deyildi. Çünki qısa müddətdə Azərbaycanın keçdiyi dinamik inkişaf yolu, əldə etdiyi tarixi nailiyyətlər məhz İlham Əliyevin ölkəmizə uğurlu rəhbərliyinin nəticəsi idi. Əlbəttə, seçicilər də bunu görür və dəyərləndirirdilər. Məhz İlham Əliyevin təşəbbüsləri ilə həyata keçirilən iqtisadi islahatlar, ölkəmizin kosmik kluba daxil olması, enerji layihələrinin işə düşməsi Azərbaycanın tarixində buna qədər görünməmiş inkişafı reallığa çevirmiş, respublikamızı Cənubi Qafqazın lider dövləti, dünyada söz sahibi olan dövlət etmişdi.

Bütün bunları əsas tutaraq 2018-ci il aprelin 11-də keçirilən növbədənkənar prezident seçkilərində xalqımız növbəti dəfə ən layiqli namizəd olan İlham Əliyevin ətrafında səfərbər oldu. Səsvermənin yekunu növbəti dəfə təsdiq etdi ki, Azərbaycan cəmiyyəti Ulu Öndər Heydər Əliyevin müəyyən etdiyi və cənab İlham Əliyevin layiqincə davam etdirdiyi siyasi kursa heç bir alternativ görmür. Bu seçki göstərdi ki, xalq mövcud siyasi kursu Azərbaycanın yüksəlişinin və aydın gələcəyinin yeganə yolu kimi qəbul edir.

Cənab İlham Əliyevin növbəti müddətə prezidentlik fəaliyyətinin 4 ili tamam olur. 4 il böyük zaman kəsiyi deyil. Lakin dönüb geriyə baxanda bu 4 ildə Azərbaycanın müasir tarixinə nə qədər möhtəşəm uğurların yazıldığını görə bilərik. Öncə onu qeyd edim ki, ötən 4 il bütün qlobal miqyasda iqtisadi böhrandan və daha sonra koronavirus pandemiyasından irəli gələn gərgin dövr kimi xarakterizə olunur. Lakin indiyədək bütün çətinliklərdən müvəffəqiyyətlə çıxan respublikamız dünyada yaşanan maliyyə-iqtisadi böhrandan, neftin qiymətlərinin azalmasının yaratdığı gərginlikdən də inamla keçdi və ölkədə hər hansı dərin iqtisadi fəsad baş vermədi. Bunun da əsas səbəblərindən biri Prezident İlham Əliyevin vaxtında və zamanın nəbzini tutmaqla həyata keçirdiyi iqtisadi islahatlar oldu.

İlham Əliyevin sayəsində bu dövrdə pandemiyaya qarşı mübarizədə də Azərbaycan bütün dünya üçün örnək olan nümunələr yaratdı. Dövlət başçısının ilk vaxtdan problemi nəzarətdə saxlaması, koronavirusla mübarizə məqsədilə bütün imkanları səmərəli şəkildə səfərbər etməsi COVID-19-un digər ölkələrdə odduğu kimi, faciəvi nəticələrə səbəb olmasının qarşısını aldı. Azərbaycanın Cənubi Qafqazda koronavirusa qarşı peyvəndlənməni ilk həyata keçirən dövlət olması da Prezident İlham Əliyevin bu məsələdə qətiyyətli siyasətinin nəticəsidir.

Bu məsələdə hələ illər öncə səhiyyə sistemində atılan mütərəqqi addımlar, yeni səhiyyə ocaqlarının inşası, xəstəxanaların maddi-texniki təchizatının gücləndirilməsi də böyük rol oynadı. Təsadüfi deyil ki, bir müddət əvvələ qədər ölkə üzrə koronavirusla mübarizə üçün xüsusi olaraq ayrılmış xəstəxanalardan 40-ı Prezident İlham Əliyevin 2003-cü ildə respublikamıza rəhbərliyə başlamasından sonra inşa edilib.

İlham Əliyevin növbəti müddətə Azərbaycana prezidentliyinin ötən 4 ilinin ən böyük hadisəsi isə torpaqlarımızın işğaldan azad olunmasıdır. 30 ilə yaxın işğal altında qalan ərazilərimiz məhz İlham Əliyevin müdrik rəhbərliyi və qətiyyəti ilə düşmən tapdağından xilas oldu. Lakin bu hadisə yalnız ötən 4 ilin deyil, həm də müstəqillik, o cümlədən son 200 illik tariximizin ən möhtəşəm hadisəsidir. Bu baxımdan İlham Əliyev Azərbaycan tarixinə hərbi zəfər bəxş etmiş, bizləri isə qalib xalqa çevirmiş böyük şəxsiyyətdir.

Hazırda işğaldan azad edilmiş ərazilərimizdə bərpa və quruculuq işləri gedir. Azərbaycan İran ərazisindən keçməklə Şərqi Zəngəzuru Naxçıvanla birləşdirən yeni layihəni reallaşdırır. Ölkəmiz qlobal enerji məsələlərində öz aparıcı mövqeyini daha da möhkəmləndirir. Pandemiyanın gərginliyini geridə qoyan respublikamız yeni iqtisadi və sosial nailiyyətlər əldə edir. Bu mənada cənab İlham Əliyevin ölkəmizə rəhbərliyinin qarşıdan gələn dövrü daha möhtəşəm uğurlarla əlamətdar olacaqdır.

**Müşfiq MƏMMƏDLİ,**
***Milli Məclisin deputatı***

# Uğurlarımızın müəllifi

Ulu Öndər Heydər Əliyevin anadan olmasının 95 illiyinin, Azərbaycan Xalq Cümhuriyyətinin yaradılmasının və Bakının işğaldan azad olunmasının 100-cü ildönümünün böyük təntənə ilə qeyd edildiyi 2018-ci il mühüm bir siyasi hadisə ilə də yadda qaldı.

Həmin il aprelin 11-də keçirilən növbədənkənar prezident seçkilərində ölkə vətəndaşları ən doğru seçimlərini edərək, öz səslərini prezident postuna ən layiqli namizəd olan cənab İlham Əliyevə verdilər.

Bu seçkidə 86,02 faiz səs toplayan cənab İlham Əliyev bir daha xalqın etimadını qazandı. Növbədənkənar seçkilər xalqın Heydər Əliyev yoluna sədaqətini, bu xəttin layiqli davamçısı İlham Əliyevə dərin etimadını bir daha təsdiq etdi. Xalq İlham Əliyevin timsalında ən layiqli namizədi dəstəkləməklə Ulu Öndər Heydər Əliyevin ideyalarının davam etdirilməsinə səs verdi, gələcəyini tarixin sınaqlarından çıxan siyasi kursa əmanət etdi.

Əlbəttə ki, bu qələbənin kökündə ilk növbədə Prezident İlham Əliyevin 2003-cü ildən sonra Azərbaycanın inkişafı, xalqımızın rifahı, dövlətçiliyimizin və müstəqilliyimizin möhkəmləndirilməsi istiqamətində əzmkar fəaliyyəti dayanırdı. Respublikamızda gedən siyasi, sosial-iqtisadi prosesləri müdrikcəsinə qiymətləndirən xalqımız növbəti dəfə prezident seçkilərində 2003-cü ildən sonra Azərbaycandakı sürətli inkişafı, regionların yüksəlişini, respublikamızın dünyadakı nüfuzunun artmasını təmin edən siyasətə səs verdi.

Cənab İlham Əliyevin növbəti müddətə prezidentliyinin ötən 4 ili isə ölkə həyatı üçün strateji əhəmiyyət kəsb edən inkişaf proqramlarının sürətlə və işlək mexanizmlər əsasında həyata keçirilməsi, bir neçə il əvvəl baş qaldırmış qlobal iqtisadi böhrandan Azərbaycanın alnıaçıq çıxması, bütün sahələrdə tərəqqinin yenidən vüsət alması ilə səciyyəvidir. Prezident İlham Əliyev növbədənkənar seçkilərdə ona göstərilən böyük etimada görə 2018-ci il aprelin 11-də xalqımıza müraciətində və andiçmə mərasimindəki çıxışı zamanı Azərbaycanın perspektiv inkişafı ilə bağlı qarşıda duran vəzifə və məqsədləri açıqlamış, yeni islahatların həyata keçiriləcəyini bəyan etmişdi. Dövlət başçısının elan etdiyi bütün istiqamətlər üzrə islahatlar ötən 4 ildə uğurla reallaşdı. İqtisadi, sosial, struktur, idarəetmənin təkmilləşdirilməsi, məhkəmə və digər sahələrdə həyata keçirilən islahatlar Azərbaycanın inkişafına, cəmiyyətimizin firavanlığına, insanların rifahına xidmət etdi.

Son iki il həm də bütün dünyada qlobal problem olan koronavirusla mübarizə dövrüdür. İnsan amilini dövlət siyasətinin prioriteti elan edən Prezident İlham Əliyev koronavirusun respublikamızda qeydə alındığı ilk gündən əhalinin sağlamlığının təmin olunması üçün mühüm qərarlar qəbul etdi. Dövlət başçısı İlham Əliyev və Birinci vitse-prezident Mehriban xanım Əliyeva ilk gündən koronavirusla mübarizənin effektiv şəkildə həyata keçirilməsi, görülən tədbirlərin səmərəli olması üçün qətiyyət göstərdilər, pandemiyanın ciddi fəsadlara səbəb olmaması üçün böyük iradə nümayiş etdirdilər. Bu mənada Prezident İlham Əliyevin növbəti mərhələ üçün respublikamıza rəhbərliyinin son iki ili həm də pandemiyaya qarşı uğurlu mübarizə dövrü kimi əlamətdardır. Son günlərin statistikası da göstərir ki, Azərbaycan tədricən COVID-19 pandemiyasına qalib gəlir.

Prezident İlham Əliyevin böyük uğurlar və əlamətdar hadisələrlə zəngin ötən son 4 illik fəaliyyətinin zirvəsi isə sözsüz ki, torpaqlarımızın işğaldan azad olunmasıdır. 2020-ci ilin 44 günlük Vətən müharibəsində xalqımız bir daha öz rəhbərinin qətiyyətinə, əzmkarlığına, vətən sevgisinə şahidlik etdi. Ali Baş Komandan İlham Əliyevin rəhbərliyi ilə Azərbaycan Ordusu 44 günlük savaşda "dəmir yumruqla" ədaləti təmin etdi. Tarixini bu möhtəşəm qələbə ilə şərəfləndirən Azərbaycan xalqı bütün dünyaya öz gücünü, haqqı uğrunda mübarizə aparmaq əzmini nümayiş etdirdi. Ermənistanın 30 illik işğalına son qoyuldu.

Bu qələbənin memarı Prezident İlham Əliyevdir. Eyni zamanda indi Qarabağ və Şərqi Zəngəzurda aparılan bərpa və yenidənqurma işlərinin də baş müəllifi Müzəffər Ali Baş Komandandır. Bu baxımdan dövlət başçımızın hazırkı prezidentlik dövrünün işğaldan azad edilmiş ərazilərimizin bərpası istiqamətində mühüm mərhələ olacağı şübhəsizdir. Beləliklə, qarşıda bizi yeni uğurlar gözləyir və bu yolda xalqımız hər zaman öz rəhbərinin ətrafında sıx səfərbər olacaq.

**Könül NURULLAYEVA,**
***Milli Məclisin deputatı***

# Müxalifət partiyaları Azərbaycan Prezidentinin

# Böyük zəfər, qüdrətli dövlət, güclü

**11 aprel 2018-ci ildə İlham Əliyevin prezident seçilməsindən dörd il ötür. Ötən müddətdə ölkədə baş verən proseslərə nəzər yetirsək görərik ki, bu müddətdə Azərbaycanın iqtisadi-siyasi həyatında çox əhəmiyyətli dəyişikliklər baş verdi.**

**Dünyanı bürüyən qlobal pandemiya ilə mübarizə fonunda 44 günlük Vətən müharibəsində şanlı zəfər qazanılıb. Bu dövrdə ölkənin iqtisadi inkişafı ilə yanaşı, iqtidar-müxalifət münasibətlərində sağlam mühitin formalaşması, Vətən müharibəsi zamanı müxalifət liderlərinin də bir yumruq kimi birləşərək Prezidentə dəstək verməsi ölkəmizdə sağlam mühitin yarandığının sübutu idi.**

**Müxalif partiyaların sədrləri ilə söhbətimiz də bu barədədir.**



## İlham Əliyev həm daxili, həm də xarici siyasətdə yeni münasibətlər sistemi yaradıb

**Asim MOLLAZADƏ,**
*Demokratik İslahatlar Partiyasının sədri,*
*Milli Məclisin deputatı:*

- Azərbaycanın dünyada etibarlı tərəfdaş kimi qəbul edilməsi İlham Əliyevin çəkdiyi zəhmətin nəticəsidir. İlham Əliyevin prezident seçilməsindən ötən 4 il ərzində Azərbaycan dünya tərəfindən çox etibarlı tərəfdaş kimi qəbul edilib, onun nüfuzu dəfələrlə artıb. 2018-ci il prezident seçkilərindən sonra ölkədə ciddi islahatlar prosesinə start verilib, idarəetmə sistemində nəsil dəyişikliyi başlayıb, müasir təfəkkürlü insanlar bu işə cəlb edilib. İdarəetmədə yeniliklərlə yanaşı, sosial istiqamətdə də uğurlu addımlar atılıb. İqtisadiyyatda, xüsusən vergi siyasətində çox ciddi struktur dəyişiklikləri həyata keçirilib. Prezident kadr siyasətində partiya faktoruna yox, peşəkarlığa üstünlük verərək cəsarətlə sistemin siyasi islahatlarını həyata keçirib. İqtidarla müxalifətin effektiv dialoqu qurulub. Bu dialoq 44 günlük müharibənin gedişində xalqın müxtəlif siyasi təbəqələri arasında birliyin yaranması istiqamətində mühüm addım oldu. Effektiv idarəetmə sisteminin qurulması üçün mühüm işlər görüldü, müvafiq yol xəritələri hazırlandı. Bunlara paralel olaraq qeyri-neft sektoru inkişaf etdirildi.

Azərbaycan iqtisadiyyatın şaxələndirilməsi, neft və qaz sahəsindən asılılığın azaldılması istiqamətində fəal çalışır. İlham Əliyev o liderlərdəndir ki, böhranlı vəziyyətlərdə operativ və effektiv qərarlar qəbul etməyi bacarır. Dünya liderləri ilə normal ünsiyyət bacarığı və əməkdaşlıq qabiliyyəti var. Bir zamanlar onu şiddətli tənqid hədəfinə çevirən dünya mediası istər 44 günlük müharibə dövründə, istərsə də ondan sonra İlham Əliyevə münasibətlərini yaxşı mənada dəyişiblər, çünki o, dünyanın aparıcı KİV-nə verdiyi müsahibələri, səmimi və məntiqli fikirləri, ölkəsinin maraqlarını ləyaqətlə təmsil etməsi ilə onların rəğbətini qazanıb.

Azərbaycan bir çox mühüm beynəlxalq tədbirə, idman yarışlarına evsahibliyi etməklə ölkəmizi yaxşı yöndən dünyaya tanıdıb. Bu addımlar ölkənin turizm, iqtisadi, mədəni potensialını dünyaya açıb, həmçinin investisiya imkanlarını nümayiş etdirib.

İlham Əliyevin siyasəti həm də Azərbaycanın dünyaya açılan mədəni bir pəncərə olduğunu göstərdi. Azərbaycanda təşkil edilən müxtəlif beynəlxalq festivallar, dünya şöhrətli ediblərimizin yubiley mərasimləri, onlara həsr olunan elmi, mədəni və kütləvi tədbirlərin keçirildiyi illər (“Nəsimi ili”, “Nizami ili” və s.) ölkəmizi həm də Şərq musiqisinin, mədəniyyət və incəsənətinin, poeziyasının, ədəbiyyatının beşiyi kimi tanıtdı. İndi dünya Azərbaycanı həm də müsəlman şərqində bir çox ilklərə imza atmış, multikultural dəyərlərə üstünlük verən, çəkinmədən sivilizasiyalararası dialoqa evsahibliyi edən ölkə kimi tanıyır. Bizim mədəni irs nümunələrimiz UNESCO səviyyəsində tanınır və qorunur.

İlham Əliyev çoxsaylı uğurlarına görə tarix kitablarına adını yazdırıb. Bunlardan ən şərəflisi və möhtəşəmi ərazilərimizin Ermənistanın işğalından azad edilməsi və Azərbaycanın ərazi bütövlüyünün təmin olunmasıdır. Ermənistanın baş naziri Nikol Paşinyanın “Qarabağ Ermənistandır, nöqtə” ifadəsinə İlham Əliyev son dərəcə populyar olan “Qarabağ Azərbaycandır və nida işarəsi” sözləri ilə cavab verdi. Hər şey də elə bundan başladı. Onun məhz “Qarabağ Azərbaycandır!” ifadəsi ərazilərimizin işğaldan azad edilməsinə və bizi qalib millətə çevirməyə vəsilə oldu.

Prezident yenidən formalaşdırılan parlamentin ilk iclasında yeni siyasi islahatlarla bağlı anons vermişdi. Bu, milli birliyin yaranmasına vəsilə oldu. Tədricən Silahlı Qüvvələrimiz xalqın dəstəyini hiss etdi, yeni nəsil Azərbaycan əsgəri yetişdi. Torpaqlarımızın azad edilməsi İlham Əliyevin prezidentlik dönəmində əldə etdiyi uğurların zirvəsi idi.

Bu, dünyanın, beynəlxalq təşkilatların üç onillik ərzində həll edə bilmədiyi Qarabağ probleminin cəmi 44 günün içində həll olunması idi. Bu, xalqımızın qürurunun, şərəfinin, inamının özünə qaytarılması idi. Onun liderliyi altında Azərbaycan BMT Təhlükəsizlik Şurasının 1993-cü ildə qəbul edilmiş, amma yerinə yetirilməmiş dörd qətnaməsinin tələblərinin təkbaşına həyata keçirilməsidir. ATƏT-in Minsk qrupu həmsədrlərinin 1994-cü ildən indiyə qədər həyata keçirdiyi vasitəçilik missiyası heç bir nəticə verməmişdi. Sonunda Azərbaycan Ermənistan silahlı qüvvələrinin təmas xəttində törətdiyi növbəti hərbi təxribatlara cavab olaraq cəmi 44 gün ərzində ərazilərinin 30 illik işğalına güc yolu ilə son qoydu. Bu müharibədə Azərbaycanın 2900 nəfərədək hərbçisi və yüzə qədər mülki vətəndaşı həlak oldu, lakin müzəffər Ali Baş Komandanın rəhbərliyi altında şanlı Azərbaycan Ordusu Ermənistanın işğalçı ordusu üzərində zəfər çaldı. Ermənistan rəhbərliyi ölkənin ordusunun tamamilə məhv olduğunu görərək kapitulyasiya aktına qol çəkməyə hazır olduğunu bəyan etdi. Azərbaycan öz şərəfli tarixinə daha bir möhtəşəm günü - 8 Noyabr - Zəfər Gününü əlavə etdi.

Beləliklə, İlham Əliyev beynəlxalq güclərin diqqətini illərlə görməzdən gəldikləri, bölgənin inkişafını əngəlləyən, sülh və sabitliyə təhlükə yaradan problemə cəlb etdi. O, regionda yeni reallıqlar yaratdı. Artıq hər kəs bu regionda Azərbaycanla hesablaşmağın vacib olduğunu dərk edir. Bu, məhz İlham Əliyevin vaxtında və yerində verilmiş qərarlarının, müdrik siyasətinin nəticəsidir.

Bu yaxınlarda Brüsseldə NATO-nun baş qərargahında keçirilən görüş zamanı baş katib Yens Stoltenberqin Azərbaycan, onun NATO ilə uğurlu əməkdaşlığı və regionda sülhyaratmaya verdiyi töhfələrlə bağlı fikirləri çox diqqətçəkəndir. NATO rəhbərliyi də artıq Cənubi Qafqaz regionunda aparıcı gücün məhz Azərbaycan olduğu reallığını qəbul edir.

İlham Əliyevin tutduğu mövqe bölgədə yeni münasibətlər sisteminin yaranmasına təkan verib. “3+3” (3+2) əməkdaşlıq formatı, Türk Dövlətləri Təşkilatının genişlənməsi, Qoşulmama Hərəkatına sədrlik etdiyi dövrdə həyata keçirdiyi mühüm fəaliyyətlər bunun bariz nümunəsidir.

O da diqqətdən qaçmamalıdır ki, 44 günlük Vətən müharibəsində Türkiyənin Azərbaycana verdiyi tam dəstək, ardından da Şuşa Bəyannaməsinin imzalanması iki ölkə arasında münasibətlərin ən yüksək həddə çatdığının göstəricisi idi. İki ölkənin birlikdə həyata keçirdiyi hərbi təlimlər Azərbaycan Silahlı Qüvvələrinin daha da inkişafına və güclənməsinə xidmət edir. Bu həm də bütün dünyaya mesajdır ki, Azərbaycan və Türkiyə birlikdə regionda vahid gücdür, onları təkləmək, görməzdən gəlmək mümkün deyil.

İlham Əliyevin şəhid ailələrinə, müharibə əlil və veteranlarına göstərdiyi qayğı cəmiyyət tərəfindən yüksək qiymətləndirilir. Bu, bir daha onu göstərir ki, dövlətimiz onun ərazi bütövlüyü uğrunda canından keçmiş şəhidlərin ailələrinə, müharibədə sağlamlığını itirmiş qazilərə, müharibə iştirakçılarına öz borcunu ödəməkdə israrlıdır. Dövlət öz vətəndaşına, döyüşən övladlarına, şəhidlərinin ailələrinə sahib çıxır və həmişə də çıxacaq.

İlham Əliyev dünyanı bürümüş pandemiya dövründə virusun geniş yayılmasının qarşısının alınması, xəstələrin müalicəsi üçün təcili və effektiv tədbirlərin görülməsi ilə bağlı müvafiq addımlar atıb. Ölkəyə peyvəndlər gətirilib və əhalinin 3-4 dozada peyvənd qəbul etməsi üçün hər cür şərait yaradılıb. Məhz bu effektiv siyasət sayəsində Azərbaycanda pandemiya ağır fəsadlar verməyib.

İlham Əliyevin pandemiya dövründə atdığı adekvat addımlar, imkanı olmayan ölkələrə peyvəndlərin, tibbi ləvazimatların göndərilməsi kimi humanitar aksiyalara dəstək verməsi də dünyada onun nüfuzunun artmasına gətirib çıxarıb. Azərbaycan humanitar fəlakətlə üzləşən ölkələrə dəstək verməklə, həm də humanizm nöqteyi-nəzərindən etibarlı tərəfdaş olduğunu göstərib.

Azərbaycan eyni zamanda dünyanın bir sıra bölgələrinin enerji təhlükəsizliyinin təminatı ilə bağlı həyata keçirdiyi layihələrlə də diqqət mərkəzində olub. Bu layihələr bilavasitə Avropanın, İsrailin enerji təhlükəsizliyində mühüm rol oynayıb. Son dövrlərdə Rusiya-Ukrayna münaqişəsi kontekstində Avropanın enerji təhlükəsizliyi sahəsində yaranan problemlər Azərbaycanın alternativ enerji mənbəyi kimi önəmini daha da artırıb. Eyni zamanda Azərbaycan Ukraynaya göstərdiyi humanitar dəstəklə Qərb dünyasının rəğbətini qazanıb.

Azərbaycanın həyata keçirdiyi vacib missiyalar ölkəmiz haqqında müsbət imic formalaşdırıb, dünyada ona etibarlı tərəfdaş və dost kimi inamı artırıb. Bütün bunlar birbaşa İlham Əliyevin yeritdiyi düzgün, praqmatik və uğurlu siyasətin nəticəsidir.

Hazırda dövlətin və xalqın qarşısında Böyük qayıdış, Qarabağı cənnətə çevirmək kimi bir missiya dayanır. Əminəm ki, Prezidentin bu istiqamətdə də strategiyası uğurla nəticələnəcək.

Prezidentin həm müharibə dövründə, həm də ondan sonra Azərbaycanı dünyaya daha yaxşı yöndən tanıtması xalqımıza da rəğbəti artırıb. Bunu daha da inkişaf etdirmək lazımdır. Odur ki, ölkədə hər kəs Prezidentin ətrafında birləşərək, vahid bir yumruğa çevrilərək çəkici eyni nöqtəyə vurmalı, ölkəmizi daha parlaq gələcəyə doğru ləyaqətlə aparmalıdır.

## Xalqın yaddaşında qalan ən dəyərli söz - “Əziz Şuşa, sən azadsan!”

**Fazil MUSTAFA,**
*Böyük Qurtuluş Partiyasının sədri,*
*Milli Məclisin deputatı:*

- 2018-ci ildə cənab İlham Əliyev yenidən Azərbaycan Respublikasının Prezidenti seçiləndə ən ali məqsəd olaraq Qarabağ probleminin həlli istiqamətində qəti addımların atılacağını cəmiyyətə vəd etmişdi. 2016-cı ilin Aprel döyüşlərində Azərbaycan Ordusu son 25 ildə ilk dəfə idi ki, uğur qazanmışdı və bu uğur da bir neçə yaşayış məntəqəmizin, Cocuq Mərcanlının, xüsusilə strateji əhəmiyyətə malik olan Lələtəpənin azad edilməsi idi.

Prezident İlham Əliyev ilk növbədə ordu quruculuğu məsələsini prioritet olaraq götürüb. Dövlət başçısı dördillik hakimiyyəti tamam olmamış Qarabağ məsələsini əhəmiyyətli şəkildə həll etdi və onun rəhbərliyi altında Müzəffər Azərbaycan Ordusu Azərbaycan torpaqlarını düşməndən azad etdi. Böyük Qarabağda quruculuq işlərinin həyata keçirilməsi, bilavasitə dövlət başçısının rəhbərliyi altında Şuşanın qurulması, yolların çəkilməsi, Zəfər yolunun açılması, hərbi strateji yüksəkliklərdə Azərbaycan Ordusunun qüvvələrinin yerləşdirilməsi, Ermənistanla sərhəddə - Kəlbəcər, Laçında qüvvələrimizin mövqelərinin möhkəmlənməsi, Ağdamda minatəmizləmə işlərinin çox sürətlə aparılması və Qarabağda quruculuq prosesinə start verilməsi, ən nəhayət, Zəngəzur dəhlizinin açılması istiqamətində çalışmalar, həmçinin İran üzərindən avtomobil və dəmir yolunun çəkilməsi yönündə razılığın əldə olunması - bütün bunların hamısı Qarabağ istiqamətində ölkə Prezidenti İlham Əliyevin əslində strateji kursunun nə qədər dəqiq, ardıcıl yerinə yetirildiyini göstərən çox ciddi faktlardır.

İqtisadi cəhətdən ölkənin möhkəmlənməsi istiqamətində də çox böyük addımlar atılıb. Azərbaycan Aİ-nin enerji problemlərinin həlli istiqamətində ən vacib tərəfdaşlardan birinə çevrilib. Onun sözlərinə görə, bu dövrdə Prezidentin ən böyük addımlarından biri Azərbaycanın valyuta ehtiyatlarının güclənməsi və xarici borcunun minimuma endirilməsi idi.

Ən vacib məsələlərdən biri, bəlkə də tarixə düşəcək ən mühüm məsələlərdən biri Türkiyə ilə Şuşa Bəyannaməsinin imzalanması idi.

10 noyabr 2020-ci il tarixdə imzalanmış sənəd Ermənistanın məğlubiyyətinin etirafı idi. Azərbaycan ilk dəfə Ermənistan üzərində bu dərəcə genişmiqyaslı, köklü qələbə qazanmışdı və həmin müddəalara görə, Azərbaycanın 3 rayonu döyüş olmadan bizə təhvil verilmişdi. Bu da olduqca böyük uğurlardan sayılmalıdır. Şuşa Bəyannaməsi Qars müqaviləsindən sonra Türkiyə ilə Azərbaycanı bir-birinə yaxınlaşdıran, hərbi dəstək verməyi belə əsas götürən bir sənəddir. Bu sənədin həm Azərbaycan, həm Türkiyə parlamentində təsdiq olunması onun böyük əhəmiyyətinin olduğunu göstərdi.

Azərbaycan Rusiya ilə münasibətlərini də kifayət qədər balanslı qura bilib. Rusiya ilə müttəfiqlik bəyannaməsi imzalandı və həmin sənəddə də Azərbaycanın ərazi bütövlüyü, separatçılığa qarşı mübarizə və digər məsələlər öz əksini tapdı. Rusiya ilə normal münasibətlərin qorunub saxlanılması da məhz Prezident İlham Əliyevin illər öncə əsasını qoyduğu xarici siyasət kursunun davamıdır.

İranla münasibətlərdə ciddi irəliləyişlər oldu. Artıq İran ərazisindən yolun çəkilməsi ilə bağlı uzlaşma əldə olunub. Ölkələrimiz arasında normal qonşuluq münasibətləri mövcuddur.

Ən başlıca məsələlərdən biri Azərbaycanın Avropa İttifaqı və ABŞ-la xarici siyasətdə olan əlaqələri qurmasıdır. Bu gün Rusiya-Ukrayna savaşında mükəmməl xarici siyasət kursu izlənilir. Ukrayna ilə də münasibətlərimizin çox yüksək səviyyədə davam etməsini görürük. Ukrayna Prezidenti dəfələrlə Azərbaycanın Ukrayna xalqına, dövlətinə göstərdiyi dəstəyinə görə təşəkkür edib.

İlham Əliyev ikinci dəfə - 2018-ci ildə prezident seçiləndən sonra məhkəmə, hüquq islahatlarının genişlənməsi istiqamətində mühüm sərəncamlar verib ki, bu da məhkəmə islahatlarının sürətlənməsinə səbəb olan əsas amillərdən biridir.

Pandemiyanın çətin şərtlərində Azərbaycan az itkilərlə bu prosesdən çıxa bildi. Qısa müddətdə modul tipli xəstəxanalar tikildi, səhiyyə sistemi səfərbər olunaraq insanların həyatının təhlükəyə düşməsinin qarşısını əhəmiyyətli dərəcədə aldı. Prezidentin Qoşulmama Hərəkatına sədrlik etdiyi dövrdə bu platformadan Azərbaycanın həm təbliğatı, həm də BMT platformasına daşınacaq qədər ideyaları gerçəkləşdirməsi mümkün oldu. BMT-də Azərbaycan Prezidentinin təşəbbüsləri ayrıca sənədlərdə əksini tapdı.

Prezident İlham Əliyev ötən 4 ildə bu qədər əhəmiyyətli işlər görməsi ilə qane olmur və hazırda Qarabağla bağlı, xüsusilə Ermənistanla sülh sazişinin imzalanması, sərhədlərin delimitasiyası və digər məsələlər üzərində çox ciddi işlər görür. Bu işlərin nəticəsi yəqin ki, yaxın zamanlarda özünü göstərəcək. İlham Əliyevin 2018-ci ildə prezident seçilməsi əslində Azərbaycanın yeni uğurlara imza atmasına vəsilə oldu, çünki bu prezidentliyi dönəmində 30 ildən artıq həll edilməyən problem həllini tapdı. Bu, həmin dönəmin xüsusi dəyərə sahib olduğunu göstərir. Əminəm ki, bundan sonrakı 3 ildə də ölkə Prezidenti qarşısına qoyduğu vəzifələrin və xalqa verdiyi vədlərin yerinə yetirilməsini təmin edəcək. Qarabağda artıq silah səsi eşidilməyəcək. Ermənistanla da münasibətlər normallaşacaq.

Azərbaycanın indiki durduğu nöqtə kifayət qədər önəmlidir. Ölkə Prezidentinin Türk Dövlətləri Təşkilatının fəaliyyətində, Türk birliyi modelinin yaranması məsələsində aktiv rol aldığını da diqqətə çatdırmaq lazımdır. Məhz 2018-ci ildən sonrakı dövrdə Türk birliyinin yaranması istiqamətində ən çox səy göstərən iki dövlət var idi -Türkiyə və Azərbaycan. Bu, bilavasitə İlham Əliyevin iradəsi ilə gerçəkləşdirilən ən vacib məsələlərdən biridir. İlham Əliyevin prezidentliyi dövründə ən böyük tarixi hadisələrdən biri də Bakının işğaldan azad olunmasının 100 illiyi ilə bağlı paradın keçirilməsi idi. Bu parad əslində Azərbaycanın Türkiyə ilə birlikdə koordinasiyalı şəkildə gələcəyin problemlərini həll etməsinin başlanğıc nöqtəsiydi. Fərəhlidir ki, bundan qısa müddət sonra yenidən Bakıda Zəfər paradı keçirildi. Eyni tribunadan həm Azərbaycan, həm də Türkiyə prezidentləri xalqımızı salamladı. Bundan böyük qürurverici hadisəni tapmaq olarmı?

Prezidentin 2018-ci ildən sonrakı dövrdə Azərbaycan xalqının yaddaşında qalan ən dəyərli, ən gözəl sözü “Əziz Şuşa, sən azadsan!” sözüydü. Onda Azərbaycan xalqı küçələrə axışdı, insanlar göz yaşlarını saxlaya bilmədi. Şuşanı azad görmək məhz İlham Əliyevin rəhbərlik etdiyi Azərbaycan Ordusunun qabiliyyətinin nəticəsi idi. Buna görə də bu illər Azərbaycanın çox qiymətli dövrünü əhatə edir. Bizdən sonrakı nəsillər xüsusilə İlham Əliyevin 2018-ci ildən sonrakı prezidentlik dönəminin hadisələrini öyrənməklə, tədqiq etməklə məşğul olacaqlar. İllər keçəndən sonra xalqımız bunun dəyərini daha çox görəcəkdir. Ötən dövrdə qazandığımız qələbələr tariximizin heç bir dönəmində bu ölçüdə olmamışdı. Cənab İlham Əliyevi prezident seçilməsinin 4 illiyi münasibətilə təbrik edir, ona cansağlığı arzulayıram. Əminəm ki, Azərbaycanın qüdrətli, iqtisadi cəhətdən ən yetkin və güclü dövlətlərdən biri olmasını məhz İlham Əliyev təmin edəcək.

## Son 4 ildə siyasi partiyalar dialoq mühitinə daxil olub

**Tahir KƏRİMLİ,**
*Vəhdət Partiyasının sədri,*
*Milli Məclisin deputatı:*

- İlham Əliyevin 2018-ci ildə prezident seçilməsindən ötən 4 il Azərbaycan tarixinin ən şanlı səhifələrindən biridir. Son yüzillikdə Azərbaycanın bu cür zəfər çalması, öz torpaqlarını işğaldan azad etməsi xüsusi əhəmiyyət daşıyır. Prezident İlham Əliyev təmkinli siyasətçi, böyük diplomat olmaqla yanaşı, özünü həm də böyük sərkərdə kimi göstərdi və Azərbaycan tarixinə şanlı səhifələr yazdı. Onun düzgün siyasəti nəticəsində Azərbaycan Ordusu nəinki qalib gəldi, eyni zamanda Azərbaycan xalqının düşmən qarşısında başını dik tutmasını bacardı.

Artıq “Dağlıq Qarabağ” adlı problem yoxdur. Son iki ildə ağır pandemiya dövründə Azərbaycan öz iqtisadiyyatının geriləməsinin qarşısını alıb və pandemiyadan ən yaxşı vəziyyətdə çıxan ölkələrdən biri olub. Eyni zamanda başqa dövlətlərə də bu sahədə humanitar yardımlar göstərdi. Azərbaycan Respublikası bu illər ərzində Qoşulmama Hərəkatına sədrlik etdi. Prezident İlham Əliyev hərəkata o qədər müvəffəqiyyətlə rəhbərlik etdi ki, onu təşkilata təkrar sədr seçdilər. Təsadüfi deyil ki, BMT-də bizim əleyhimizə olan qətnamənin müzakirəsi zamanı İlham Əliyevin ağıllı diplomatiyası nəticəsində Qoşulmama Hərəkatının üzvləri Azərbaycanın tərəfini tutdular. Artıq müharibədən sonra Qarabağda quruculuq işləri gedir, Böyük qayıdışa hazırlıq həyata keçirilir. Aeroportlar, şəhər və kəndlər tikilir, yollar salınır.

İlham Əliyevin son prezidentliyi dövründə neft sənayesi ilə yanaşı, qeyri-neft sənayesi də çox güclü inkişaf edib. Eyni zamanda 4 il ərzində Prezident Administrasiyasında dəyişikliklər olub. Qanunvericilik orqanları ilə iş üzrə xüsusi şöbə yaradılıb və demək olar ki, siyasi partiyalar dialoq mühitinə daxil olub. Partiyalara qərargahlar verilib, onlar qeydiyyatdan keçiblər. Cəmiyyətdə müəyyən ahəng, qarşılıqlı anlaşma yaranıb. Hesab edirəm ki, Azərbaycanın nüfuzu daha da yüksəlib və getdikcə daha da yüksələcək.

## Prezident İlham Əliyevin ən böyük zəfəri Qarabağın azad olunmasıdır

**Araz ƏLİZADƏ,**
*Azərbaycan Sosial Demokrat Partiyasının sədri:*

- Sonuncu prezident seçkilərindən keçən dövr ərzində Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev çox böyük işlər görüb. Onlardan ən əsası insanların sosial təminatının yaxşılaşması, ötən dövrdə minimum əməkhaqqı, təqaüd və müavinətlərin artırılmasıdır. Pandemiya dövründə vətəndaşların yaxşı yaşaması üçün dövlət hər şey etdi, həmçinin işsizlərə müavinət verildi.

Prezident İlham Əliyevin ən böyük zəfəri Qarabağın azad olunmasıdır. Ali Baş Komandanın rəhbərliyi altında Qarabağ 44 gün ərzində işğalçılardan azad edildi, bununla da 30 illik işğala son qoyuldu. Hazırda Qarabağda böyük quruculuq işləri gedir. Qarabağın azad edilməsi İlham Əliyevin həyatına qızıl hərflərlə yazıldı. Azərbaycan xalqı bunu heç vaxt unutmayacaq. Görülən işlərin hamısı böyük uğurlardır.

Bununla yanaşı, ölkədə təhsil, elm, mədəniyyət sahəsində də çoxlu işlər görülür. Elmin inkişafı, yeni müəssisələrin açılışı, təhsil ocaqlarının artması, mədəniyyət ocaqlarının təmiri - hamısı Prezident İlham Əliyevin dövlətin inkişafı istiqamətində xidmətləridir. İlham Əliyevin prezidentliyi dövrünü çox uğurlu dövr adlandırıram. Azərbaycan üçün ondan yaxşı prezident təsəvvür etmirəm.

İlham Əliyev beynəlxalq arenada da çox böyük nüfuza sahibdir. Bu, Azərbaycanın da nüfuzunu beynəlxalq aləmdə artırır. Türkiyə ilə bağlanmış strateji əməkdaşlıq, Rusiya ilə bağlanmış müttəfiqlik haqqında saziş buna sübutdur. Bu sənədlər İlham Əliyevin yeritdiyi uğurlu xarici siyasətin nəticəsidir. Bu onu göstərir ki, İlham Əliyev Azərbaycanı dünyanın qabaqcıl dövlətləri sırasına çıxarıb.

## Qalib Azərbaycanın seçimi

**Əsli KAZIMOVA,**
*Azərbaycan Sosial Rifah Partiyasının sədri*

- 2018-ci il aprelin 11-də müstəqillik yolu ilə inamla irəliləyən, ötən illər ərzində aparılan məqsədyönlü siyasət sayəsində zirvələrə yüksələn, regional güc amilinə çevrilən, dünyada ləyaqətli ölkə kimi tanınan müstəqil Azərbaycanda daha bir taleyüklü hadisə yaşandı - prezident seçkiləri uğurla baş tutdu. Azərbaycan seçicisinin mütləq əksəriyyətinin - 86,02 faizinin etimadını qazanan cənab İlham Əliyev dövlət başçısı seçildi. Bu mühüm siyasi hadisə müasir tariximizin yeni mərhələsinin başlanğıcına çevrildi.

# son 4 illik fəaliyyətini yüksək qiymətləndirir:

# iqtisadiyyat, sağlam siyasi dialoq



2003-cü ildən xalqın və dövlətin dayanıqlı inkişafına yönəlmiş siyasət yeni, müasir qlobal çağırışlar müstəvisində təzahür etdi. "Biz gələcəyə baxmalıyıq və baxırıq. Növbəti illərdə görüləcək işlər haqqında bizim çox aydın təsəvvürümüz, planlarımız, proqramlarımız var... Ona görə mən əminəm ki, bütün Azərbaycan xalqı və biz hamımız gələcəyə çox böyük nikbinliklə baxırıq. Hamımızın amalı ondan ibarətdir ki, ölkəmiz daha da güclənsin, daha da qüdrətli dövlətə çevrilsin, Azərbaycan vətəndaşları daha da yaxşı yaşasınlar". Andçimə mərasimində möhtərəm Prezidentin bu fikirləri Azərbaycanın gələcək inkişaf yolunun mayakına çevrildi.

2018-ci il prezident seçkilərində xalqın seçiminin niyə məhz Prezident İlham Əliyev olmasını şərtləndirən mühüm amillər mövcuddur. Ölkəmiz cənab İlham Əliyevin prezidentliyi dövründə böyük inkişaf yolu keçdi - Azərbaycan dövlətçiliyinin əsasları ciddi şəkildə möhkəmləndi, dövlətimiz gücləndi, onun qüdrəti və iqtisadiyyatı daha da artdı. Azərbaycanın beynəlxalq müstəvidə mövqeyi xeyli dərəcədə gücləndi. İnsan amili, xalqın rifahı və milli maraqlar dövlət siyasətinin strateji prioritetləri kimi öz mövqeyini daha da gücləndirdi. "Bizim siyasətimizin mərkəzində Azərbaycan vətəndaşı və onun maraqları dayanır" deyən Prezident İlham Əliyev yeni dövr üçün sosial rifahın gücləndirilməsini, vətəndaş - dövlət vəhdətinin daha da möhkəmlənməsini mühüm hədəf kimi müəyyənləşdirdi. Qarşılıqlı olaraq xalqın mütləq etimadı, inamı və sevgisi prezident seçkilərinin nəticələrini müəyyənləşdirmiş oldu. Azərbaycan xalqı görülən işlərə yüksək qiymət verdi, inkişafa, tərəqqiyə, təhlükəsizliyə, gələcəyə səs verdi.

Siyasi uğurlar düzgün müəyyənləşdirilmiş iqtisadi siyasətə söykənir. Azərbaycanın dünya miqyasında gündən-günə artan siyasi nüfuzu Prezident İlham Əliyevin müəyyənləşdirdiyi düzgün, milli maraqlara söykənən iqtisadi siyasət kursuna söykəndi. "Ancaq iqtisadiyyatı güclü olan ölkələr müstəqil siyasət apara bilərlər" deyən Prezident İlham Əliyev mühüm iqtisadi islahatlar vasitəsilə Azərbaycanı yeni yüksəliş yoluna çıxardı. Aparılan uğurlu siyasətin nəticələri isə statistik rəqəmlərlə göz önündədir - 2003-2019-cu illər ərzində Azərbaycan iqtisadiyyatı 3,4 dəfə artıb. Bu, dünyada rekord göstəricidir. Qeyd edilən 16 il ərzində sənaye istehsalı 2,7 dəfə, kənd təsərrüfatı 2 dəfə, xarici ticarət dövriyyəsi 6,4 dəfə, ixrac 7,6 dəfə, o cümlədən qeyri-neft ixracı 5,2 dəfə artıb. Azərbaycanın valyuta ehtiyatları 27 dəfə artıb. 2003-cü ildə valyuta ehtiyatları 1,8 milyard dollar idisə, bu rəqəm 2019-cu ildə 51, 2020-ci ilin ilk rübündə isə 52 milyard dollara çatıb. Ölkəmizdə yoxsulluq təxminən 50 faizdən 4,8 faizə düşüb.

Postmüharibə dövrünün yaratdığı reallıqlar ölkəmizin qarşısında mühüm çağırışlar müəyyənləşdirməkdədir. Praqmatik siyasət kursuna malik olan Azərbaycan postmüharibə mərhələsində öz gündəliyini yeni reallıqlara və çağırışlara adekvat olaraq müəyyənləşdirib. Dövlət başçımızın müəyyənləşdirilən hədəflərlə bağlı özünün aydın baxışlarını ifadə etməsi onu deməyə əsas verir ki, ölkəmiz indiki strateji mərhələdə də uğurlara imza atmaqdadır. Ali Baş Komandan İlham Əliyevin rəhbərliyi ilə işğaldan azad edilmiş Qarabağ yenidən dirçəlir, qurulur. Bu ərazilərdə bütün işlər ardıcıllıqla və planlı şəkildə həyata keçirilir. Minalardan təmizlənmiş ərazilərdə zəruri infrastruktur quruculuğu işləri həyata keçirilir. Bəhs olunan ərazilərin iqtisadi potensialı isə çox böyükdür. Azərbaycan həmin resurslardan maksimum səmərə ilə istifadə etmək və işğaldan azad olunmuş ərazilərdə 10-dan çox su elektrik stansiyası yaratmaq niyyətindədir. Beləliklə, Vətən müharibəsində işğaldan azad edilmiş ərazilərdəki bərpaolunan enerji mənbələri hesabına ölkəmizin elektrik enerjisi istehsalı imkanları daha da artacaq. Təsadüfi deyil ki, Prezident İlham Əliyev işğaldan azad edilən əraziləri "yaşıl enerji" zonası elan edib. Zəngilanda həyata keçirilən "ağıllı kənd", "ağıllı şəhər" layihələri, Ağdamın və digər regionlarımızın baş planlarının hazırlanması və bu kimi fəaliyyətlər qısa zamanda Qarabağın cənnətə çevriləcəyinə böyük inam yaradır.

2003-2018-ci illər həm də milli maraqların qorunmasına xidmət edən strateji nailiyyətlər dövrüdür. Prezident İlham Əliyev xalqı milli ideya - azərbaycançılıq məfkurəsi ətrafında birləşdirdi. Bu amil II Qarabağ müharibəsi dövründə özünün təntənəsini bir daha ortaya qoydu. Azərbaycan xalqı bir yumruğa çevrilərək öz Ali Baş Komandanının ətrafında birləşdi. Vətənin azadlığı uğrunda şiddətli döyüşlər getdiyi dövrdə ölkəmizin siyasi palitrası vahid mövqe nümayiş etdirərək düşmənə qarşı eyni platformadan çıxış etdi. Xalq 2018-ci ildə etimad göstərdiyi öz Prezidentinin səsinə səs verdi. Bir məqamı xüsusi qeyd etmək lazımdır ki, 2018-ci ildə xalqın cənab İlham Əliyevə etimad göstərməsi həm də bütün destruktiv və xain qüvvələrə yox deməsi idi. Bu nəticə bir daha göstərdi ki, radikalların və radikalizmin Azərbaycanın siyasi səhnəsində yeri yoxdur. Xarici qrant, ianə hesabına fəaliyyət göstərən, öz dövlətinə qarşı çıxış edən, bir çox halda milli satqınlıq nümayiş etdirən ünsürlərə Azərbaycan xalqı bir daha öz yerini göstərdi. Bu səbəbdən də 2018-ci ildə Azərbaycan xalqı Prezident İlham Əliyevə səs verməklə ölkədə aparılan demokratik islahatlara səs vermiş oldu. Artıq neçə ildir ki, formalaşan yeni siyasi konfiqurasiya Azərbaycanın siyasi palitrasına mühüm yeniliklər bəxş edib. Vətən müharibəsi dövründə dünya ictimaiyyəti nadir təsadüf olunan bir mənzərə ilə qarşı-qarşıya qaldı - Azərbaycanın siyasi palitrasının mütləq əksəriyyəti vahid amal uğrunda, Prezident İlham Əliyevin ətrafında sıx birləşdi və dünyaya birlik mesajı verdi. Bu, Prezident İlham Əliyevin siyasi iradəsi əsasında yaranan siyasi dialoq mühitinin töhfəsi idi. Bu istiqamətdə aparılan siyasət gündən-günə daha da dərinləşdirilir. Yaranan siyasi situasiya özlüyündə mühüm demokratik ştrixləri birləşdirir - ölkəmizdə yeni siyasi münasibətlər formalaşır. Milli ideya ətrafında milli vəhdətin, birliyin təmin olunması Prezident İlham Əliyevin apardığı siyasətin təntənəsi kimi çıxış etməkdədir.

Ötən illər ərzində aparılan siyasətin ən mühüm komponentlərindən biri ölkəmizin müdafiə gücünün formalaşdırılmasıdır. Ötən 19 il ərzində Prezident İlham Əliyevin addım-addım inkişaf etdirdiyi yol XXI əsrin ikinci onilliyində ən böyük uğurun carçısı oldu - Azərbaycan Ordusu dünyanın ən güclü orduları sırasında yer aldı. Azərbaycan Ordusunun sürətli inkişafı, müasir silahlarla təchiz olunması, döyüş qabiliyyətinin yüksəldilməsi bugünün qalib Azərbaycanının ilk təməllərini atdı. 2016-cı ilin Aprel döyüşləri bütün dünyaya Azərbaycan Ordusunun gücünü, qələbə əzmini, ədalətin bərpa olunacağını göstərmişdisə, 2020-ci ildə Vətən müharibəsində əldə olunmuş müzəffər qalibiyyət Azərbaycanın qəti qələbəsini təmin etdi. 2018-ci ildə "Biz hamımız gələcəyə çox böyük nikbinliklə baxırıq" tezisi 2020-ci ildə "Qarabağ Azərbaycandır!" şüarına çevrilərək Azərbaycanın müstəqilliyinin dönməz, əbədi olduğunu bir daha sübuta yetirdi.

## Azərbaycanın beynəlxalq arenada mövqeyi möhkəmlənib

**Arzuxan ƏLİZADƏ,**
*Azərbaycan Milli İstiqlal Partiyasının sədri:*

- 11 aprel 2018-ci il tarixli prezident seçkilərindən ötən 4 il ərzində əldə edilən uğurların zirvəsində Prezident İlham Əliyevin, Ali Baş Komandan olaraq bilavasitə rəhbərliyi altında reallaşdırılmış və ərazi bütövlüyümüzün bərpası ilə nəticələnmiş Vətən müharibəsinin yekunu olaraq 30 ilə yaxın müddət ərzində işğal altında qalan torpaqlarımızın azad olunmasının dayandığını tam əminliklə demək olar. Əldə edilmiş bu möhtəşəm qələbə ilə Azərbaycan öz ərazi bütövlüyünü bərpa edərək qalib dövlətə çevrildi və regiondakı mövcud reallıqları öz xeyrinə dəyişdi. Əldə edilən Qarabağ zəfəri bu illər ərzində Azərbaycan Ordusunun döyüş qabiliyyətinin artırılması, Silahlı Qüvvələrin maddi-texniki bazasının möhkəmləndirilməsi sahəsində görülən ardıcıl tədbirlər və ölkə rəhbərinin bu sahəyə göstərdiyi xüsusi diqqətin məntiqi nəticəsidir.

Qələbəni şərtləndirən başlıca amillərdən biri kimi Prezident İlham Əliyevin diplomatiya müstəvisində yürütdüyü çevik siyasət və nəticə etibarilə ölkəmizin dünyada cərəyan edən siyasi proseslərin fəal iştirakçısına çevrilməsi əhəmiyyətli rol oynayıb. Belə ki, Azərbaycan bir neçə beynəlxalq təşkilat çərçivəsində uğurlu fəaliyyət həyata keçirməklə dünyada öz mövqelərini əhəmiyyətli dərəcədə möhkəmləndirib. Ölkəmiz Qoşulmama Hərəkatının sədri kimi bütün üzv ölkələrin maraqlarını, həmçinin beynəlxalq hüququn norma və prinsiplərini müdafiə etməklə yanaşı, Qoşulmama Hərəkatına üzv ölkələrin dəstəyini də yekdilliklə əldə edib. Nəzərə almalıyıq ki, 120 üzvü olan bu təsisat BMT-dən sonra ikinci ən böyük qurumdur.

Ötən il Azərbaycan Türk Şurasına uğurlu sədrlik edib və 30 il işğal altında qalan torpaqlarını 44 gün ərzində azad edən dövlətin rəhbəri kimi cənab İlham Əliyevə Türk Şurasının Ali Ordeni təqdim edilib. Uğurlu fəaliyyətin nəticəsidir ki, üzvü olduğumuz Türkdilli Dövlətlərin Əməkdaşlıq Şurası, həmçinin Qoşulmama Hərəkatı daim Azərbaycanın haqlı işində ölkəmizə önəmli dəstək nümayiş etdirib. Ənənəvi olaraq Azərbaycanın haqlı mövqeyini dəstəkləyən beynəlxalq təşkilat kimi İslam Əməkdaşlıq Təşkilatındakı fəaliyyətimiz də uğurlu dəyərləndirilir.

Bu müstəvidə əldə edilən mühüm uğurlardan biri də Azərbaycanla qardaş Türkiyə Respublikası arasında siyasi, iqtisadi, hərbi və digər sahələrdə bir sıra mühüm əlaqələrin inkişaf etdirilməsini özündə ehtiva edən tarixi Şuşa Bəyannaməsinin imzalanmasıdır. Şuşa Bəyannaməsində tərəflərdən hər hansı birinə üçüncü ölkə tərəfindən təhlükə olarsa, bir-birini qorumaq üçün birgə addımlar atacağı müddəası da nəzərdə tutulub ki, bu da hazırkı həssas dönəmdə xüsusi önəm daşıyan məsələdir.

İşğaldan azad edilmiş torpaqlarda müharibədən dərhal sonra başlanmış geniş bərpa-quruculuq işləri sürətlə davam etdirilir, ilk növbədə yol və digər zəruri infrastrukturların bərpası istiqamətində əhəmiyyətli işlər görülür. Qısa müddət ərzində Füzulidə beynəlxalq hava limanının inşa edilərək istifadəyə verilməsi, regionda digər hava limanlarının tikinti prosesinin davam etdirilməsi gələcəkdə işğaldan azad olunmuş ərazilərimizin iqtisadi potensialının daha da artmasına əhəmiyyətli zəmin yaradacaq. Məqsəd təbii ki, erməni vandalları tərəfindən viran qoyulmuş əraziləri yenidən canlandırmaqla yanaşı, 30 ilə yaxın müddət ərzində öz doğma yurdlarından didərgin düşmüş soydaşlarımızın tezliklə dədə-baba torpaqlarına qaytarılmasıdır. Bu kontekstdə Prezident İlham Əliyevin 2021-ci ilin iyulun 7-də imzaladığı "Azərbaycan Respublikasında iqtisadi rayonların yeni bölgüsü haqqında" fərman əslində tarixi bir hadisədir. Bu fərmanla Qarabağ və Şərqi Zəngəzur iqtisadi rayonları yaradılıb ki, bu amil gələcəkdə tarixi torpaqlarımıza qayıdış baxımından olduqca mühüm əhəmiyyətə malikdir.

Xüsusi önəm verilməli məsələlərdən biri də 2018-ci il prezident seçkilərindən sonra sosial-iqtisadi sahədə, məhkəmə-hüquq sistemində, qanunvericilik, idarəetmə və digər sahələrdə islahatların, həmçinin siyasi islahatların həyata keçirilməsi istiqamətində bir sıra əməli addımların atılmasıdır. Həmçinin ölkədə fəaliyyət göstərən siyasi təşkilatlara yönəlik yeni münasibətlər sisteminin qurulmasına start verilib ki, bu da Azərbaycanın demokratik ölkə imicinin formalaşması və möhkəmlənməsi baxımından olduqca əhəmiyyətlidir.

Dövlətin güclü olması baxımından siyasi və iqtisadi imkanların genişləndirilməsi mühüm əhəmiyyət kəsb edir. Bu sahədə əldə edilən uğurlar sayəsində Azərbaycanın beynəlxalq arenadakı mövqeyi də ciddi surətdə möhkəmlənib.

Son illərdə texnoloji inkişafa böyük önəm verilməsi, bir sıra qlobal enerji və nəqliyyat layihələrinin icra edilməsi sayəsində Azərbaycan regionun enerji və nəqliyyat mərkəzinə çevrilib. Bunun nəticəsidir ki, bu gün regionda Azərbaycanın iştirakı olmadan, həmçinin milli maraqlarımız nəzərə alınmadan heç bir beynəlxalq və irimiqyaslı layihə reallaşdırıla bilməz.

Azərbaycan həm də dünyada bir çox transmilli layihənin təşəbbüskarı və uğurlu icraçısı, etibarlı tərəfdaş olaraq tanınır. Əldə edilən uğurlar sırasında, xüsusilə Bakı-Tbilisi-Ceyhan əsas ixrac neft kəməri, Azərbaycan qazını Avropaya çatdıran "Cənub qaz dəhlizi", TAP layihəsi, Avropanı Asiya ilə birləşdirən Bakı-Tbilisi-Qars dəmir yolu, "Şərq-Qərb" və "Şimal-Cənub" beynəlxalq nəqliyyat dəhlizləri kimi təşəbbüsləri gerçəkləşdirən ölkəmiz regional inkişafın aparıcı qüvvəsinə, energetika və nəqliyyat mərkəzinə və dünyanın enerji təhlükəsizliyinin təminatçısına çevrilib.

## Zəfərin baş memarı

**Elşad MUSAYEV,**
*Böyük Azərbaycan Partiyasının sədri:*

- İlham Əliyevin 2018-ci ildə Prezident seçilməsindən ötən 4 il zaman etibarilə çox mürəkkəb bir dövrü əhatə edir. Belə ki, bu müddət ölkəmizin, vətəndaşlarımızın həyatına çox ciddi təsir edən pandemiyanın tüğyan etməsi, özü ilə xeyli problemlər gətirməsi, 44 günlük Vətən müharibəsi və onun nəticələri ilə yadda qaldı.

İlham Əliyev istər pandemiya dövründə, istərsə də 44 günlük Vətən müharibəsi zamanı çox böyük təşkilatçılıq və liderlik xüsusiyyəti nümayiş etdirdi. Pandemiyanın elə ilk günlərindən Prezident İlham Əliyevin birbaşa rəhbərliyi altında dərman preparatlarının ölkəyə gətirilməsi, modul tipli xəstəxanaların dərhal tikilib istifadəyə verilməsi, Azərbaycanın pandemiya ilə əlaqədar bəzi ölkələrə yardım etməsi həyata keçirildi.

44 günlük Vətən müharibəsi son 200 ildə ilk dəfə torpaqlarımızın yağı düşməndən təmizlənməsi, Qarabağımızın işğaldan azad edilməsi ilə tarixə əbədi yazılacaq.

Prezident İlham Əliyev həm dövlət başçısı, həm Ali Baş Komandan kimi bu zəfərin əsas memarı olaraq öz bacarıq və qabiliyyətini dünyaya nümayiş etdirdi.

Biz indi həm işğalın nəticələrini aradan qaldırmalı, həm Qarabağı yenidən inşa etməli, həm xarici, həm də daxili siyasətimizdə olan problemləri, vəzifələri yerinə yetirməli, daim islahatlar aparılması istiqamətində fəaliyyətimizi davam etdirməliyik. Bu yolda Prezident İlham Əliyevə uğurlar arzulayırıq!

## İlham Əliyevin rəhbərliyi ilə Azərbaycan hələ çox uğurlara imza atacaq

**Əlisahib HÜSEYNOV,**
*Milli Həmrəylik Partiyasının sədri:*

- Ölkəmizin bugünkü inkişafı və siyasi, iqtisadi, hərbi, mədəni sahələrdə əldə etdiyimiz silsilə uğurlar ilk növbədə Prezident İlham Əliyevin adıyla bağlıdır. Bugünümüzə və gələcəyimizə yön verən, xalqımızı və ölkəmizi yeni hədəflərə doğru aparan taleyüklü qərarların hamısının altında məhz cənab Prezidentin imzası var. 2003-cü ildən bəri yürüdülən ardıcıl və effektiv siyasətin nəticəsində Azərbaycan artıq bölgədə və dünyada xüsusi çəkisi, söz sahibi olan bir ölkəyə çevrilib.

Bu illər ərzində ölkəmiz bir çox siyasi burulğanlardan, sosial-iqtisadi proseslərdən keçib gəlib. Mən bir partiya sədri kimi ötən illər ərzində Azərbaycanın misilsiz inkişaf yolu keçməsi və əldə olunan uğurlar baxımından Prezidentin son 19 illik liderlik tarixçəsini iki mərhələyə bölmək istərdim. İlham Əliyevin 2003-cü ildə prezident seçilməsi təkcə onun özünün siyasi karyerasında deyil, ümumən müstəqil Azərbaycanın həyatında yeni mərhələnin başlanğıc nöqtəsi oldu. Dövlət başçısının Azərbaycana rəhbərlik etdiyi 2003-cü ildən 2018-ci ilə qədər olan müddət Azərbaycan tarixinə yeniləşmə və sürətli inkişaf dövrü kimi daxil olub.

Müstəqil Azərbaycanın gənc bir dövlət kimi dünya siyasi arenasında nüfuz qazanması və dövlətçilik əsaslarımızın möhkəmləndirilməsi məhz bu illərə təsadüf edir. 2003-2018-ci illər ərzində regionların sosial-iqtisadi inkişafına dair müvafiq dövlət proqramları çərçivəsində Azərbaycanda ən müasir infrastruktur qurulub və irimiqyaslı layihələr həyata keçirilib. Təhlillər əsasında əminliklə deyə bilərik ki, ard-arda həyata keçirilən böyük iqtisadi layihələr birinci mərhələdəki inkişaf strategiyasının düzgünlüyünü və səmərəliliyini ortaya qoyub. Bu strategiyanın müəllifi də, əsas icraçısı da məhz İlham Əliyevdir. Odur ki, siyasətçilər, partiya sədrləri Prezidentin liderlik keyfiyyətlərini, onun zəkasını, uzaqgörənliyini açıq etiraf etməli və qiymətləndirməlidirlər.

İlham Əliyevin ölkənin rəhbəri, millətin lideri kimi fəaliyyətinin ikinci mərhələsinin təməli 2018-ci ildən, daha doğrusu, həmin ildə keçirilən prezident seçkilərindən başlayıb. İndi həmin tarixi hadisədən 4 il ötür. 2018-ci il aprelin 11-də keçirilmiş növbədənkənar prezident seçkilərində İlham Əliyevin Azərbaycan seçicilərinin mütləq əksəriyyətinin - 86,02 faizinin səsini qazanması və ümumən seçkilərin nəticələri Azərbaycan xalqının iradəsinin göstəricisi idi.

Xalqımızın 2018-ci il seçkilərində İlham Əliyevə kütləvi dəstəyi indiyə qədər görülmüş işlərə qiymət verilməsi kimi dəyərləndirilməlidir. Bu seçkidə gələcək inkişafa və iki il sonra bizi gözləyən böyük zəfərə elliklə səs vermiş olduq.

2018-ci ildən etibarən ölkəmizdə islahatların yeni dalğasına start verildi. İlk növbədə kadr və struktur islahatları aparıldı, eləcə də idarəetmənin təkmilləşdirilməsi və optimallaşdırılması istiqamətində mühüm addımlar atıldı. Xüsusən də torpaqlarımızın işğaldan azad olunması üçün siyasi, iqtisadi, diplomatik, informasiya, psixoloji və təbii ki, hərbi müstəvidə görüləsi nə iş varsa, hamısı icra edildi.

Ümumiyyətlə, son 18 il ərzində əldə olunan uğurların təhlilinə nəzər salsaq, Prezidentin verdiyi hər bir sözün, səsləndirdiyi bütün vədlərin sonradan onun əməli fəaliyyətində öz əksini tapdığını görərik. İlham Əliyevin prezidentlik fəaliyyətinin 44 günlük Vətən müharibəsinə qədər davam edən 17 illik birinci mərhələsində həyata keçirdiyi "güclü dövlət, güclü ordu" strategiyası torpaqlarımızın işğaldan azad olunmasının ən başlıca, ümdə səbəbidir. Zəfəri gətirən 17 ili məhz bu strategiyanın ardıcıl və prinsipial şəkildə həyata keçirilməsinə xidmət edən dövr kimi səciyyələndirə bilərik. Zaman bu strategiyanın düzgünlüyünü əməli olaraq təsdiqlədi, 30 ilə yaxın işğal altında qalan torpaqlarımız Müzəffər Ali Baş Komandan İlham Əliyevin rəhbərliyi ilə şanlı ordumuz tərəfindən 44 günlük İkinci Qarabağ müharibəsində qazanılan parlaq zəfər nəticəsində mənfur düşmən tapdağından azad olundu, ərazi bütövlüyümüz, suverenliyimiz bərpa edildi. Bu, sıradan bir qələbə deyil.

Vətən müharibəsindəki qələbəmiz tarixə həqiqətən də qızıl hərflərlə yazılmış misilsiz bir zəfərdir. Mən bunu partiya sədri olmağımdan əlavə, həm də bir tarixçi-hüquqşünas kimi, Qarabağ qazisi kimi deyirəm. Əvvəla onu bilməliyik ki, xalqımız tarix boyu bir çox müharibələrin odundan, alovundan keçib gəlsə də, amma heç bir müharibə Vətən müharibəsi səviyyəsinə yüksələ bilməyib, bu şərəfli adı daşımayıb. İkincisi isə, son 500 illik tariximizdə cəmi bir-iki hökmdarı çıxmaq şərtilə, heç bir dövlət başçımıza Vətən torpaqlarını işğaldan azad etmək nəsib olmayıb. Tarix bu möhtəşəm missiya üçün məhz İlham Əliyevi seçdi. Bu baxımdan Qarabağı işğaldan azad etdiyinə görə İlham Əliyevi xoşbəxt lider adlandırmaq olar.

Məhz İlham Əliyevin sarsılmaz inamı və siyasi iradəsi nəticəsində ötən illər ərzində Azərbaycanın müdafiə qabiliyyəti getdikcə daha da gücləndirildi. Ərazi bütövlüyümüzü təmin etmək üçün ordumuzun həm döyüş qabiliyyəti artırıldı, həm də müasir hərbi texnika ilə təminatı həyata keçirildi. Döyüş qabiliyyəti və ən müasir silahlara, hərbi texnikaya malik olmaq baxımından son illərdə ordumuz nəinki regionun, hətta dünyanın ən güclü orduları sırasına daxil oldu. 2016-cı ilin Aprel döyüşləri və 2020-ci ilin 27 sentyabrında başlanan 44 günlük Vətən müharibəsindəki qəti zəfərimiz bütün dünyaya Azərbaycan Ordusunun gücünü, qələbə əzmini və eyni zamanda xalqımızın ədalətin bərpa olunacağına sarsılmaz inamını göstərdi. Bu baxımdan Qarabağın işğaldan azad edilməsi nəinki son 30 illik müstəqillik dönəminin, hətta son 500 illik dövlətçilik tariximizin, hərb tariximizin zirvə hadisəsi, dönüş nöqtəsi hesab edilə bilər. Bu da ilk növbədə Prezident İlham Əliyevin aktivinə yazılır.

Prezident İlham Əliyevin ölkəyə rəhbərlik etdiyi ilk günlərdən başlayaraq nümayiş etdirdiyi yüksək idarəçilik məharəti, eləcə də onun yürütdüyü qətiyyətli və milli maraqlara söykənən xarici siyasəti çox keçmədən öz müsbət nəticələrini verib. Ötən dövr ərzində permanent uğurlu inkişaf prosesini yaşayan Azərbaycanda həyata keçirilən kompleks islahatlar, geniş quruculuq işləri və malik olduğumuz güclü iqtisadi potensial Azərbaycanı sözün gerçək mənasında Cənubi Qafqazın lider dövlətinə çevirdi. Təsadüfi deyil ki, bu gün Azərbaycan dünyada bir çox transmilli layihənin təşəbbüskarı və icraçısı, həmçinin etibarlı tərəfdaş ölkə kimi tanınır.

Prezident İlham Əliyevin uğur istiqamətlərindən biri də diplomatiya sahəsidir. Onun rəhbərliyi altında son 18 ildə həyata keçirilən effektiv xarici siyasət bu gün Azərbaycanın bütün beynəlxalq təşkilatların yüksək kürsülərindən daha qətiyyətlə çıxış etməsinə imkan yaradır və ölkəmiz beynəlxalq siyasi proseslərin önəmli aktorlarından biri kimi qəbul edilir. Azərbaycan bir sıra hallarda hətta dünyanın diqqət mərkəzində olan məsələlərin həlli üçün vasitəçilik təşəbbüsləri ilə də çıxış edir. BMT-dən sonra dünyanın ikinci ən nüfuzlu təşkilatı sayılan Qoşulmama Hərəkatının dönəm sədri olmaq da Azərbaycanın beynəlxalq aləmdəki mövqelərini daha da gücləndirir. Bu gün Azərbaycan Cənubi Qafqazda yeni reallıq yaradıb. İndi Cənubi Qafqazda şərtləri Azərbaycan diktə edir.

Azərbaycanın gücü həm də onun işğaldan azad edilmiş ərazilərin heç bir xarici ölkənin maddi dəstəyi olmadan bərpası və yenidən qurulması işlərini təkbaşına həyata keçirməsində özünü göstərir. Bəli, erməni vandalizminin nəticəsində xarabalığa çevrilmiş Qarabağ indi məhz Azərbaycanın öz imkanları hesabına yenidən dirçəlməkdədir. Azərbaycan dövləti azad edilmiş ərazilərdə sürətli bərpa və yenidənqurma işlərini uğurla davam etdirir. 30 illik işğalın fəlakətindən qurtulmuş ərazilərdə "ağıllı şəhər", "ağıllı kənd" layihələri icra edilir, aeroportlar açılır, yeni yollar çəkilir, elektrik stansiyaları tikilir, məktəblər bərpa edilir, sənaye və kənd təsərrüfatı müəssisələrinin təmərləri qoyulur.

Əminliklə deyə bilərik ki, 1993-cü ildə Azərbaycanı parçalanmaqdan xilas edən Heydər Əliyev kimi güclü, qətiyyətli bir lider vardısa, bu gün də ölkəmizi inamla irəli aparmağa qadir olan, xalqımıza zəfər sevincini yaşadan Prezident İlham Əliyev kimi layiqli bir davamçı və təcrübəli siyasi rəhbər var. Mən əminəm ki, İlham Əliyevin rəhbərliyi və xalqımızın milli həmrəyliyi sayəsində Azərbaycan qarşıda hələ çox uğurlara imza atacaq, yeni hədəflərə doğru inamla yürüyəcək, böyüyəcək.

***Əsmər QARDAŞXANOVA,***
***"Azərbaycan"***



# İlham Əliyevin meqalayihələri Avropanın enerji xəritəsini dəyişib

Məlumdur ki, ilk növbədə ərzaq, enerji və nəqliyyat təhlükəsizliyini təmin edən ölkələr ciddi problemlərdən uzaq olur və sərbəst yaşaya bilirlər. Son illər ərzində Azərbaycan dövləti düzgün və məqsədyönlü siyasət yürüdərək bu istiqamətlərdə önəmli layihələr həyata keçirib.

O cümlədən müəllifi Ümummilli Lider Heydər Əliyev olan yeni neft strategiysı uğurla davam etdirilib və Prezident İlham Əliyev tərəfindən bütün dünyaya səs salan qlobal layihələrlə zənginləşdirilib.

Ulu Öndərin 2002-ci il sentyabrın 18-də təməlini qoyduğu Bakı-Tbilisi-Ceyhan (BTC) əsas ixrac neft kəmərinin uğur salnaməsinə Prezident İlham Əliyevin həyata keçirdiyi tədbirlər sayəsində yeni səhifələr yazılır. 2005-ci ilin mayında Prezidentin iştirakı ilə kəmərə Səngəçal terminalındakı baş nasos stansiyasından ilk neft vuruldu. 2006-cı ilin iyulunda isə dövlət başçısı kəmərin tam sistem kimi işə düşməsi münasibətilə Türkiyədə keçirilən tədbirlərdə iştirak etdi.

Ötən illər ərzində BTC Prezident İlham Əliyevin diqqəti və dəstəyi ilə Azərbaycanı beynəlxalq enerji ailəsinə qovuşdurub və dünyanın enerji təhlükəsizliyinə öz töhfəsini verməkdədir: Dövlət başçısının dediyi kimi: “Bakı-Tbilisi-Ceyhan neft kəmərinin tikilməsi nəticəsində biz artıq pəncərədən başlayaraq böyük qapı açdıq. Azərbaycanı beynəlxalq enerji ailəsinə daxil edə bildik. Həm siyasi, həm iqtisadi baxımdan böyük uğurlar əldə edə bilmişik”.

BTC 16 ilə yaxındır Xəzər neftini dünya bazarlarına təhlükəsiz, etibarlı, sakit və ekoloji baxımdan minimum risklə nəql edir. Regionun neft ixracı arteriyası sayılan bu boru xətti ilə təkcə keçən il təqribən 26,4 milyon ton (təxminən 200 milyon barel) xam neft və kondensat ixrac olunub. Həmin neft həcmləri Ceyhan terminalında 280 tankerə yüklənib və yola salınıb. 2021-ci il dekabrın 12-də BTC Səngəçaldan başlayaraq Azərbaycan, Gürcüstan və Türkiyədən keçməklə Ceyhana ümumilikdə 500 milyon ton neft ixracı nailiyyətini qeyd edib. Kəmər tam istismara veriləndən ötən ilin sonunadək təqribən 502 milyon tondan çox (3,77 milyard barel) xam neft nəql edib və bu həcm Ceyhanda 4939 tankerə yüklənərək dünya bazarlarına göndərilib.

Hazırda BTC əsasən “Azəri-Çıraq-Günəşli”nin neftini və “Şahdəniz”in kondensatını daşıyır. Bundan əlavə, kəmər vasitəsilə digər xam neft və kondensat həcmləri, o cümlədən Türkmənistan, Rusiya və Qazaxıstan nefti nəql olunur.

BTC Azərbaycan iqtisadiyyatının inkişafına böyük töhfələr verir. Bu, ümumiyyətlə, bütün regiona xeyir-bərəkət gətirən kəmərdir. Yeri gəlmişkən qeyd edək ki, belə bir xəttin Ermənistandan yan keçməsi bu ölkənin həm siyasi imicinə, həm də əhalisinin güzəranına böyük zərbədir.

BTC-nin əhəmiyyəti həm də onun özündən sonra neçə-neçə nəhəng layihəyə yol açmasındadır. Prezident İlham Əliyev təşəbbüskarı olduğu “Cənub qaz dəhlizi”nin möhkəm bünövrəyə əsaslandığını dəfələrlə vurğulayıb: “Bakı-Tbilisi-Ceyhan neft kəməri tikilməsəydi, yəni bu dəhliz yaradılmasaydı, “Şahdəniz” layihəsinin icrası böyük sual altında ola bilərdi. Məhz dəhlizlərin mövcudluğu, Azərbaycan ilə Gürcüstan və Türkiyə arasındakı üçtərəfli uğurlu əməkdaşlıq nəticəsində biz “Şahdəniz” layihəsinin icrasına nail ola bildik”.

Başqa sözlə, məhz Prezident İlham Əliyevin səyləri, dünyadakı siyasi nüfuzu və təşəbbüskarı olduğu nəhəng layihələr sayəsində Azərbaycan qaz ixrac edən ölkə kimi tanındı, şöhrət tapdı.

Xatırladaq ki, 2007-ci il iyulun 3-dən “Şahdəniz” yatağından çıxarılan qazı nəql edən Bakı-Tbilisi-Ərzurum (BTƏ) kəməri başlanğıcını Bakı yaxınlığındakı Səngəçal terminalından götürərək Türkiyə sərhədinədək Azərbaycanda və Gürcüstanda Heydər Əliyev adına Bakı-Tbilisi-Ceyhan əsas ixrac neft kəməri ilə eyni marşrut boyu uzanır. BTƏ-nin ayrılmaz hissəsi olan Cənubi Qafqaz Boru Kəmərinin (CQBK) ümumi uzunluğu 691 kilometrdir. O, Azərbaycanda 443 , Gürcüstanda 248 kilometr məsafə qət edir. Gürcüstan-Türkiyə sərhədində CQBK-ya 280 kilometrlik boru kəməri qoşulur ki, bununla Azərbaycan qazı Ərzuruma çatdırılır. Səngəçal-Ərzurum marşrutu ilə uzanan bu xətt bütövlükdə Bakı-Tbilisi-Ərzurum kəməri adlanır. Qeyd edək ki, CQBK Azərbaycan qazını Gürcüstana 2006-cı ildə çatdırıb.

“Cənub qaz dəhlizi”nin təməlini də əslində elə BTƏ yaradıb. Azərbaycandan İtaliya torpağınadək 3500 kilometrlik məsafə boyu uzanan, üç kəmərdən ibarət olan bu dəhlizin birinci seqmentini genişləndirilmiş CQBK təşkil edir.

Trans-Anadolu Qaz Boru Kəməri (TANAP) “Cənub qaz dəhlizi”nin ikinci və ən böyük hissəsidir. Onu bu möhtəşəm enerji dəhlizinin birləşdirici halqası, onurğa sütunu da adlandırırlar.

Azərbaycanın və Türkiyənin, bu iki qardaş ölkənin dövlət başçılarının səyi ilə gerçəkləşən TANAP təkcə region üçün deyil, həm də bütün Avrasiya məkanı üçün önəm daşıyan layihədir. Məlum olduğu kimi, “Cənub qaz dəhlizi” bir sıra ölkələrin, layihənin ayrı-ayrı seqmentlərində tərəfdaşlıq edən çoxsaylı şirkətlərin sıx əməkdaşlığı nəticəsində reallaşıb. Dəhlizlə nəql olunan təbii yanacağın Avropanın iri şirkətləri tərəfindən alınması nəzərdə tutulub.

TANAP ildə 16 milyard kubmetr Azərbaycan təbii qazını nəql edəcək. Bunun 6 milyard kubmetri Türkiyədəki, 10 milyard kubmetri isə Avropa ölkələrindəki istehlakçılara çatdırılacaq. Növbəti illərdə isə kəmərin nəqletmə qabiliyyətinin əvvəlcə 24 milyard kubmetrə, daha sonra 31 milyard kubmetrə qədər artırılacağı planlaşdırılır.

Azərbaycan qazı artıq Avropaya çatıb. “Cənub qaz dəhlizi”nin sonuncu seqmenti olan TAP(Trans-Adriatik Qaz Boru Kəməri) 2020-ci ilin son günündə istifadəyə verildı. Bununla da “Cənub qaz dəhlizi” tam fəaliyyətə başladı. TAP qaz nəqlini ahəngdar davam etdirərək yeni uğurlara imza atır.

“Cənub Qaz Dəhlizi” Məşvərət Şurasının layihənin həyata keçirilməsində müstəsna rolu var. Məşvərət Şurasının bu il fevralın 4-də Bakıda keçirilən toplantısı sayca 8-ci idi. Keçən il koronavirus pandemiyası səbəbindən videokonfrans formatında keçirilən 7-ci iclası nəzərə almasaq, 2015-ci ildən üzübəri ildə bir dəfə, adətən fevral ayında baş tutan bu tədbirə həmişə Azərbaycan evsahibliyi edib. Bu da XXI əsrin nəhəng layihələrindən biri - “Cənub qaz dəhlizi”nin təşəbbüskarının və aparıcı qüvvəsinin Azərbaycan olduğunu təsdiqləyən faktlardandır. Bu, həm də Prezident İlham Əliyevin dünyadakı nüfuzundan qaynaqlanır.

Dövlət başçısının qeyd etdiyi kimi, “Cənub qaz dəhlizi” Azərbaycanın liderliyi ilə həyata keçirilən, tarixi əhəmiyyətə malik, xalqımızın firavan gələcəyini təmin edən, regionda, Avropada təhlükəsizliyin, əməkdaşlığın möhkəmlənməsinə xidmət göstərən qlobal layihədir. Dövlət başçısı bununla yanaşı, “Cənub qaz dəhlizi”nin beynəlxalq əməkdaşlıq və tərəfdaşlıq şəraitində reallaşdığını da dəfələrlə vurğulamışdır. Yəni “Cənub qaz dəhlizi” layihəsinin uğurla tamamlanması nümayiş etdirir ki, komanda şəklində aparılan iş həmişə yaxşı nəticə verir. Burada istehsalçı, tranzit və istehlakçı ölkələrin maraqları üst-üstə düşür. Belə ki, layihənin icrasında geniş beynəlxalq əməkdaşlıq formatı yaradılaraq yeddi ölkə - Azərbaycan, Gürcüstan, Türkiyə, Bolqarıstan, Yunanıstan, Albaniya və İtaliya iştirak edir. Üç Balkan ölkəsi - Bosniya və Herseqovina, Xorvatiya və Monteneqro tərəfdaşlar kimi növbəti mərhələdə layihəyə qoşulacaqlar. Deməli, “Cənub qaz dəhlizi”nin “qol”larının da olacağı mümkündür. Çünki Avropanın Azərbaycan qazına ehtiyacı var. Eyni zamanda biz öz ixrac imkanlarımızı genişləndirmək istəyirik və bu baxımdan Avropa bazarı çox əlverişlidir.

İlham Əliyevin meqalayihəsi olan “Cənub qaz dəhlizi” qarşıdan gələn 100 il ərzində Azərbaycan xalqına xidmət edəcək və milli iqtisadiyyatımızın inkişafında mühüm amil olacaq. Ölkəmizin regionda və Avropada nüfuzunun artmasını, Azərbaycanla Qərb arasında münasibətlərin daha yüksək pilləyə qalxmasını şərtləndirəcək. Azərbaycanın enerji ixrac edən və tranzit ölkə kimi əhəmiyyəti daha da artacaq. Layihədə iştirak edən bütün ölkələr, şirkətlər mənfəət götürəcəklər. Bu layihə Azərbaycana böyük gəlirlər gətirərək insanların rifahının yüksəlməsinə təsir göstərəcək, xalqımızın firavan gələcəyini təmin edəcək.

Prezident İlham Əliyev Azərbaycanın sosial-iqtisadi və hərbi qüdrətinin artmasında həyata keçirilən bu nəhəng layihələrin əhəmiyyətini dəfələrlə vurğulamışdır: “Bizim transmilli layihələrimiz regionda tamamilə yeni mənzərə yaratdı. Biz regionun enerji xəritəsini, nəqliyyat xəritəsini yenidən tərtib etdik. Bizim təşəbbüsümüzlə reallaşan layihələr təkcə bizim xalqımızın maraqlarını təmin etmir, bir çox ölkələrin maraqlarını təmin edir, o cümlədən region ölkələrinin. Qonşu ölkələrlə bizim həm ikitərəfli, həm üçtərəfli əməkdaşlıq formatlarımız vardır. Bütün bunlar Azərbaycanın beynəlxalq nüfuzunu böyük dərəcədə gücləndirdi. Əgər bu nailiyyətlər olmasaydı, problem dondurulmuş vəziyyətdə qala bilərdi”.

Zaman Prezident İlham Əliyev tərəfindən qarşıya qoyulmuş vəzifələrin məqsədyönlü olduğunu, müəyyənləşdirilmiş strategiyanın düzgün seçildiyini təsdiqlədi. Həyata keçirilən çoxşaxəli proqramlar, dərin islahatlar ölkəmizi böyük inkişaf yoluna çıxardı və bu yolda yeni uğurlu addımlar atılmaqdadır. Prezidentimiz dediyi kimi, “Cənub qaz dəhlizi” layihəsi başa çatıb, bizim işimiz isə davam edir”.

Hazırda ölkəmizdə yeni karbohidrogen yataqları işlənməkdədir. Odur ki, gələcəkdə təbii qazın təkcə “Şahdəniz”dən deyil, Azərbaycanın digər yataqlarından da Avropa bazarlarına nəql etmək potensialı var və bu, mühüm siyasi-iqtisadi əhəmiyyətə malikdir.

***Flora SADIQLI,***
***“Azərbaycan”***

◆ **Müəllifi İlham Əliyevdir**

**Siyasətinin mərkəzində Azərbaycan vətəndaşı dayanan İlham Əliyevin ölkəyə rəhbərlik etdiyi 19 ildə xalqın rahatlığı naminə həyata keçirdiyi islahatlar bu gün öz mükəmməl nəticəsini verməkdədir.**

**Məhz Prezidentin ictimai xidmətlər sahəsində reallaşdırdığı islahatların nəticəsidir ki, bu gün vətəndaş-dövlət münasibətləri yüksək səviyyədədir. Çünki İlham Əliyev fəaliyyətə başladığı ilk gündən dövlət orqanları qarşısında əhalinin problemlərinin operativ öyrənilməsi və səmərəli həllini ən vacib vəzifə kimi müəyyənləşdirib və həmçinin bu sahədə ən mükəmməl nümunəni yaratmaqla rəsmi strukturların xalqın xidmətçisi funksiyası daşıdıqlarını daim təbliğ edib.**




# 4 ildə 9 mərkəz

## İlham Əliyevin yaratdığı “ASAN” brendi ictimai xidmətlər sahəsində inqilabi dəyişikliklər edib







### İslahatların bəhrəsi

İlham Əliyevin sosial islahatlarının real nümunəsindən biri də prinsipləri operativlik, şəffaflıq, nəzakətlilik, məsuliyyətlilik, etik davranış qaydalarına nəzarət və rahatlıq olan “ASAN xidmət” sistemidir. Prezidentin də dediyi kimi, “ASAN xidmət”in yaradılması Azərbaycanda aparılan ciddi islahatların real təzahürüdür. Bu, yeni sistem dünyada tanınmış bir Azərbaycan brendidir.

10 il öncə - 2012-ci ildə Vətəndaşlara Xidmət və Sosial İnnovasiyalar üzrə Dövlət Agentliyi və onun tabeliyində “ASAN xidmət” mərkəzləri yaradılmasını və gələcək fəaliyyətini dəyərləndirərkən İlham Əliyevin söylədiyi bu fikirlər indi bir daha öz təsdiqini tapır.









### İşlər rəvan gedəndə hər şey rahat, hər kəs məmnun olur

“ASAN xidmət” dünyada bu sahədə ən təkmil örnək kimi qəbul edilən Azərbaycan modelidir. İctimai xidmətlər sahəsində “ASAN xidmət”in xətti ilə aparılan islahatlar nəinki bu sahəni nümunəvi edib, eyni zamanda, cəmiyyətdəki münasibətlərə də çox müsbət təsir göstərib.

Dövlət başçısının 2012-ci il 13 iyul tarixli 685 nömrəli fərmanı ilə Azərbaycan Respublikasının Prezidenti yanında Vətəndaşlara Xidmət və Sosial İnnovasiyalar üzrə Dövlət Agentliyi və onun tabeliyində “ASAN xidmət” mərkəzləri yaradılsa da, qurum həmin ilin 29 dekabr tarixindən fəaliyyətə başlayıb. Hazırda ölkəmizdə 22 “ASAN xidmət” mərkəzi fəaliyyət göstərir. Onlardan 6-sı Bakı şəhərində, 2-i Gəncədə olmaqla, digərləri Sumqayıt, Sabirabad, Bərdə, Qəbələ, Masallı, Quba, Mingəçevir, İmişli, Şəki, Şamaxı, Kürdəmir, Tovuz, Ağcabədi və Balakəndədir. Son 4 ildə isə ölkəmizdə 9 “ASAN xidmət” mərkəzi açılıb.

Bakıda və Sumqayıtda növbəti, Lənkəran, Salyan və Naxçıvanda isə ilk “ASAN xidmət” mərkəzləri inşa olunur. “ASAN xidmət” mərkəzlərində müxtəlif dövlət orqanları, həmçinin özəl şirkət və müəssisələr tərəfindən ümumilikdə 320-dən çox xidmət göstərilir.

### “ASAN xidmət” həm də gənclər mərkəzidir

“ASAN Kommunal” mərkəzlərində “Azərişıq” ASC, “Azərsu” ASC və “Azəriqaz” İB tərəfindən 55 növ xidmət göstərilir. Bu günədək “ASAN xidmət” mərkəzlərinə 7 milyon 887 mindən çox vətəndaşın 51 milyondan çox müraciəti daxil olub. Keçirilən rəy sorğularına əsasən vətəndaşların xidmətlərdən məmnunluq əmsalı 99,5 faiz təşkil edir.




Ümumiyyətlə, sirr deyil ki, İlham Əliyevin müəllifi olduğu “ASAN xidmət”in yaradılması ictimai xidmətlər sahəsində inqilabi dəyişiklik sayılır. Eyni zamanda, bu, yeni davranış qaydalarının tətbiq edilməsidir.

İlham Əliyevin söylədiyi kimi, “ASAN xidmət” mərkəzləri həm də gənclər mərkəzidir. Artıq demək olar ki, minlərlə gənc “ASAN xidmət”də çalışır, təcrübə qazanır. Könüllülər hərəkatı da məhz “ASAN xidmət” mərkəzlərində yaranmağa başlayıb. Könüllülər “ASAN xidmət”in fəaliyyətə başladığı ilk gündən etibarən bu konsepsiyanın bir komponentidir. Bu prosesə 30 000-dən çox könüllü gənc qoşulub. Bu günə kimi könüllülər tərəfindən 3000-dən çox təlim, 700-dən çox layihə həyata keçirilib və 3000-dən çox könüllü “ASAN Kadr” portalı vasitəsilə işlə təmin olunub.

### Səyyar “ASAN Qatar” Astarada

Sözün həqiqi mənasında, Azərbaycanın intellektual məhsulu olan bu mərkəzlər vətəndaş məmnunluğuna xidmət edir. Artıq vətəndaş üçün vaxt itkisi yoxdur. Hələlik “ASAN xidmət” mərkəzləri olmayan rayon və qəsəbələrdə vətəndaşlara səyyar formada xidmət göstərilir. “ASAN Qatar” və ya səyyar “ASAN xidmət” avtobusu, demək olar ki, vətəndaşın ünvanına gedir.

10 səyyar “ASAN xidmət” avtobusu və 1 səyyar “ASAN Qatar” vasitəsilə regionlarda vətəndaşlara səyyar formada xidmətlər göstərilir. 2013-cü ilin iyun ayından etibarən 2 milyon 500 mindən çox vətəndaşa səyyar formada xidmət göstərilib. Əsas məqsəd dövlət xidmətlərinin vətəndaşlara daha rahat, yeni və innovativ üsullarla təqdim edilməsi, vətəndaşlar üçün əlçatanlığın təmin edilməsi və vətəndaş məmnunluğuna nail olunmasıdır.

“ASAN Qatar” növbəli qaydada ölkədə bütün istiqamətlərdə hərəkət edərək əvvəlcədən təyin olunan yerdə dayanır və əhaliyə xidmət göstərir. Səyyar “ASAN Qatar” gözləmə zalı, xidmət zalı, əməkdaşların istirahət kupeləri olmaqla 3 vaqondan ibarətdir.

### “Allah Prezidentimizin canını sağ eləsin ki, bizim üçün belə şərait yaradıb”

Hazırda “ASAN Qatar” martın 29-dan Astara dəmiryol stansiyasında vətəndaşlara xidmət göstərir. Rayon sakini Rahim Rüstəmov ümumvətəndaşlıq pasportu almaq üçün səyyar xidmətə müraciət etmişdi. Sənədləri hazır olana qədər bizimlə söhbətində maraqlı fikirlər səsləndirdi. Onun sözlərinə görə, “ASAN xidmət” yaranandan hər kəsin işi rahatlıqla qaydasına düşüb. Çünki kənd və rayon əhalisinin daim işlə-güclə, təsərrüfatla məşğul olduğu üçün hansısa sənədi almağa vaxtı olmur. Amma bu xidmət vətəndaşları tam məmnun edir: “Bizim üçün çox rahatdı. 10-15 dəqiqəyə sənədləri qaydasına salıb təqdim edirlər. Hələ bu xidmətdən narazı qalan adam görməmişəm. Allah Prezidentimizin canını sağ eləsin ki, vətəndaşlar üçün belə şərait yaradıb”.

Vətən müharibəsi qazisi Elnur Rüstəmov da “ASAN Qatar”a müraciət edənlərdən biridir. 44 günlük müharibədə Füzuli istiqamətindən Şuşaya qədər gedən döyüşlərdə iştirak edən qazi deyir ki, “ASAN xidmət” yaranandan hər bir vətəndaşın işi rahatlaşıb. Hansı rayondasa “ASAN xidmət” yoxdursa, oraya ya avtobus, ya da qatar göndərirlər. Vətəndaşlar da asanlıqla lazımi sənədlərini əldə edirlər: “Əvvəllər hər hansı sənədi almaq üçün müxtəlif idarələrə yollanırdıq. Bu da həm vaxt itkisi, həm artıq xərc aparırdı. İndi dövlət elə bir xidmət yaradıb ki, o, özü vətəndaşın ünvanına gəlib nə lazımdırsa həll edir. Bundan yaxşı nə ola bilər ki...”

Göründüyü kimi, xidmətə müraciət edən hər bir kəs məmnunluq ifadə edir. Dövlət agentliyinin “ASAN”ı və onun səyyar xidmətləri bir daha təsdiq edir ki, İlham Əliyevin vətəndaşlara daim diqqət və qayğı göstərilməsi ilə bağlı tapşırığı, habelə bir sıra tövsiyələri effektiv üsullarla yerinə yetirilir.

*Sonda onu da vurğulayaq ki, ümumilikdə Astarada səyyar xidmət 17 dəfə gerçəkləşib. 12 dəfə səyyar “ASAN xidmət” avtobusları vasitəsilə 36 688-ə yaxın, 5 dəfə isə “ASAN Qatar” vasitəsilə 9787-yə yaxın müraciət daxil olub. “ASAN Qatar” aprelin 27-dək Astarada vətəndaşların xidmətindədir.*

***Rəşad BAXŞƏLİYEV,***
***“Azərbaycan”***










# Qafqazın ən böyük sənaye mərkəzi

## İlham Əliyevin yaratdığı modern sənayeləşmə "Made in Azerbaijan" brendini dünyaya tanıdıb

**◆ Müəllifi İlham Əliyevdir**

*Cənubi Qafqazın lider dövləti olan Azərbaycan həm də regionun ən böyük sənaye mərkəzi kimi tanınır. Prezident İlham Əliyevin dövlətin gələcək inkişafı ilə bağlı düşünülmüş mühüm proqramlarından birinin modern sənayeləşməni təşkil etməsi Azərbaycan sənayesinin yüksəlişini şərtləndirib.*

*Son illərdə yeni dövrün tələblərinə uyğun həyata keçirilən uğurlu siyasət davamlı iqtisadiyyatın sənayeləşməsini daha da sürətləndirib. Təbii ki, sənayenin sürətli inkişafını təmin edən əsas amillər Azərbaycanın malik olduğu elmi potensial, təbii resurslar və logistik imkanlardır. Artıq ölkəmizdə yüzlərlə müasir sənaye müəssisəsi fəaliyyətə başlayıb, yeni sənaye sahələri yaradılıb, tələbatın ödənilməsində yerli məhsulların payı əhəmiyyətli dərəcədə artıb, ixracın həcmi yüksəlib. Bu gün ölkəmizdə istehsal olunan qeyri-neft sənaye məhsulları "Made in Azerbaijan" brendi ilə dünya bazarına çıxarılır.*
























### Dünya bazarında Azərbaycanın qeyri-neft məhsullarına tələbat artır

Ölkənin qeyri-neft sektorunun inkişafını prioritet məsələ kimi görən Prezident İlham Əliyev sənaye zonalarının yaradılması istiqamətində mühüm addımlar atıb. Qısa zamanda ölkəmizdə yüzlərlə müəssisə və zavodlar inşa edilib. Həmçinin sənaye park və məhəllələri yaradılıb. Bu gün isə onlar İqtisadi Zonaların İnkişafı Agentliyinin tərkibində ölkə sənayesinin inkişafı, qeyri-neft məhsullarının istehsalı ilə məşğuldurlar.

Agentlik ölkədə fəaliyyət göstərən 6 sənaye parkının - Sumqayıt Kimya, Pirallahı, Mingəçevir, Qaradağ, Ağdam və Cəbrayıl rayonunda yerləşən "Araz Vadisi İqtisadi Zonası" sənaye parklarının və 4 sənaye məhəlləsinin - Sabirabad, Masallı, Neftçala, Hacıqabul sənaye məhəllələrinin və 51 aqroparkın idarəedici təşkilatıdır.

Sənaye zonaları üzrə ümumilikdə ölkə üzrə 95 sahibkarlıq subyektinə üzvlük (rezidentlik) statusu verilib və bunlardan 58-i hazırda istehsal fəaliyyəti ilə məşğuldur. Bu zamana qədər zonalar üzrə 6,3 milyard manatlıq məhsul istehsal edilib ki, bunun 2 milyard manatı (təqribən 32 faizi) ixrac olunub. İstehsal olunan məhsullar "Made in Azerbaijan" brendi adı ilə dünyanın 35-dən çox ölkəsinə ixrac edilib.

### 17 müəssisəyə evsahibliyi edən kimya sənaye parkı

Qeyri-neft sektorunun inkişafında mühüm rol oynayan, Cənubi Qafqazın ən böyük, Azərbaycanın isə ilk sənaye parkı olan Sumqayıt Kimya Sənaye Parkındakı sənaye müəssisələrinin fəaliyyəti ilə maraqlandıq.

Sumqayıt Kimya Sənaye Parkı Azərbaycan Prezidentinin 2011-ci il 21 dekabr tarixli fərmanı ilə yaradılıb. Parkın öncəliyi ölkədə innovativ və yüksək texnologiyalar əsasında rəqabətqabiliyyətli sənayenin inkişafı üçün şərait yaratmaq, bu sahədə sahibkarlığı dəstəkləmək, qeyri-neft sektorunun davamlı inkişafını təmin etmək və əhalinin istehsal sahəsində məşğulluğunu artırmaqdır.

Sənaye parkı yaradılarkən 168 hektara yaxın ərazini əhatə edib. Hazırda isə parkın ərazisi 583,5 hektardır. Parkda ümumi investisiyaların həcmi 5,5 milyard manatdan artıq olan 25 sahibkarlıq subyektinə rezidentlik statusu verilib və bunlardan 17-si hazırda fəaliyyətdədir. İndiyədək 5,2 milyard manatdan çox investisiya yatırılıb və 5900-dək insan daimi işlə təmin olunub. Bu il ərzində Sumqayıt Kimya Sənaye Parkında daha 3 müəssisənin işə başlaması nəzərdə tutulur.

Sənaye parkındakı rezidentlər azot gübrəsi, polimerlər, ferroərintilər, tütün məmulatları, aqrokimyəvi məhsullar, sənaye istifadəsi üçün torbalar, tibbi maskalar, şüşə lövhələr və digər yeni məhsullar istehsal edirlər.

Sənaye parklarının əsas üstün cəhəti sahibkarlar üçün əlverişli investisiya mühitinin yaradılmasıdır. Belə ki, rezidentlər qeydiyyata alındıqları tarixdən 10 il müddətinə əmlak və torpaq vergilərindən, gəlir və ya mənfəət vergisindən, istehsal məqsədilə idxal etdikləri texnikanın, texnoloji avadanlıqların və qurğuların idxalı zamanı ƏDV-dən və 7 il müddətinə gömrük rüsumlarından azad olunurlar.

### 8 peşə ixtisası üzrə peşəkar kadrlar hazırlanır













Parkın ümumi fəaliyyəti ilə tanış olduqdan sonra İqtisadi Zonaların İnkişafı Agentliyinin nəzdində olan Sumqayıt Sənaye Parkında yerləşən Peşə Təhsil Mərkəzinə üz tuturuq. Xatırladaq ki, 2020-ci ilin 14 sentyabr tarixində Prezident İlham Əliyevin iştirakı ilə Peşə Təhsil Mərkəzinin açılışı olub. 6 korpusdan ibarət olan mərkəz 500 nəfər tələbənin təhsil alması üçün nəzərdə tutulub. Korpuslarda 23 tədris otağı, 13 laboratoriya, kitabxana, kompüter otağı, akt zalı, yeməkxana, idman zalı və inzibati otaqlar mövcuddur.

Peşə Təhsil Mərkəzi Sumqayıt Kimya Sənaye Parkının ərazisində yaradılmış ilk təhsil müəssisəsidir və zavodların tam əhatəsində yerləşir. Təhsil müəssisəsinin tələbələri mütəmadi olaraq buradakı sənaye müəssisələrində təcrübədərs proqramlarında iştirak edir və nəzəri biliklərini praktik əsaslarla təkmilləşdirirlər. Mərkəzdə çalışan müəllimlərin əksəriyyəti elə sənaye müəssisələrinin peşəkar mühəndisləridir.

Hazırda Peşə Təhsil Mərkəzində 8 ixtisas üzrə - torna və frezer dəzgahların, proqramla idarə olunan dəzgahların operatoru, sənayedə quraşdırma işləri üzrə usta, elektrik avadanlıqlarına xidmət və təmir üzrə elektrik montyoru, avtomatika üzrə usta, aqroservis mütəxəssisi, isitmə-soyutma, havalandırma sistemləri və avadanlıqları üzrə montajçı, veb-dizayner və proqram təminatçısı ixtisaslarında 150-dən çox tələbə təhsil alır.

Birillik təhsil proqamı beynəlxaq təcrübələr əsasında hazırlanıb. Mərkəzə qəbul prosesi Peşə Təhsili üzrə Dövlət Agentliyinin elektron qəbul sisteminə müvafiq sahə üzrə müraciət edən namizədlərin növbəti müsahibə mərhələsinə keçidi ilə aparılır. Müsahibədə tam orta təhsilli şəxslər iştirak edə bilərlər. Tədris müddətində dövlət sifarişi əsasında təhsil alan tələbələr təqaüdlə təmin edilirlər. Yaş məhdudiyyətinin olmaması isə bu sahəyə marağı olan hər kəsə əsl fürsətdir. Ötən il təhsil müddətini uğurla başa vuran mərkəzin ilk məzunları sənaye parkının nəzdindəki zavodların müxtəlif sahələrində fəaliyyətlərini davam etdirirlər.

Peşə Təhsil Mərkəzinin direktoru Yadullah Babayev bildirir ki, gələcək üçün əsas hədəf ölkəmizdəki müəssisələrdə ehtiyac və zəruri olan sahələr üzrə tədris proqramı hazırlayıb peşəkar məzunlar yetişdirməkdir. O qeyd edir ki, peşə mərkəzinin əsas üstün cəhəti dərslərin 80 faizə qədərinin təcrübə əsasında öyrədilməsidir.

### Azərbaycanda ilk şüşə istehsal edən müəssisə

Sənaye Parkının rezidentlərinin biri şüşə istehsal edən "AzerFloat"dır. Müəssisə Sənaye Parkında fəaliyyətə başlayan yeni rezidentlərdən biridir. Yeni olmaqla yanaşı, həmçinin ilk dəfə ölkədə bu fəaliyyətlə məşğul olan müəssisədir. Belə ki, ötən ilə qədər şüşə vərəqələri yalnız xaricdən idxal edilirdi.

2017-ci ildə Prezident İlham Əliyevin iştirakı ilə təməli qoyulan zavod 2021-ci ilin yanvarında açılıb və termoformasiya üsulu ilə vərəqə şüşə istehsal edir. Termoformasiya metodu yüksək təzyiq və istilik artımı ilə şüşənin düz səth formasına gətirilməsi prosesidir. Azərbaycanda bu işi ilk dəfə həyata keçirən "AzerFloat" alman, italyan, finland və çin istehsalı olan texnologiyalarla təchiz olunub.

150 nəfər işçi qüvvəsinə malik, 12 hektar ərazisi və investisiya dəyəri 100 milyon avro olan zavod ilin 365 günü fasiləsiz olaraq çalışır. İstehsal edilən şüşələrin qalınlığı 2 millimetrdən 12 millimetrə qədər ola bilir. Günlük istehsalat həcmi 300 ton olan müəssisə yerli bazarın tələbatını təmin etməklə yanaşı, xarici ölkələrə məhsul ixracı ilə də məşğuldur. İxracatda əsas yerləri Rusiya, Ukrayna, Türkiyə, Portuqaliya, İngiltərə, İspaniya və digər ölkələr tutur. Şüşənin hazırlanmasında lazım olan xammallar əsasən Türkiyə və Rusiyadan idxal edilir.

### Şüşə 1570 dərəcədə əridilərək hazırlanır

Zavodun istehsalat hissəsinə daxil olduqda, sözün əsl mənasında, alovlu bir məkanla qarşılaşdıq. Zavodun daxili hissəsinin daim isti saxlanılması zəruri olduğundan içəridə ortalama temperatur yüksək olur. Əvvəlcə ilkin nöqtədən şüşə istehsalını izləyirik. Proses xammalın elevatorla ötürülməsi ilə başlayır.

Prosesi izah edən mühəndis Alim Hüseynov qeyd edir ki, qum, soda, əhəngdaşı, dolomit və sariədən ibarət qarışımlar daşınaraq sobaya daxil olur. Sobanın içərisində 1570 dərəcədə əridilərək qarışdırılır, davam edən xətlə lava şəklində olan maddə qalay vannasına tökülür. Silikatlaşma nəticəsində xammal şüşəyə çevrilir.

Növbəti mərhələdə şüşə tam tərkibi əldə edildikdən sonra soyutma hissəsinə ötürülür. 1500 dərəcədən 1100 dərəcəyə qədər soyudulan şüşənin xüsusi avadanlıqla eni, qalınlığı tənzimlənərək yenidən soyutma mərhələsində 60 dərəcə temperatura çatdırılır. Kəsim xəttinə daxil olan zaman kənarları kəsilərək keyfiyyətə nəzarət bölümünə ötürülür.

Alim Hüseynov onu da bildirdi ki, son nəzarət maşınına çatana qədər geridə bir neçə detektor yerləşir. Əgər tərkibdə və ya qalınlıqda hər hansı uyğunsuzluq aşkar edilərsə, o zaman şüşə elə yerindəcə parçalanaraq yenidən aşağıdan hərəkət edən konveyerlərlə istehsala qaytarılır. Mühəndis bildirir ki, müəssisədə şüşə istehsalı itkisiz keçir. Belə ki, hər bir qalıq yenidən istifadəyə yararlıdır. Keyfiyyətə nəzarətdən uğurla keçən şüşə sifarişə uyğun kəsilir. Sonuncu, yekun mərhələ robotların hazırlanan şüşəni müvafiq sayda cəmləyib paketləməsi və xüsusi maşınların anbara daşınması ilə başa çatır. Paketlərin sonrakı dayanacağı isə satılan şüşə emalı fabrikləri olur.

Zavodda tibb məntəqəsi fəaliyyət göstərir. Baş verə biləcək hər hansı arzuolunmaz hadisə zamanı burada ilkin tibbi yardım göstərilərək operativ şəkildə xəstəxanaya çatdırılır. Hazırda yalnız şəffaf şüşə istehsal edən müəssisənin gələcək planlarında rəngli və rəngli reflektiv şüşələrin istehsalı da nəzərdə tutulub. "Karabakh Glass" adlı yerli brendimiz ölkəmizi adı və keyfiyyəti ilə xarici bazarlarda təmsil edir.

Müəssisənin kollektivinə işlərində müvəffəqiyyətlər arzulayaraq növbəti zavoda istiqamətlənirik.

### Yararsız akkumulyatorların istifadəyə qayıdışı

Gəldiyimiz müəssisə Sumqayıt Sənaye Parkının ən yeni 17-ci üzvüdür. Bura "Azmonbat" MMC-dir. Müəssisə Prezident İlham Əliyevin iştirakı ilə 2021-ci ilin sentyabrında fəaliyyətə başlayıb. "Azmonbat" MMC akkumulyator utilizasiyası və yeni akkumulyatorların istehsalına yönələn müəssisədir.

Zavod ildə 30 min ton akkumulyator utilizasiya etmək gücünə malikdir. Bu da orta hesabla 800 min ədəd akkumulyatordan 15 min ton qurğuşun və 4,5 min ton gübrənin əldə olunmasına gətirib çıxarır. Burada həyata keçirilən proseslər zamanı ətraf mühitə zərər vurmadan, ekoloji strandartlara uyğun olaraq işlər görülür. Əmələ gələn zərərli qazlar xüsusi sistemlə təmizlənərək atmosferə buraxılır. İstifadə müddəti bitmiş akkumulyatorlar buraya respublika ərazisindən yığılıb gətirilir.

Müəssisədə bizi iş prosesi ilə tanış etmək və suallarımızı cavablandırmaq üçün zavodun mexaniki mühəndisi Rübail Bayramov müşayiət edir. O qeyd edir ki, iş prosesi hovuzdan başlayır. Gətirilən akkumulyatorlar hovuzdan kran vasitəsilə ələyə yüklənir. Daha sonra konveyerlə daşınaraq qırıcı aparata ötürülür. Bu aparat vasitəsilə akkumulyatorlar olduqca kiçik - 50-60 millimetrlik parçalara bölünür. Əldə edilən sulfatlı qurğuşundan sulfat turşusu ayrılaraq çənə daxil olur. Bu, ayrılan ilk maddədir. Daha sonra doğranmış hissələrdən geriyə yüngül, ağır plastiklər və qurğuşun qalır. Bunların hər biri də daşınan qurğularla müvafiq ayrılan hissələrə, anbarlara tökülür.

Rübail Bayramov deyir ki, əsas mərhələni parçalanmış və ayrılmış maddələrin təkrar emala göndərilməsi təşkil edir. Yüngül plastiklər qranulyasiya edilir. Qurğuşunlar əridilir. Əldə olunan ammonium sulfatdan isə kristallaşdırılaraq gübrə hazırlanır. Mühəndisin sözlərinə görə, bu proseslər, yəni utilizasiya birinci fazaya aiddir. Zavodun ikinci fazadakı əsas istiqaməti isə yeni akkumulyatorların istehsalıdır. Hələlik yalnız utilizasiya ilə məşğul olan müəssisə yaxın vaxtlarda bu yöndəki işləri də həyata keçirəcək. Zavodda işlərin gedişatı nəzarət otağından daim diqqətlə izlənilir.

Bu müəssisənin digər bir özəlliyi də ondadır ki, ətraf mühitin çirklənməsinin qarşısının alınmasına öz töhfəsini verir. Yararsız və tullantı olan bir çeşid cihazın utilizasiya edilməsi ilə yenidən istifadəyə yararlı emalı ekoloji durumun qismən yaxşılaşmasına yardımçı olur. Bu zaman həm xammal əldə edilir, həm yeni məhsul hazırlanır, həm də yaşadığımız evimiz - Yerimiz çirklənmədən qorunur.

"Azmonbat" MMC-nin zərərsizləşdirməsi nəticəsində əldə etdiyi və istehsal edəcəyi məhsullar irəliləyən zamanlarda daxili bazarın tələbatını ödəməklə yanaşı, Türkiyə, Bolqarıstan və MDB ölkələrinə də ixrac ediləcək.

*Sumqayıt Kimya Sənaye Parkının digər zavodlarından olan reportajın davamını növbəti saylarımızda oxuya bilərsiniz...*










**Aydan XƏLİLOVA,**
**İlham BABAYEV (foto),**
**"Azərbaycan"**






# İlham Əliyevin DOST nümunəsi

## İndiyədək 820 min vətəndaşa xidmət edən “DOST” mərkəzlərindən əhali məmnunluğu 98 faizdir

“...Bu mərkəzə daxil olduğun andan etibarən, sanki tamamilə başqa bir dünyaya düşürsən. Qapıda qarşılamadan tutmuş, ta ki, müraciət etdiyin məsələnin həll olunmasına və evə yola salınmasına qədər olan bütün proseslər ərzində mərkəzin əməkdaşları bir dəqiqə olsun belə diqqətlərini səndən əsirgəmirlər. Gülər üzlə qarşılayırlar, qayğı ilə lazım olan bütün köməklikləri göstərirlər, sonda isə nəzakətlə yola salırlar. Sağ olsun Prezidentimiz ki, bu cür gözəl xidmətlər yaradıb və bizim istifadəmizə verib...”

Yarandığı gündən bəri göstərdiyi yüksək xidmətlərlə bağlı vətəndaşlardan daim haqqında xoş sözlər eşitdiyimiz “DOST”un İsmayıl bəy Qutqaşınlı, 86 ünvanında, yəni “DOST” Agentliyinin inzibati binasının və 1 saylı “DOST” mərkəzinin yerləşdiyi məkanda həmsöhbət olduğumuz Zərifə xanım səsləndirir bu fikirləri... Əvvəllər də müxtəlif məsələlərlə bağlı “DOST” mərkəzlərində olduğunu bildirən 63 yaşlı xanım deyir ki, indi bura pensiya haqqında arayış almaq üçün gəlib və hazırda müvafiq bölmədə müraciət etdiyi məsələ ilə məşğul olunur.

### Müasir Azərbaycanın siması

Prezident İlham Əliyevin rəhbərliyi ilə Azərbaycanda sosial sahədə əhalinin rifah halının yaxşılaşdırılmasına, vətəndaş məmnunluğuna yönələn çoxsaylı islahatlar həyata keçirilir. “DOST” layihəsi isə mütərəqqi, çoxşaxəli və mərhələli şəkildə həyata keçirilən bu islahatlar konsepsiyasının daha bir uğurlu tərkib hissəsidir. Birinci vitse-prezident, Heydər Əliyev Fondunun prezidenti Mehriban xanım Əliyevanın təşəbbüsünün nəticəsi olan “DOST” layihəsi əhaliyə, xüsusilə sosial cəhətdən həssas qruplara dövlət sosial xidmətlərinin “bir pəncərə”dən operativ, şəffaf və nəzakətli, vətəndaş məmnunluğu prinsipi əsasında təqdim olunmasını özündə ehtiva edir.

Unikal model kimi dünyada da maraq və təqdirlə qarşılanan “DOST” layihəsi ölkəmizdə uğurla gerçəkləşdirilib və fəaliyyət göstərdiyi cəmi 3 illik qısa zaman ərzində vətəndaşların böyük rəğbətini, əsl dost güvənini qazana bilib.

Prezidentin 2018-ci il avqustun 9-da imzaladığı fərmanla Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinin tabeliyində yaradılan Dayanıqlı və Operativ Sosial Təminat Agentliyinin ilk mərkəzinin açılışı 9 may 2019-cu ildə Prezident İlham Əliyev və birinci xanım Mehriban Əliyevanın iştirakı ilə baş tutub. Hazırda Bakıda və Abşeron rayonunda 5 “DOST” mərkəzi fəaliyyət göstərir. Bu günə qədər “DOST” mərkəzlərinə 820 minə qədər vətəndaş müraciəti qeydə alınıb. Bu mərkəzlərdə vətəndaşların xidmətlərdən məmnunluq səviyyəsi isə 98 faizdir.

“DOST” Agentliyinin İdarə Heyətinin sədri Fərid Məmmədov qəzetimizə müsahibəsində söylədi ki, fəaliyyətlərini cənab Prezident İlham Əliyevin qarşılarına qoyduğu tapşırıqların icrasını əsas tutaraq yerinə yetirirlər.

*- Cənab Prezident İlham Əliyev 1 saylı “DOST” mərkəzinin inzibati binasının açılış mərasimində öz nitqində xüsusi bir məsələyə diqqət çəkərək bildirmişdi ki, islahat, innovasiya, korrupsiya, rüşvətxorluğa qarşı mübarizə, eyni zamanda yeni texnologiyalar, gənclərin bu işlərə cəlb olunması, könüllülərin fəaliyyəti ön planda olmalıdır. Cənab Prezident onu da vurğulamışdı ki, “ DOST” mərkəzləri müasir Azərbaycanın simasını əks etdirir və ölkəmiz bu yolla inkişaf etməlidir.*

*Ümumiyyətlə, son illər ölkəmizdə cənab Prezidentin bilavasitə apardığı islahatlar proqramı idarəetmə, inzibatçılıq istiqamətində müsbət dəyişikliklərə səbəb olub. Bu proseslərin içərisində “DOST” Agentliyinin fəaliyyəti də xüsusi əhəmiyyət kəsb edir. Amma burada tək “DOST” Agentliyini deyil, ümumilikdə, həm dövlət qurumlarının işinin təkmilləşdirilməsi və xüsusilə Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinin (ƏƏSMN) və nazirliyin nəzdində olan bütün qurumların fəaliyyətinin təkmilləşdirilməsini qeyd etmək istəyirəm. Son 3-4 il ərzində ƏƏSMN struktur olaraq böyük transformasiyaya nail olub. Nazirlik daxilində bir çox strukturlar publik hüquqi şəxs statusuna malik olub. Bu baxımdan yaradılan “DOST” Agentliyində də vətəndaşlara göstərilən xidmətlər istiqamətində çox böyük təkmilləşmə və optimallaşma işləri aparılıb, elektron platformalar təqdim olunub.*

### Operativlik, çeviklik, şəffaflıq və məmnunluq

Hazırda “DOST” mərkəzlərində 154 növ xidmət göstərilir. Bu xidmətlər həm sosial müdafiə və təminat sahəsində (pensiya, müavinətlər, təqaüd, əlilliklə bağlı), həm də məşğulluqla bağlı olan (işsiz və iş axtaran şəxslərə, həmçinin özünüməşğulluqla bağlı) xidmətlərdir. Eyni zamanda burada əmək münasibətləri ilə bağlı işəgötürənlər və işçilər arasında olan münasibətlərin qurulması istiqamətində fəaliyyət göstərilir. Hər bir mərkəzdə Tibbi-Sosial Ekspert Komissiyaları əlilliyin müəyyən edilməsi və təyin edilməsi istiqamətində vətəndaşlara xidmətlər göstərir. Mərkəzlərdə təkcə funksional yox, yardımçı xidmətlər də var. Belə ki, bu ünvanlarda bank, notarius xidmətləri təşkil olunub, eləcə də psixoloq, surdotərcüməçilik istiqamətində xidmətlər mövcuddur.

Fərid Məmmədov deyir ki, sosial sahəni tam əhatə edən bütün xidmətlərin “DOST” mərkəzlərində cəmləşdirib vətəndaşlarımıza göstərilməsinə çalışıblar.

*- Əsas məqsədimiz cənab Prezident tərəfindən qoyulmuş tapşırığa, yəni operativlik, çeviklik, şəffaflıq və sonda vətəndaş məmnunluğuna nail olmaqdır. Artıq məmnunluq dərəcəsi 98 faizi (98.2 faiz) keçib və bu o deməkdir ki, vətəndaşlarımız bizim xidmətlərdən çox məmnundurlar.*

*“DOST” Agentliyində “142” çağrı mərkəzi də fəaliyyət göstərir. Bu mərkəz kifayət qədər çağdaş formada qurulub, müasir elektron platformalardan istifadə edilərək vətəndaşlara xidmətlər göstərir. Bu ilin son 3 ayında 450 minə yaxın vətəndaş çağrı mərkəzimizə müraciət edib və bu mərkəz üzrə bu günə olan vətəndaş məmnunluğu artıq 92 faizə çatıb.*

### “Gənc”, Gümüşü”, “Korporativ”, “Distant”...

İdarə Heyətinin sədri məlumat verdi ki, “DOST” Agentliyinin geniştutumlu könüllü proqramı var və bu proqramın da 4 altproqramı mövcuddur. “Gənc DOST”, “Gümüşü DOST”, “Korporativ DOST” və “Distant DOST”. Ən geniş yayılmış “Gənc DOST” altproqramı 16-29 yaş aralığında olan yeniyetmələri və gəncləri əhatə edir. Yeniyetmələr əsasən agentliyə müəyyən ilkin layihələrlə müraciət edirlər. 18 yaşdan yuxarı gənclər isə könüllü proqramlarına birbaşa müraciət edirlər. Bu proqrama indiyə qədər 54 minə yaxın gənc müraciət edib. Həmin gənclərdən isə kadr bazası


















kimi də istifadə edilir və elə “DOST” Agentliyinin 50 faiz işçi heyəti də gənclərdən ibarətdir.

“Gümüşü DOST” altproqramı isə pensiyaçıların cəmiyyətə reinteqrasiyası, nəsillərarası təcrübə və bilik mübadiləsi, yaşlı şəxslərin asudə vaxtının aktiv təşkili və fəal yaşlanması məqsədi daşıyır.

“Korporativ DOST” altproqramında cəmiyyətdə ictimai-sosial məsuliyyət hissinin artırılması, müxtəlif təşkilatların korporativ sosial məsuliyyətlilik proqramlarının daha effektiv formada təşkili və sosial sahədəki təşəbbüslərin qarşılıqlı faydalı əməkdaşlıq çərçivəsində ehtiyac olan sahələr üzrə istiqamətləndirilməsi məqsədi daşıyır.

“Distant DOST” altproqramı məsafədən könüllülük proqramıdır. Ev şəraitində, əsasən əlilliyi olan şəxslər üçün işlənmiş bir proqramdır və bu proqram çərçivəsində müəyyən mikrolayihələr işlənir. Bu mikrolayihələr çərçivəsində əlilliyi olan şəxslər həmin proqramlarda iştirak edib müəyyən ideyalar, təşəbbüslər irəli sürürlər.

### Pandemiya sınağı

Fərid Məmmədov söylədi ki, pandemiya dövründə “DOST” Agentliyi “ASAN”la birgə ən aktiv fəaliyyət göstərən dövlət qurumlarından olub.

*- Vətəndaşlarımıza mütəmadi xidmət göstərdik. Hətta pandemiyanın tələblərinə görə vətəndaş qəbulu müvəqqəti olaraq dayandırıldıqda belə, “Çağrı” mərkəzi vasitəsilə onlayn şəkildə fəaliyyətdə olduq. Elektron platformalarımızı geniş formada inkişaf etdirdik. İlk növbədə e.sosial.az portalının inkişafı istiqamətində işlər aparıldı və o portal vasitəsilə vətəndaşlara sosial və məşğulluq sahəsində bütün növ xidmətlər göstərildi. Bundan əlavə, internet səhifəmizi təqdim edərək elektron müraciət imkanlarını genişləndirdik. Həmin dövrdə 40 mindən çox vətəndaş müraciəti sırf elektron formada qəbul olundu.*

### “DOST” Qarabağda

Fərid Məmmədov dedi ki, “DOST”un regional proqramı 2019-cu ildə təqdim olunsa da, sonradan onun yenidən işlənməsinə zərurət yarandı. 44 günlük Vətən müharibəsi və zəfərimizin nəticəsi olaraq azad edilmiş ərazilərimizdə “DOST” mərkəzlərinin təşkili planı da hazırlandı.

*- 2020-ci ilin sonunda “DOST Qarabağ Proqramı” hazırlanaraq təqdim olundu. Hazırda plana uyğun olaraq 2025-ci ilə qədər 17 regional “DOST” mərkəzinin, 55 regional “DOST” filialının yaradılması planlaşdırılır. Bu müddət ərzində Bərdə, Quba, Sumqayıt, Gəncə, Sabirabad, Masallı şəhərlərində “DOST” mərkəzlərinin açılışını planlaşdırırıq. Eyni zamanda, Naxçıvan şəhərində “DOST” mərkəzinin yaradılması ilə bağlı işlər aparılır. Bu ilin sonuna qədər isə Şuşa şəhərində Qarabağ regionunda ilk “DOST” mərkəzinin açılışı olacaq və hazırda layihə işləri gedir. Şərqi Zəngəzur iqtisadi bölgəsində həm regional “DOST” mərkəzinin açılışını (Cəbrayılda), həm də Zəngilanda “Ağıllı kənd” prinsipi ilə qurulmuş Ağalı kəndində Azərbaycanda ilk olaraq “Ağıllı DOST”, “SMART DOST” prinsipi ilə bir layihə həyata keçirəcəyik. Kəlbəcərdə, Laçında, Ağdamda, Hadrutda, Zəngilanda, Füzulidə, Qubadlıda da “DOST” filiallarının yaradılmasını, eyni zamanda ağıllı kəndlərimizdə “SMART DOST” məntəqələrinin quraşdırılmasını planlaşdırırıq.*

### Dünyaya örnək model

“DOST” Agentliyinin korporativ idarəetmə sistemi üzrə böyük nailiyyətlər əldə etdiyini vurğulayan Fərid Məmmədov bildirdi ki, hətta İSO təşkilatı (Beynəlxalq Standartlaşdırma Təşkilatı) tərəfindən 4 İSO sertifikatına layiq görülüblər. Belə ki, 4 istiqamətdə - keyfiyyətin idarə edilməsi, müştəri məmnunluğunun təmin edilməsi və şikayətlərin idarə edilməsi istiqamətində işin qurulması, korrupsiyaya qarşı idarəetmə sisteminin tətbiq olunması və korporativ sosial məsuliyyətlilik istiqamətində sertifikatlar alıblar. Bu ilin fevral ayında MDB dövlətlərinin (Müstəqil Dövlətlər Birliyi) Beynəlxalq Pensiya və Sosial Fondlar Assosiasiyasının Azərbaycanda keçirilən tədbirində iştirak edərək assosiasiya tərəfindən “MDB məkanında sosial təminat və məşğulluq sahəsində ən şəffaf, ən operativ xidmət göstərən təşkilat” kimi xüsusi diploma layiq görülüblər. 1 aprel tarixində isə Avropa Sosial Şəbəkəsi tərəfindən “Avropa Sosial Xidmətlər” mükafatını əldə ediblər.

*- “DOST” dünyada unikal modeldir. Müxtəlif ölkələrdə mövcud olan bu cür modellər iki yerə bölünür, ya sosial, ya da ki, məşğulluq sahəsində “bir pəncərə” prinsipi ilə xidmətlər göstərilir. Yəni bu ikisinin qarışıq, hibrid modeli dünyada olmayıb. Biz “DOST” modelini bu istiqamətdə işlədik və onun unikallığı budur ki, həm sosial təminat, həm də məşğulluq və əmək münasibətləri istiqamətində bir məkanda vətəndaşlara xidmət göstərir. Hətta bu modelin unikallığını nəzərə alaraq digər ölkələrdə təqdimatlar da keçirmişik. Artıq Macarıstan, Bolqarıstan kimi ölkələr modelimizə maraq göstərir. Hazırda Avropa Sosial Şəbəkəsi vasitəsilə bizim modellə İspaniya, Şotlandiya, İtaliya kimi ölkələr də maraqlanırlar. Bu isə o deməkdir ki, Azərbaycan sosial sahədə xidmətlərin göstərilməsi istiqamətində artıq qabaqcıl ölkələrlə eyni sıradadır və onlara öz təcrübəsini göstərir.*

### Könül dostları

5 mərtəbədən ibarət binanın 3 mərtəbəsində agentlik, digər 2 mərtəbəsində isə 1 saylı mərkəz fəaliyyət göstərir. Mərkəzə gələn vətəndaşlar ilk olaraq qəbul masasına müraciət edirlər. Sonra isə burada fəlaiyyət göstərən könüllülərə yaxınlaşırlar və könüllülər onları lazımi (əlillik, sosial sığorta, sosial müavinətlər, pensiya və sair) bölməyə yönləndirirlər.

Mərkəzdə könüllülərin idarə edilməsi üzrə məsul şəxs olan Humay Qasımlı məlumat verdi ki, burada könüllülər vətəndaşların qarşılanmasını, onların xidməti masalara yönləndirilməsini, aparatdan növbələrin götürülməsini, xidmət görmüş vətəndaşlardan sorğuların alınmasını həyata keçirirlər. Könüllülər “könüllü masası”nda əyləşərək vətəndaşların arayışlarının imzaladılmasında, müəyyən müraciət ərizələrinin yazılmasında və sair iştirak edirlər. Könüllülər əmək müqaviləsi əsasında 2 ay müddətə fəaliyyət göstərirlər. Sonda onlar əldə etmiş olduqları qiymətlərlə müəyyən “A”, “B”, “C” dərəcəli sertifikatlar əldə edirlər.

Bakı Dövlət Universitetinin 1-ci kurs tələbəsi, 1 saylı “DOST” mərkəzinin könüllüsü Elçin İsmayılovla elə “könüllü masası”nda həmsöhbət olduq. 18 yaşlı gənc deyir ki, mərkəzdə vətəndaşlara göstərlən fəaliyyəti bəyənərək, özü də bura müraciət edib: “Qeydiyyatdan keçdim və tez bir zamanda məni müsahibəyə, sonra isə işə çağırdılar. Bir aydır ki, işləyirəm. Bura gələn vətəndaşları qarşılayırıq, onlara növbələr veririk, daha sonra müraciət etdikləri bölməyə yönləndiririk. Vətəndaşlar gedən zaman isə sorğu götürürük, xidmətimizi bəyənib, bəyənmədiklərini soruşuruq. Vətəndaşların böyük əksəriyyəti göstərdiyimiz xidməti bəyənir və bu, bizdə böyük məmnunluq yaradır”.

Mərkəzdə “GÜMÜŞÜ könüllü” olaraq fəaliyyət göstərən 1957-ci il təvəllüdlü Tərlan Zülalovla iş başında, vətəndaşdan məmnunluğunun ölçülməsi ilə bağlı sorğu götürən zaman tanış olduq. Uzun müddət Elmlər Akademiyasının Kibernetika, Bioloji Mərkəz İnstitutunda mühəndis kimi işləmiş Tərlan Zülalov bir müddət istehsalat sahəsində, 30 ilə yaxın isə daşınmaz əmlak sahəsində çalışıb. Bu ilin fevral ayında isə təqaüdə çıxıb və elə pensiya kartını da bu mərkəzdən alıb. O dedi: “Üçüncü bahar” İctimai Birliyində aktiv olduğuma görə “DOST” Agentliyinin əməkdaşları məni tanıyırdılar və buna görə məni könüllü olaraq dəvət etdilər. Dəvətlərinə can-başla razı oldum. Buradakı ab-hava, münasibət çox xoşuma gəlir. Məmnuniyyətlə çalışıram, bacardığım yardımı edirəm. Vətəndaşlarla sorğuda, növbələrin yerləşdirilməsində, yönləndirmədə iştirak edirəm”.

### Şəffaflığın təminatı

Mərkəzdə pensiya məsələləri üzrə məsləhətçi vəzifəsində çalışan Eyyub Bayramov məlumat verdi ki, burada işləri vətəndaşların pensiya ilə bağlı təyinatları, yerində hesablanması və pensiyanı əhatə edən digər məsələlərlə bağlı onların qəbulunu həyata keçirməkdən ibarətdir: “Vətəndaş bizə yaxınlaşan zaman müraciəti şifahidirsə ona şifahi məlumat verilir, müraciəti daha dolğun şəkildədirsə ərizə ilə müraciət edir, sənədləri qəbul olunur və aidiyyəti üzrə yönləndirilir. Cavab gələn zaman vətəndaşın təqdim etdiyi telefon nömrəsinə SMS göndərilir”.

Gün ərzində orta hesabla 25-30 nəfər vətəndaş qəbul etdiklərini söyləyən məsləhətçi onu da xüsusi vurğuladı ki, qarşılarında olan monitordan əlavə, ikinci bir monitor da vətəndaşın qarşısında var ki, bununla həyata keçirilən bütün prosesləri anbaan görə bilir: “Bu isə bir növ şəffaflığın təminatıdır”.

### Vətəndaş məmnunluğu

Ülvi adlı 22 yaşlı gənc isə mərkəzə iş yerinə təqdim etmək üçün arayış almağa gəlib. Növbəsini gözləyən Ülvi deyir ki, bundan əvvəl də “DOST” mərkəzlərinə müraciət edib və bu mərkəzlərdəki müsbət aura, könüllülər və digər işçilərin göstərdikləri diqqət çox xoşuna gəlib.

Yeri gəlmişkən qeyd edək ki, iş yoldaşımız, “Azərbaycan” qəzetinin şöbə redaktoru Vətən müharibəsi iştirakçısı, baş leytenant Rəşad Baxşəliyev də elə bu günlərdə “DOST”un 6 saylı mərkəzində olub. Mərkəzlə bağlı təəssüratlarını bölüşən R.Baxşəliyev deyir ki, müharibə iştirakçısı olması ilə bağlı sənəd almaq üçün həmin ünvana müraciət edib: “İçəri girən kimi gülərüz personal məni qarşıladı və qəbul məntəqəsinə yönləndirdi. Orada da hansı məsələ ilə bağlı müraciət etdiyimi öyrənib məni lazımi şöbəyə yönəltdilər. Və növbəti personal məni əyləşəcəyim stula qədər müşayiət etdi. Orada şəxsiyyət vəsiqəmi təqdim etdim. Xüsusilə diqqətimi çəkən məqam o oldu ki, üzbəüz oturduğum əməkdaşın qarşısındakı monitordan biri də mənim qarşımda var və buradan əməkdaşın işimlə bağlı hansı prosesi həyata keçirdiyinin canlı şahidi olurdum”. Cəmi 2-3 dəqiqəyə sənədinin hazır olduğunu və imzalanıb təhvil verildiyini deyən əməkdaşımız qeyd etdi ki, yenidən onu mərkəzin əməkdaşları axıra qədər müşayiət edib yola salıblar: “Sonda isə məmnunluqla bağlı sorğuda iştirak etdim və ürəklə “məmnunluq düyməsi”ni basdım. Çox razıyam ki, Azərbaycanda belə bir mərkəz var...”

Bəli, bura vətəndaşların ən çox müraciət etdiyi və elə ən çox da razı qaldığı ünvanlardan biridir. Bura bütün müraciətlərin çevik və şəffaf həll olunduğu operativ xidmət məkanıdır. Bu mərkəzdə bütün işlər vətəndaş məmnunluğuna köklənib...

Çünki bura Prezident İlham Əliyevin vətəndaşlar üçün qurub yaratdığı dostluq ünvanıdır...

***Yasəmən MUSAYEVA,***
***“Azərbaycan”***



## Ermənilər Azərbaycanla sülh müqaviləsinin imzalanmasını özlərinin qurtuluş yolu olaraq görürlər

# «Xilas reseptimiz İlham Əliyevdədir»

Son 18 ildə Prezident İlham Əliyevin həyata keçirdiyi uğurlu xarici diplomatik fəaliyyət, tam müstəqil və prinsipial siyasətin nəticəsində Azərbaycan dünyada etibarlı və strateji tərəfdaş ölkə statusuna sahiblənib.

Məhz İlham Əliyevin hücum diplomatiyası Ermənistanın dünyada işğalçı dövlət kimi tanınmasını şərtləndirib. Azərbaycan Prezidentinin iştirak etdiyi bütün beynəlxalq toplantılarda vaxtilə Ermənistanda hakimiyyətdə olmuş Koçaryan-Sarkisyan hərbi xuntası, sonra hakimiyyətə gələn Nikol Paşinyan daim çıxılmaz vəziyyətə salınıblar.

Bütün beynəlxalq tədbirlər, sammitlər Azərbaycanın maraqlarına uyğun nəticə ilə yekunlaşıb: İlham Əliyev yüksək siyasi-diplomatik peşəkarlıqla Ermənistan rəhbərliyini daim ifşa edib, onu rəzil hala salıb və dünya erməniliyinin əsl məkrli mahiyyətini tutarlı arqumentlərlə dünya ictimaiyyətinə çatdırıb.

### “30 il kor olmuşuq, indi gözümüz açılır, reallıqları görürük”

İndi Ermənistanda anlamağa başlayıblar ki, ölkənin acınacaqlı vəziyyətə düşməsinin əsas səbəbləri 30 ilə yaxın davam edən işğalçılıq siyasəti və Azərbaycan dövlətinin həyata keçirdiyi məqsədyönlü tədbirlər olub.

Ermənistan ictimaiyyətinin, sosial şəbəkə istifadəçilərinin statuslarından, şərhləri və mövqelərindən görünür ki, onlar ölkələrinin qurtuluşunu yalnız İlham Əliyevin xilas reseptində, Azərbaycanla münasibətləri normallaşdırmaqda, sülh müqaviləsinin imzalanmasında görürlər. Artıq anlayırlar ki, onların rifahı, ümumiyyətlə, xalq olaraq varlıqları Azərbaycanla normal münasibətlərin yaradılmasından keçir.

İrina Babayan adlı biri “İnstaqram”da Paşinyan tərəfdarlarının daha çox rəy bildirdiyi xəbərə maraqlı bir şərhlə diqqət çəkib və bununla da onların kəskin tənqidi ilə üzləşib. O yazıb: “Acı reallıq olsa da, qəbul edək ki, Paşinyanın pafoslu çıxışlarına, onun aktyorluğuna yalnız Ermənistanda inanırlar. İlham Əliyev isə xilas formulunu açıq şəkildə deyir. Sülh müqaviləsinin imzalanması gələcəyimizi xilas edə bilər. 30 ildə itirdiklərimizin hesabatını kim verəcək? Sarkisyan, Koçaryan, çıxın xalqa hesabat verin!”

Armen Minosyan adlı istifadəçinin “VKontakte” sosial şəbəkəsində Prezident İlham Əliyevin şəklini paylaşaraq “Acı gerçəklik: Bizi baş nazirimizdən daha çox düşünən, Ermənistanı işıqlı günə çıxarmağın yollarını göstərən şəxsiyyət” yazması maraqlı rəylərlə qarşılanıb. Vazgen Papinyan adlı istifadəçinin bu fotoya şərhi çoxlu bəyənmə toplayıb: “İndi başa düşürük ki, illərimizi boşa vermişik. Armenin yazdığında həqiqət çoxdur. Yalançı vədlər, Qarabağ müharibəsinin yaratdığı problemlər bizi çox geri salıb. 30 il kor olmuşuq, indi gözümüz açılır, reallıqları görürük. Sülh müqaviləsinin imzalanması gələcəyimizi xilas edəcək, xoş gün görəcəyik”.

### “Üzümüz güləcək, iqtisadiyyatımız dirçələcək”

“Feysbuk” sosial şəbəkəsində çoxlu sayda izləyicisi olan səhifələr “Brüsseldəki sonuncu üçtərəfli görüş” xəbərini paylaşaraq “Müharibədən sonra Azərbaycanın getdikcə daha da güclənməsi, sülh müqaviləsinin imzalanması Ermənistan üçün nələr vəd edir” sualını ünvanlayıblar. Çox izləyici bu paylaşmanın altında rəylər yazaraq müstəqil şəkildə fikirlərini ifadə ediblər. Onların sırasında müəllim, həkim, iqtisadçı, mühəndis, biznesmen, idmançı rəylərinə də rast gəlmək mümkündür. Məsələn, ixtisasca iqtisadçı olan Stepan Balosyan adlı biri yazır: “Acı həqiqət olsa da, demək lazımdır. Azərbaycan iqtisadi cəhətdən Ermənistandan çox öndədir. İnvestorlar Ermənistandan qaçdığı halda Azərbaycana pul qoymaq üçün axın edirlər. Bu da Azərbaycanı daha da gücləndirir və belə vəziyyətdə Zəngəzur dəhlizinin açılması Ermənistan iqtisadiyyatına mütləq şəkildə öz müsbət təsirini göstərə bilər”.

“Odnoklassniki” sosial şəbəkəsində Brüsseldəki görüşlə bağlı paylaşılan xəbərə münasibət bildirən, profil səhifəsində bank sektorunda çalışdığı yazılan Henrix Qriqoryan adlı istifadəçi isə qeyd edir ki, baş nazir Nikol Paşinyan indi çox düzgün addımlar atmalıdır: “Müharibədən sonra yaranan iqtisadi böhran Ermənistanda insanları acınacaqlı vəziyyətlə üz-üzə qoyub. Evlərini satanlar, hətta intihar edənlər də olub. Paşinyan, bir vətənini sevən erməni kimi sizə müraciət edirəm ki, kommunikasiyaların bərpasını uzatmayın. Xalqın taleyini əvvəlki hökumət maraqlandırmadı. İlham Əliyevlə razılaşmaqdan başqa çarəniz yoxdu. Xilas reseptimiz İlham Əliyevdədir”.

Henrix Aramyan adlı biri isə çox maraqlı “tvit” yazıb: “Sülh müqaviləsinin imzalanması ilə nəhayət, üzümüz güləcək, iqtisadiyyatımız dirçələcək”.

### “Ermənistan son 30 ildə özünə qəsd edib”

Erməni ekspert Qriqori Vahenyan qeyd edir ki, Azərbaycanla münasibətlərin bərpası Ermənistanın sanki dünyaya yenidən gəlməsi olacaq. Onun fikrincə, müharibədəki məğlubiyyət fonunda sülh müqaviləsi imzalanmasa, Ermənistanın regional geosiyasi proseslərdən izolyasiya edilməsi daha kəskin xarakter alacaq.

Q.Vahenyan diqqəti buna yönəldir ki, bütün proseslər Ermənistanın sosial-iqtisadi cəhətdən daha böyük problemlər yaşaması fonunda baş verir. O vurğulayır ki, Ermənistan iqtisadiyyatı artıq tamamilə iflasa uğramaq üzrədir. Ölkənin dövlət statistika komitəsi də böyük iqtisadi geriləmələr yaşandığını etiraf edir: “Rəsmi açıqlamalara görə, Ermənistanda iqtisadi fəallıq daha sürətlə azalır, ölkə sənayesində ciddi geriləmə qeydə alınır. Həmçinin pərakəndə əmtəə dövriyyəsində kəskin azalma müşahidə olunur. Ölkədə son illər ərzində enerji tariflərinin kəskin yüksəlməsi və əhalinin həyat səviyyəsinin pisləşməsi vətəndaşların sosial narazılığını da artırır. Regionlar, qlobal layihələrdən kənarda qalmağımız da prosesə birbaşa təsir edir. Ermənistan qlobal kommunikasiya layihələrindən kənarda qalmaqla son 30 ildə özünə qəsd edib. Ölkəmiz coğrafi baxımdan qlobal kommunikasiyaların tərkib hissəsi ola bildiyi halda, bu şansı itirmişdi. Sülh müqaviləsindən sonra Ermənistan da qazanan tərəf olacaq”.

### Sülh müqaviləsinin uzadılması çöküşü daha da sürətləndirir

Ermənilər də etiraf edirlər ki, ötən dövr Azərbaycanla normal münasibətlər yaratmadan Ermənistanın bir dövlət olaraq mövcudluğunu davam etdirməsinin mümkün olmadığını çox aydın şəkildə göstərdi. Bu gün müasir Azərbaycandan bəhs edərkən onu xarakterizə edən əsas cəhətlər sırasında ilk olaraq dünyanın ən sürətlə inkişaf edən, davamlı nailiyyətlərə imza atan ölkəsi olmasına xüsusi diqqət yetirilir. Azərbaycan Prezidenti İlham Əliyevin rəhbərliyi ilə qazanılan bu uğurlar ölkəmizin beynəlxalq miqyasda da mövqeyini əhəmiyyətli dərəcədə gücləndirən faktorlardan biri kimi çıxış edir.

Bütün bunlara paralel olaraq uğurlu xarici siyasət Azərbaycanı beynəlxalq ictimaiyyətə daha yaxşı tanıtdırmaqla yanaşı, dünyanın diqqətini ölkəmizə yönəldib. Azərbaycanın beynəlxalq aləmdə nüfuzlu və etibarlı dövlətə çevrilməsinin nəticəsidir ki, indi ölkəmizlə qarşılıqlı əməkdaşlığa can atanların sayı durmadan artır.

Ölkəmizdə əldə edilən bu uğurlar fonunda Ermənistana nəzər saldıqda tamam əks mənzərə müşahidə olunur. Bunun ümdə səbəblərindən biri isə 30 il davam edən işğal siyasəti, bu gün isə sülh müqaviləsinin uzadılmasının yubadılmasıdır.

Aydındır ki, sülh müqaviləsini imzalamayacağı təqdirdə qarşıdakı dövr ərzində Ermənistanı daha böyük problemlər gözləyir. Azərbaycan həm iqtisadi, həm hərbi, həm də demoqrafik cəhətdən Ermənistanı üstələməkdə davam edir. Ölkəni tərk edənlərin sayı sürətlə artır. İndi görülən bütün tədbirlərə baxmayaraq, ölkədə əhalinin sayı sürətlə azalmaqda davam edir, xaricə köçənlər isə durmadan artır. Əhalinin artım səviyyəsinin get-gedə aşağı düşməsi erməni sosioloqlarının hakimiyyətə ünvanlanmış xəbərdarlıqlarının çoxalmasına səbəb olub. Ancaq real vəziyyət Ermənistanın faktiki olaraq demoqrafik böhran yaşadığını, bu problemin həlli perspektivinin olmadığını göstərir.

Ermənistanda bu sahədə araşdırma aparan yerli və beynəlxalq təşkilatlar da hesab edirlər ki, proseslərin real gedişi sözügedən ölkədə insan resursunun sürətlə tükəndiyini meydana çıxarır. Bununla yanaşı, Ermənistan iqtisadiyyatında miqyası hər gün genişlənməkdə olan tənəzzül ölkənin xaricdən asılılığını daha da artırır. Eyni zamanda, Ermənistanın xaricdən götürdüyü borcların miqdarı sürətlə artır. Bunun nəticəsində işğalçı ölkənin xaricdən maliyyə, iqtisadi, siyasi asılılığı getdikcə daha da güclənir. Belə şəraitdə Ermənistanın formal müstəqilliyini davam etdirə biləcəyi böyük sual altındadır.

Faktiki olaraq məğlub ölkədə yaranmış iqtisadi böhran, siyasi ziddiyyətlər, həmçinin işsizlik, baş alıb gedən korrupsiya halları, yoxsulluq səviyyəsi Ermənistanı sürətlə çökdürür. İstər köhnə, istərsə də yeni hakimiyyətin yürütdüyü məntiqsiz, ədalətsiz və reallıqdan uzaq siyasətinə görədir ki, ölkənin qonşu dövlətlərlə, xüsusilə Azərbaycan və Türkiyə ilə münasibətlərinin yaxşılaşdırılmasında heç bir irəliləyiş hiss olunmur. Yeganə qurtuluş yolu İlham Əliyevin 5 şərtini özündə ehtiva edən sülh müqaviləsini imzalamaq və Azərbaycanla, Türkiyə ilə normal münasibətlərə qayıtmaqdan keçir. Əks təqdirdə, Ermənistanın çöküşü davam edəcək və əhalisinin sosial durumu daha acınacaqlı vəziyyətə düşəcək.

***Elçin CƏFƏROV,***
***“Azərbaycan”***

# Azərbaycan dünya üçün əhəmiyyətli tranzit ölkəyə çevrilib

Son illər ölkəmizdə mükəmməl nəqliyyat infrastrukturu yaradılıb. Təqdirəlayiq haldır ki, nəqliyyatın bütün sahələrində yeni layihələr həyata keçirilib. Azərbaycanın zəngin yol infrastrukturu beynəlxalq təşkilatlar tərəfindən də yüksək qiymətləndirilib.



Çoxsaylı avtomobil yollarının çəkilişi həyata keçirilib. Əvvəlki illərdə beynəlxalq və ölkə əhəmiyyətli yollar tikilirdisə, son dövrlər kəndarası avtomobil yollarının çəkilişi də sürətlə icra edilir. Təsadüfi deyil ki, Davos Ümumdünya İqtisadi Forumunun hesabatında avtomobil yollarının keyfiyyətinə görə Azərbaycan dünyada 34-cü yerdədir.

Prezident İlham Əliyevin tapşırığı ilə paytaxtda yeni yolların salınması, yolötürücülərin, yeraltı və yerüstü piyada keçidlərinin, eləcə də mövcud yol qurğularının təmiri və yenidən qurulması sahəsində mühüm işlər görülür. Bu günədək görülən işlər nəticəsində paytaxtda və ətraf qəsəbələrdə yeni alternativ yol infrastrukturu formalaşdırılıb, şəhərin mərkəzindən bir sıra istiqamətlərə, o cümlədən ətraf qəsəbələrə rahat və sürətli gediş-gəliş təmin edilib.

Azərbaycanda beynəlxalq əhəmiyyətli dəmir yollarının tikintisi və yenidən qurulmasına da mühüm əhəmiyyət verilir. Bunun sayəsində dəmir yolu vasitəsilə yükdaşımaların həyata keçirilməsində də önəmli ölkəyə çevrilirik. Ölkəmiz müstəqilliyini bərpa etdikdən sonra bu sahədə region və dünya üçün əhəmiyyət daşıyan bir sıra layihələrin reallaşmasına nail olub.

Prezident İlham Əliyevin rəhbərliyi ilə dünyanın 100 iri layihəsindən biri sayılan Bakı-Tbilisi-Qars (BTQ) dəmir yolunun - Azərbaycanın növbəti beynəlxalq əhəmiyyətli layihəsinin icrası həyata keçirilib. BTQ iqtisadi layihədir, yəni əsas məqsəd Şərqdən, xüsusən Çindən Avropaya yük və sərnişinlərin daşınmasıdır.

2017-ci il noyabrın 1-də Tehranda Bakı-Tbilisi-Qars dəmir yolunun əhəmiyyətini artıran növbəti addım atıldı. Belə ki, Azərbaycan, İran və Rusiya prezidentlərinin qatıldığı üçtərəfli zirvə görüşündə region üçün əhəmiyyətli olan digər məsələlərlə yanaşı, “Şimal-Cənub nəqliyyat dəhlizi”nin istifadəyə verilməsi də müzakirə edildi. Bu yeni transmilli layihənin gerçəkləşməsi Bakı-Tbilisi-Qars dəmir yolunun əhəmiyyətini daha da artıracaq. Yəni Şimaldan və Cənubdan gələn yüklər BTQ dəhlizi vasitəsilə Asiya və Avropa ölkələrinə daşınacaq. Belə hal BTQ-nin əhatə dairəsinin daha da genişlənməsi və yük dövriyyəsinin artması deməkdir.

Şübhəsiz, hər bir ölkənin tranzit imkanlarına malik olması onun sabit gəlir əldə etməsində mühüm rol oynayır. Azərbaycanın qarşıdakı illərdə bu layihələrin icrasından yüksək gəlir götürəcəyi məlumdur.

Bununla yanaşı, Azərbaycan beynəlxalq əhəmiyyətli digər bir layihənin də reallaşmasında önəmli oyunçuya çevrilib. 2000-ci ilin 12 sentyabr tarixində Rusiya, İran və Hindistan arasında imzalanmış hökumətlərarası sazişə əsasən, “Şimal-Cənub” nəqliyyat dəhlizinin təməli qoyuldu. Azərbaycan bu prosesin mərkəzində özünə yer aldı. Belə ki, “Şimal-Cənub”, “Şərq-Qərb” nəqliyyat dəhlizlərinin qovuşduğu coğrafi məkan Azərbaycandır. Bu o deməkdir ki, Şimal və ya Cənub dəhlizindən gələn yüklər Azərbaycan vasitəsi ilə həm Şərqə, həm də Qərbə göndərilə bilər.

“Şərq-Qərb” nəqliyyat dəhlizi kimi “Şimal-Cənub” dəhlizi də region və regiondan kənar ölkələrin diqqətini özünə cəlb edib. Bunun nəticəsidir ki, Azərbaycanla yanaşı, Belarus, Bolqarıstan, Ermənistan, Qazaxıstan, Qırğızıstan, Oman Sultanlığı, Tacikistan, Türkiyə və Ukrayna da bu layihəyə qoşularaq onu qanuniləşdirmək üçün ratifikasiya edib.

Həmin ölkələrin “Şimal-Cənub” nəqliyyat dəhlizinə qoşulmaq istəməsi başadüşüləndir. Belə ki, dəhlizin yaradılmasında əsas məqsəd Hindistandan Rusiyaya, eləcə də Şimali və Qərbi Avropaya gedən yüklərin çatdırılma müddətinin azaldılmasıdır. Qeyd edək ki, hazırkı marşrut üzrə yüklərin çatdırılma müddəti 6 həftədən artıqdır. Mütəxəssislərin hesablamalarına görə, “Şimal-Cənub” nəqliyyat dəhlizi vasitəsilə yüklərin daşınma müddətinin 3 həftə olması gözlənilir.

Dövlətimizin başçısı “Şimal-Cənub” nəqliyyat dəhlizinin ölkəmiz üçün xüsusi əhəmiyyət daşıdığını vurğulayaraq demişdir: “Keçən il “Şimal-Cənub” nəqliyyat dəhlizi ilə daşınan yüklərin həcmi 10 dəfə artıb. Bu sahədə də çox böyük işlər görülür. Biz Azərbaycanın daxilində dəmir yolunun yenidən qurulması prosesinə başlamışıq. Bu il Bakı-Yalama dəmir yolunun yenidən qurulması davam etdiriləcək. Bakı-Astara dəmir yolunun yenidən qurulması üçün bu ilin investisiya proqramında da vəsait nəzərdə tutulub. Bunlar “Şimal-Cənub” dəhlizi üçün çox önəmli layihələrdir. Düzdür, bu dəmiryolu var, ancaq sürət aşağıdır”.

Bu marşrutla yüklərin Şimali və Qərbi Avropa-Rusiya Federasiyası, daha sonra üç istiqamətdə - Qafqaz-Fars körfəzi, Mərkəzi Asiya-Fars körfəzi, Xəzər dənizi-İran İslam Respublikası-Fars körfəzi marşrutları ilə həyata keçirilməsi nəzərdə tutulur. Bu sxemdən də aydın görünür ki, həmin marşrutda Azərbaycan önəmli rol oynayır. Xüsusilə nəhəng Rusiya, Hindistan və İran bazarı üçün malların buradan daşınması əhəmiyyətlidir. Çünki bu, daha çox yükdaşınma deməkdir.

Mütəxəssislərin ilkin hesablamalarına görə, bu dəhliz fəaliyyətə başlayandan sonra Azərbaycan ərazisindən daşınan yüklərin birinci mərhələdə 3 milyon, ikinci mərhələdə 5-8 milyon, üçüncü mərhələdə isə15 milyon ton olması gözlənilir.

Dəmir yolunun Yalama-Bakı sahəsində 96 kilometr, Bakı-Astara sahəsində 60 kilometr dəmir yolu xətti əsaslı təmir olunmalı, 36 kilometr sahilbərkitmə işləri görülməlidir. Bu istiqamətdə müəyyən işlər görülüb və hazırda davam etdirilir.

Azərbaycan dəmir yolunun İran dəmir yolları şəbəkəsi ilə birləşdirilməsi üçün Astara (Azərbaycan) - Astara (İran) dəmir yolu xəttinin, Astaraçay üzərindən dəmir yolu körpüsünün inşası nəzərdə tutulur. Marşrutun işlək vəziyyətə gəlməsi üçün Azərbaycan tərəfi 8,4 kilometr dəmir yolu xəttinin çəkilməsini, hər biri 1050 metr olan 4 stansiya yolunun tikintisini aparacaq.

Prezident İlham Əliyev “Şimal-Cənub və Şərq-Qərb” layihələrinin əhəmiyyətini yüksək qiymətləndirərək demişdir: “...Vaxtilə Azərbaycanın təşəbbüsü ilə başlanan və bizim böyük maliyyə dəstəyimizlə reallaşan Bakı-Tbilisi-Qars dəmir yolu xətti çox mühüm əhəmiyyət daşıyır. Mən əvvəllər də, biz dəmir yolunun təməlini qoyanda da bunu demişəm ki, bu layihə dünyanın nəqliyyat xəritəsini yenidən tərtib edir və bu layihə açıq dənizə çıxışı olmayan Azərbaycanı beynəlxalq nəqliyyat mərkəzinə çevirəcəkdir... “Şimal-Cənub” və “Şərq-Qərb” nəqliyyat dəhlizinin iştirakçıları bir çox ölkələrdir. Ancaq onların arasında yeganə ölkə Azərbaycandır ki, hər iki layihədə iştirak edir və hər iki layihənin reallaşmasına öz dəyərli töhfəsini vermişdir. Bu, bizə gələcəkdə həm siyasi, həm iqtisadi dividendlər gətirəcək, artıq gətirir”.

Məlumdur ki, hazırda Çin dünyanın nəhəng ixracatçılarındandır. Bu ölkə dünya bazarına ildə 2 trilyon 400 milyard dollar dəyərində məhsul ixrac edir. Bu səbəbdən mallarını dünya bazarına ixrac etmək üçün yeni nəqliyyat marşrutlarının yaradılması barədə təşəbbüs irəli sürüb. Həmin ölkə tərəfindən “Bir kəmər, bir yol” strategiyası üzrə Avropa ilə mal mübadiləsinin əsas marşrutlarından biri “Şərq-Qərb nəqliyyat dəhlizi”dir ki, bu sahədə də ölkəmiz mühüm rol oynayır.

İndi dünya ölkələri həmin marşrutun əldə edilməsi üçün qızğın siyasi və iqtisadi mübarizəyə başlayıb. Ona görə ki, bu yüklərin daşınması hansı ölkədən keçərsə, həmin dövlətlər milyardlarla dollar gəlir əldə edəcək. Prezident İlham Əliyev uzaqgörənliklə bunun üçün vaxtında lazımi tədbirlər görüb. Belə ki, bizim Xəzər dənizində yükdaşıyan gəmilərdən ibarət nəhəng donanmamız var. Donanmanın tərkibində Xəzərin şərq sahilindən sol sahilinə yük daşımaq üçün bərə gəmilərimiz kifayət qədərdir. İkincisi, Ələt Beynəlxalq Ticarət Limanında nəhəng gəmilərin yan alaraq yükünü doldurulub-boşaldılması üçün hər cür şərait yaradılıb. Üçüncüsü isə, bu yüklərin Avropaya daşınması üçün Bakı-Tbilisi-Qars dəmir yolu çəkilib. Qeyd etdiyimiz kimi, bu yolun çəkilməsinin siyasi təşəbbüsçüsü Prezident İlham Əliyevdir. Maliyyələşdirilməsini də Azərbaycan dövləti həyata keçirib.

Bu gün Avropa ilə Asiya arasında illik ticarət dövriyyəsi 1 trilyon dollara yaxındır. Bir daha vurğulayaq ki, həmin ticarət yüklərini öz ölkələri vasitəsilə ötürmək uğrunda dövlətlər bir-biri ilə ciddi rəqabət aparır. Ölkələr arasında gedən rəqabətdə siyasi amillər deyil, iqtisadi amillər əsas rol oynayacaq. Bu səbəbdən də ölkəmizin həmin rəqabətdə üstünlük qazanacağına şübhə etmirik. Belə ki, Çinlə Türkiyə arasında yükdaşımaların müddəti bir aydan 12 günə enib. Əlbəttə, daşınmanın belə qısalmasında Azərbaycanın vaxtında icra etdiyi nəhəng infrastruktur layihələri mühüm əhəmiyyət kəsb edir. Bizim yüklərin Xəzərin şərqindən qərbinə və ya əksinə daşınması üçün hər cür imkanımız var. Bununla yanaşı, gəmilərin yan ala biləcəyi hər cür imkanlara sahib Ələt Beynəlxalq Ticarət Limanı da fəaliyyət göstərir. Başlıcası isə, müasir dünya standartlarına cavab verən Bakı-Tbilisi-Qars dəmir yolu yükləri vaxtında Avropaya çatdırma qabiliyyətinə malikdir. Prezident İlham Əliyevin uzaqgörənliyi sayəsində ölkəmiz Şərqlə Qərb, Şimalla Cənub nəqliyyat dəhlizinin qovşağına çevrilib. Ölkəmiz mühüm infrastruktur layihələrini rəqiblərimizdən öncə yaratdığı üçün böyük üstünlüyə sahibdir.

Azərbaycanın 44 günlük Vətən müharibəsindəki qələbəsi yeni reallıqlar yaratmışdır. Gələcəkdə Zəngəzur dəhlizi ilə daha çox yük göndərmək mümkün olacaq. Bu dəhliz vasitəsilə Azərbaycandan Türkiyəyə keçirməklə yükləri tez bir zamanda Avropa və Yaxın Şərq ölkələrinə çatdırmaq imkanı yaranacaq. Bir sözlə, Zəngəzur dəhlizi Azərbaycanın tranzit imkanlarını daha da genişləndirəcək.

Ermənistanın hər bir vəchlə buna müqavimət göstərməsi isə faydasızdır. Azərbaycan bu məsələni regionda söz sahibi olan ölkələrlə çoxdan həll edib. Ötən il oktyabrın 26-da Azərbaycan və Rusiya prezidentləri ilə Ermənistanın baş naziri arasında Soçidə keçirilən görüşün nəticəsi də bunu aydın göstərir.

İşğaldan azad edilən ərazilərdə dəmir yolu infrastrukturunun yenidən qurulmasına və təzə xətlərin çəkilməsinə artıq start verilib. Hazırda Bərdə-Ağdam, Horadiz-Ağbənd dəmir yolu xətlərinin yenidən qurulması və Füzuli-Şuşa təzə dəmir yolu xəttinin inşası istiqamətində işlər davam edir.

Prezident İlham Əliyev tərəfindən təməli qoyulmuş Horadiz-Ağbənd dəmir yolu xəttinin uzunluğu 110,4 kilometrdir. Qeyd edək ki, bu xətlərin çəkilməsi Zəngəzur dəhlizinin fəaliyyətə başlaması üçün ilkin şərtdir. Bu səbəbdən də Horadiz-Ağbənd dəmir yolunda işlərin sürətlə həyata keçirilməsinə xüsusi önəm verilir. Birxətli dəmir yolu üzərində 8 stansiya tikiləcək. Bununla bərabər, layihə çərçivəsində ümumilikdə 300-ə yaxın süni mühəndis qurğusunun tikintisi planlaşdırılıb.

Düşmənin bir hissəsini dağıtdığı Bərdə-Ağdam dəmir yolunun bərpası istiqamətində də iş aparılır. Əvvəlcə yolun fəaliyyət göstərən Bərdə və Köçərli stansiyaları təmir ediləcək, Təzəkənd və Ağdam stansiyaları isə yenidən tikiləcək. Qeyd edək ki, Qarabağın və Şərqi Zəngəzurun coğrafi şəraiti, ərazidə dağlıq yerlərin çox olması dəmir yollarının çəkilişi üçün çətinlik yaradır. Üstəlik, bu yerlər düşmən tərəfindən minalanıb.

Bütün bunlara baxmayaraq, qatarlar Qarabağın zirvəsinə qalxacaq. İlk dəfə Füzulidən Şuşaya 83,4 kilometr uzunluğunda dəmir yolu çəkiləcək və bölgənin inkişafına öz töhfəsini verəcək. Çünki qış aylarında qarın çox yağdığı və yolların buz bağladığı dövrlərdə avtomobil yolu ilə hərəkəti dayandırmaq məcburiyyəti yaranır. Dəmir yolu isə müstəsna hallarda işləməyə bilər.

Hazırda görülən işlərə paralel olaraq, Qarabağın yüksəklikdə yerləşən Kəlbəcər bölgəsinə dəmir yolu xətlərinin çəkilməsi araşdırılır. Dəliməmmədli-Kəlbəcər dəmir yolu layihəsinin ilkin konseptual variantı hazırlanıb. Şuşa və Kəlbəcərə dəmir yolu xəttinin çəkilməsi Qarabağ və Şərqi Zəngəzur bölgələrinin inkişafında müstəsna rol oynayacaq. Bu yolun hərbi-strateji əhəmiyyəti də böyükdür.

***Rüstəm KAMAL,***
***“Azərbaycan”***

# Musiqili Teatrda yeni tamaşa - “Sevənlərindi dünya”

Azərbaycan Dövlət Akademik Musiqili Teatrında altı aydır ki məşqləri gedən yeni tamaşa “Sevənlərindi dünya” adlanır.





AZƏRTAC xəbər verir ki, yeni səhnə əsərinin libretto müəllifi şair - dramaturq Əmir Pəhləvan, rejissoru Əməkdar incəsənət xadimi Oruc Qurbanov, bəstəkarı Əməkdar incəsənət xadimi Gövhər Həsənzadə, quruluşçu dirijoru Fəxrəddin Atayevdir.

Tamaşada rolları Aydan Qurbanova, Sübhan Rüstəmov, Ələkbər Əliyev, Telnaz Hüseynova, Nərmin Əliyeva və Gülçöhrə Abdullayeva ifa edirlər.

Əsərin ana xəttini iki gəncin saf və ülvi məhəbbəti təşkil edir. Bu məhəbbət çağdaş dünyamızın təlatümlərlə dolu bir vaxtında barışın, sülhün, bərabərliyin və azadlıq ideyalarının müqəddəsliyinə və insanlığın aliliyinə köklənən əsl həyat macərasıdır. Tamaşada aktyor və orkestr məşqləri - rəssam (Vüsal Rəhim) işi bitmək üzrədir. Hər bir personaj və musiqi parçaları müasirləşən dünyamızın ruhunu əks etdirməklə bərabər gənc nəslin yeni dünyagörüşünün formalaşmasında öz müsbət təsirini göstərməyə xidmət edir.

Ümid edirik ki, teatrsevərlər və çoxsaylı tamaşaçılar musiqili librettoya yaxın zamanlarda baxmaq imkanı əldə edəcəklər.

# Vətən mənim hər anım...

## “Şuşa ili” çərçivəsində tədbir keçirilib

Azərbaycan Respublikasının Prezidenti yanında Dövlət İdarəçilik Akademiyasında “Şuşa ili” çərçivəsində tədbir keçirilib.



Xocavənd Rayon İcra Hakimiyyəti, Kürdəmir Regional Mədəniyyət İdarəsinin və Xocavənd rayon Tuğ kənd musiqi məktəbinin təşkilatçılığı ilə keçirilən tədbirdə “Vətən mənim hər anım” konsert proqramı təşkil olunub.

Tədbirdə çıxış edən akademiyanın rektoru Urxan Ələkbərov bildirib ki, Müzəffər Ali Baş Komandan İlham Əliyevin qətiyyəti sayəsində Azərbaycan Ordusu tarix yazaraq 30 illik işğala son qoydu, ərazi bütövlüyümüzü təmin etdi. 44 günlük Vətən müharibəsində Azərbaycan şanlı zəfər qazandı. 2022-ci ilin “Şuşa ili” elan olunduğunu xatırladaraq bu tədbirin akademiyada keçirilməsindən fərəh duyduğunu bildirib.

Daha sonra Tuğ kənd musiqi məktəbinin müəllim və şagird kollektivinin xüsusi günlərə həsr olunmuş çıxışları ilə bağlı fotolent nümayiş olunub və musiqi məktəbinin fəaliyyəti barədə məlumat verilib.

Tədbir “Vətən mənim hər anım” bədii kompozisiya ilə davam edib. Bu hissədə məktəbin müəllim və şagirdləri müxtəlif milli musiqilər ifa ediblər.

***Əsmər QARDAŞXANOVA, İlham BABAYEV (foto), “Azərbaycan”***

# Makron, yoxsa Marin Le Pen?!

## Bu gün Fransada keçirilən prezident seçkilərində əsas mübarizə iki namizəd arasında olacaq

Bu gün Fransada prezident seçkiləri keçirilir. Fransızlar Avropa İttifaqının ikinci böyük iqtisadiyyatını və onun BMT Təhlükəsizlik Şurasında daimi yeri olan yeganə üzvünü kimin idarə edəcəyini müəyyənləşdirəcək seçkilərin birinci mərhələsində səs verəcəklər. Proqnozlara və sorğuların nəticələrinə görə, əsas mübarizə Fransa lideri Emmanuel Makronla ifratsağçı namizəd Marin Le Pen arasında gedəcək.




Hazırkı Prezident Emmanuel Makron ictimai rəy sorğularının favoritidir. Lakin sorğularda onun üstünlüyü 2017-ci ildə keçirilmiş seçkilərdən xeyli azdır. Makronun arxasınca Marin Le Pen və onun “Milli birlik” komandası gəlir.

Həftənin əvvəlində Marin Le Pen Emmanuel Makrona qarşı ehtimal olunan ikinci turla bağlı ictimai rəy sorğusunda 48,5 faiz səs qazanıb. Bu, onun siyasi fəaliyyəti dövründə ən yüksək nəticədir.

Bəzi sosioloqlar hesab edirlər ki, son aylar, Makronun az qala, öncədən ehtimal olunan qələbə qazanma ehtimalı indi şübhə altındadır. Eyni sorğular göstərir ki, enerji daşıyıcılarının qiymətinin kəskin artması və inflyasiyanın artması fonunda alıcılıq qabiliyyəti seçicilərin əsas qayğısına çevrilib.

### Makronun islahatları: Fransanı necə və niyə dəyişdirmək istəyir?

Seçicilər Makronun iqtisadi siyasətindən narazı olsalar da, ölkədə işsizlik son illərdə ən aşağı səviyyədədir və rəyi soruşulanlar onun opponentlərindən hansınınsa bundan daha çoxuna nail ola biləcəyini düşünmürlər.

Le Pen 62 yaş pensiya ərəfəsini saxlamaq və 20 yaşınadək əmək fəaliyyətinə başlayan insanlar üçün 60 yaşa aşağı salmaq istəyir.

Makron hesab edir ki, ağır və ya təhlükəli işlərdə çalışanlar istisna olmaqla, pensiya yaşının artırılması pensiya sisteminin səmərəli olması və aşağı pensiyaların artırılması üçün zəruridir.

Hətta o, uğur qazansa belə, azacıq üstünlüklə qələbə çalmağı gələcək islahatların aparılması imkanlarına da pis təsir göstərə bilər, həm də ona görə ki, onun bu yaxınlarda keçirilmiş bütün yerli seçkilərdə məğlubiyyətə uğramış mərkəzçi “İrəli, Respublika” Partiyası iyun ayında baş tutacaq parlament seçkilərində səsləri itirə bilər. Xatırladaq ki, keçmiş iqtisadiyyat naziri, heç kimə məlum olmayan Makron 2017-ci ildə Fransanın ən gənc prezidenti olub. Bundan təxminən bir il əvvəl isə o, “İrəli, Respublika” adlı mərkəzçi siyasi hərəkatını təsis etmiş və ənənəvi partiyalara meydan oxumuşdu.

Beş il əvvəl Makron Le Penə asanlıqla qalib gəldi, lakin o, Fransa siyasətində hakim olmağa davam etsə də, bu seçkilərdə 44 yaşlı prezidenti ifratsağçı opponentə qarşı sərt mübarizə gözləyir.

Prezidentlik dövründə Makron bir sıra islahatlar keçirib, vergiləri azaldıb və terrorizmlə mübarizə üçün sərt təhlükəsizlik qanunları tətbiq edib. Lakin o, 2018-ci ildə, “sarı jiletlər”in iğtişaşlarının bir neçə həftəsindən sonra yanacaq üçün təklif olunan vergidən imtina etməli olub.

Makronun 2022-ci il üçün işsizlik səviyyəsini 10 faizdən 7 faizə salmaq vədi pandemiya üzündən yerinə yetirilməmiş qalıb. Düzdür, hazırda işsizlik 7,4 faizə endirilib.

İndi o, beş il üçün tam məşğulluq vəd etməklə yanaşı, hər il ev təsərrüfatları və biznes üçün vergilərin 15 milyard avro azaldılması və pensiya yaşının tədricən 62-dən 65-ə artırılması hesabına öz proqramının ödənilməsini təklif edir.

### Le Pen Aİ-ni Millətlər İttifaqına çevirmək istəyir

53 yaşlı Marin Le Pen 2017-ci il seçkilərində ikinci yeri tutub və bu gün Makronun əsas rəqibidir. Onun soyadı və ailəsi onilliklər ərzində Fransada ifrat sağçıların sinonimi olub. Amma hazırda ifratsağçı elektorat başqa namizədin - Erik Zemmurun düşərgəsinə köçüb. Bu, Marin Le Penin siyasi marginal nüfuzundan qurtulmasına imkan verib. 2017-ci ildə keçirilmiş prezident seçkisində məğlubiyyətdən sonra o, “Milli Cəbhə” Partiyasını “Milli Birlik”adlandırıb.

Prezident ambisiyalarının həyata keçirilməsi üçün ciddi mübarizəyə qoşulmazdan əvvəl Marin Le Pen Avropa Parlamentinin deputatı olub. Onun partiyası ardıcıl olaraq antiimmiqrasiya və anti-Avropa mövqeyi tutur.

Marin Le Pen dəfələrlə Rusiyaya qarşı Avropa sanksiyalarının ləğvinə çalışıb.

Bu seçkilərdə Le Pen immiqrasiyanın məhdudlaşdırılması haqqında referendum keçirərək sığınacaq hüququndan sui-istifadə edilməsini dayandırmağı və ictimai yerlərdə hicab geyilməsini qadağan etməyi qarşısına məqsəd qoyub. O, 62 yaş pensiya astanasını saxlamaq və 20 yaşınadək əmək fəaliyyətinə başlamış insanlar üçün bunu 60 yaşa salmaq istəyir. Le Pen yaşı 30-dan az olan şəxslər üçün gəlir vergisini ləğv etmək və əməkdaşları üçün minimum əmək haqqını 10 faiz artıran şirkətləri vergi ödənişlərindən azad etmək niyyətindədir. O, həmçinin Avropa İttifaqını bu qurumun ümumi qanunları ilə bağlı olmayan Millətlər İttifaqına çevirmək istəyir.

### Digər namizədlər

Spektrin sol hissəsində ən məşhur namizəd Jan-Lük Melanşondur. O, təşviqat veteranı, Emmanuel Makronun iqtisadi siyasətinin daimi tənqidçisi və “sarı jiletlər”in görkəmli tərəfdarıdır.

Parisin də daxil olduğu İl-de-Frans regional şurasının ilk qadın rəhbəri Valeri Pekress “Respublikaçılar” Partiyasının namizədidir. O, özünü “Marqaret Tetçerin üçdə biri və Angela Merkelin üçdə ikisi” kimi təsvir edir. Bir müddət əvvəl qanunsuz olaraq Xankəndiyə səfər edib.

63 yaşlı ifratsağçı jurnalist, yazıçı və teleşərhçi, immiqrasiya və İslamın əleyhdarı, ermənipərəst Erik Zemmur “Rekonkista” Partiyasının namizədidir. Bir vaxtlar o, Marin Le Penin ciddi rəqibi kimi görünürdü, lakin həddən artıq sərt ritorikaya görə səsləri itirdi.

“Qrinpis”in keçmiş fəalı və 2009-cu ildən Avropa Parlamentinin üzvü Yannik Jadonun namizədliyi Yaşıllar Partiyasından irəli sürülür. 54 yaşlı Jado 1500 avro məbləğində minimum əməkhaqqı təyin etmək istəyir.

Fabyen Russell 15 il ərzində kommunistlərin ilk namizədidir. O, Fransanın böyük banklarını milliləşdirməyə və dövlət qulluqçularının maaşlarını artırmağa çağırır, ayda 1500 avroya qədər minimum əməkhaqqını artırmaq istəyir.

Cəmi beş il əvvəl Prezident Fransua Ollandın yanında ölkəni idarə edən, hazırda isə dərin tənəzzülə uğrayan sosialistlərin namizədi, Parisin meri Ann İdalqo 2017-ci ildə seçkidə yalnız 5 faiz səs toplaya bilib.

Parisin ətrafındakı məktəb müəllimməsi Natali Arto üçüncü dəfədir ki, ifratsolçu “Fəhlə mübarizəsi” Partiyasından prezident postuna iddia edən namizəddir. Lakin o, sorğularda 1 faiz səs belə qazanmır.

Filip Putu isə keçmiş avtomobil zavodunun işçisidir. O, “Yeni antikapitalist partiya”nı dəstəkləyir və ölkədəki sərvətin yenidən bölüşdürülməsinə tərəfdardır.

***Rizvan CƏFƏROV, “Azərbaycan”***

# “Gazelli Art House” Aida Mahmudovanın yeni əsərlərini təqdim edib

“Gazelli Art House” Aida Mahmudovanın Alister Hiksin kuratorluğu ilə keçirilən “Liminality” solo-sərgisində yeni əsərlərini böyük məmnuniyyətlə təqdim edib.



AZƏRTAC xəbər verir ki, A.Mahmudova sürətlə müasirləşən ölkəsinin unudulmuş və əlçatmaz guşələrindən bəhs edərək incəsənətdən bu misilsiz mühitdə mövcud olmaq və yaşamaq üçün stabillik hissini ifadə etmək məqsədilə istifadə edir. İncəsənət sərhəd tanımır və rəssama fərqli kommunikasiya üsullarından istifadə etmək imkanı verir.

Rəssam məkan anlayışını dərindən araşdırır. Mahmudova bunu belə izah edir: “Biz məkandayıq, paralel dünyalarda mövcudluğumuzu saxlayırıq və məkan bizim daxilimizdədir”. Məkan reallıq və illüziyalar haqqında təsəvvürləri formalaşdıraraq insanın maddi və ya mənəvi olduğu yer ola bilər. Mark Ojenin “yersizlik” konsepsiyasında insan münasibətlərinin insan qavrayışları ilə kəsişmə nöqtəsi kimi keçid və ya hüdudların kandarında olmaq ideyası qismən nəzərdən keçirilir.

Mahmudova şəxsi və ictimai, yer və yersizlik, məkan və məkansızlıq ideyalarının qarşılaşdırılması ilə məşğuldur. Mark Ojenin yersizlik konsepsiyası keçid ideyasını araşdırır, məkansızlıq ziddiyyətli “ev” və mənsubiyyət hissinə əks gələrək “yuva qurmaq” ideyasını inkar edir. Bu məkan hər kəs üçün bərabər şəkildə yad olsa da, kimsə özünü burda “nisbətən rahat” hiss edə bilər.

Mahmudova sərhədlər və ya əksliklərin qarşılaşması, hüdudların aşılmasını işıqlandıraraq keçidin baş verdiyi və istiqamətin itirildiyi məkanları araşdırır. Əsası Arnold Van Gennep tərəfindən qoyulmuş keçid mərasimləri (1909) insan həyatının üçmərhələli keçiddən ibarət olduğunu ifadə edir.

Burada sərhəd keçidin özüdür. Sərhədlərin üfüqü həm məkan, həm də zaman ölçülərinə malikdir və müxtəlif subyektlərə - insanlara, icmalara, cəmiyyətlərə və sivilizasiyalara şamil edilə bilər. Təbiət isə, əksinə, stabillik, zamansızlıq və açıq məkan hissinə malikdir. Mahmudova ilham mənbəyi kimi tez-tez təbiətə müraciət edir.

“Hər şey rəssam və mühitdən asılıdır. Mənimlə ətrafımdakılar arasındakı bitməyən münasibətlər əbədi söhbəti xatırladır. Hər iki tərəf bütün varlığı ilə iştirak edir. Hərəkətin özü təmiz yaradılış aktı forması alır. Bu isə öz növbəsində sənə qarşında açılan yeni üfüqlərlə həqiqi və sərbəst ünsiyyətdə olmaq kimi unikal imkan verir. O, bizi indiki zamanda əlaqələndirir və birləşdirir, bizə çoxtərəfli, gözlənilməz və gözəl nəticələr verir”,- deyə Aida Mahmudova bildirib.

Sərgi mayın 14-dək sənətsevərlər üçün açıq olacaq.

Qeyd edək ki, əsası 2010-cu ildə Mila Əsgərova tərəfindən qoyulmuş Londondakı “Gazelli Art House” dünyanın müxtəlif guşələrindən olan rəssamları dəstəkləyərək, incəsənət fəaliyyətinin zirvələrinə çatmış sənətkarlara xüsusi diqqət göstərərək, onların əsərlərini yeni auditoriyalara təqdim edərək Meyferə yeni perspektiv gətirib. Bakıda da təmsil edilən qalereya bu coğrafiyanı birləşdirən zəngin linqvistik, dini və tarixi bağların daha dərindən anlaşılması üçün Azərbaycan və qonşu ölkələrin incəsənətinin təşviq edilməsi üzərində çalışır. Qalereya 2015-ci ildən başlayaraq GAZELL.iO onlayn platforması vasitəsilə rəqəmsal incəsənət sahəsində çalışan sənətkarları da dəstəkləyir. Yaxın keçmişdə - 2020-ci ildə qalereyanın GAZELL.iO Layihə Məkanı və Virtual Reallıq Kitabxanası yaradılıb. Bu, Meyferdə rəqəmsal incəsənətə həsr edilmiş ilk daimi incəsənət evidir.


# Gəncə Dövlət Universiteti

## 2022-ci il üçün doktoranturaya və dissertanturaya fəlsəfə doktoru və elmlər doktoru proqramları üzrə qəbul elan edir

| İxtisasın şifri | Elm sahələri və ixtisaslar | Fəlsəfə doktoru proqramı üzrə | | | | Elmlər doktoru proqramı üzrə | | | |
|---|---|---|---|---|---|---|---|---|---|
| | | Doktorantura | | | Dissertantura | Doktorantura | | | Dissertantura |
| | | Cəmi | Dövlət sifarişli və ödənişli əsaslarla, o cümlədən | | Ali təhsil müəssisəsinin büdcəsi hesabına və ödənişli əsaslarla*** | Cəmi | Dövlət sifarişli və ödənişli əsaslarla, o cümlədən | | Ali təhsil müəssisəsinin büdcəsi hesabına və ödənişli əsaslarla*** |
| | | | əyani | qiyabi | | | əyani | qiyabi | |
| 1 | 2 | 3 | 4 | 5 | 6 | 7 | 8 | 9 | 10 |
| 1202.01 | Analiz və funksional analiz | 1 | 1 | | 1 | | | | |
| 1211.01 | Diferensial tənliklər | | | | 1 | | | | 1 |
| 2002.01 | Deformasiya olunan bərk cism mexanikasl | | | | | | | | 2 |
| 2303.01 | Qeyri-üzvi kimya | 1 | 1 | | 1 | | | | |
| 2306.01 | Üzvi kimya | 1 | 1 | | 1 | | | | |
| 2401.01 | Zoologiya | | | | 1 | | | | 1 |
| 2426.01 | Ekologiya | 1 | | 1 | | | | | |
| 5308.01 | Ümumi iqtisadiyyat | 1 | | 1 | 2 | | | | |
| 5408.01 | Fiziki coğrafiya və biocoğrafiya, torpaq coğrafiyası, landşaftların geofizikası və geokimyası | 1 | 1 | | 1 | | | | 1 |
| 5411.01 | Meteorologiya | | | | | | | | |
| 5502.01 | Ümumi tarix | 1 | 1 | | 2 | | | | |
| 5503.02 | Vətən tarixi | 1 | 1 | | 2 | | | | |
| 5704.01 | Dil nəzəriyyəsi | 1 | 1 | | 1 | | | | |
| 5706.01 | Azərbaycan dili | 1 | 1 | | 2 | | | | 2 |
| 5714.01 | Müqayisəli-tarixi və müqayisəli-tipoloji dilçilik | 1 | | 1 | 2 | | | | 1 |
| 5716,01 | Azərbaycan ədəbiyyatı | 1 | | 1 | | | | | |
| 5718.01 | Dünya ədəbiyyatı | 1 | 1 | | 1 | | | | |
| 5801.01 | Təlim və tərbiyənin nəzəriyyəsi və metodikası | 1 | | 1 | 2 | | | | 1 |
| 5804.01 | Ümumi pedaqogika, pedaqogikanın və təhsilin tarixi | 1 | 1 | | 1 | | | | |
| 5908.01 | Siyasi nəzəriyyə | 1 | | 1 | 2 | | | | |
| 6107.01 | Ümumi psixologiya | 1 | | 1 | 1 | | | | |
| 6302.01 | Eksperimental psixologiya | | | | 1 | | | | |
| 7203.01 | Ümumi fəlsəfə | | | | 1 | | | | |
| | Cəmi: | 17 | 10 | 7 | 26 | | | | 9 |

Qəbul qaydaları haqqında məlumatı GDU-nun doktorantura və dissertantura şöbəsindən almaq olar. Əlavə olaraq bildirilir ki, doktoranturaya sənəd qəbulu “Təhsil Mərkəzləşdirilmiş İnformasiya Sistemi” (TMİS) vasitəsilə elektron qaydada həyata keçiriləcəkdir. Doktoranturaya sənəd təqdim etmək istəyən şəxslər Azərbaycan Respublikası Təhsil Nazirliyinin portal.edu.az saytına daxil olmalı, orada “Ali və orta ixtisas təhsil müəssisələrinə təhsilalan qeydiyyatı” xidmətini seçərək, təlimatlara uyğun olaraq qeydiyyatdan keçməlidirlər. **Portal.edu.az** vasitəsilə müraciətlərin göndərilməsi cari il 05 apreldən başlayaçaqdır. Fəlsəfə doktoru proqramı üzrə doktorantura və dissertanturaya sənəd qəbulunun son tarixi 05 may 2022-ci ildir (fəlsəfə fənni üzrə imtahan 2022-ci il sentyabrın 1, 2, 5-də, ixtisas imtahanı isə 2022-ci il sentyabrın 12 və 13-də keçiriləcəkdir).

**Ünvan: AZ 2000, Gəncə şəhəri, Heydər Əliyev prospekti, 429.**
**Tel: (+99222) 266-01-88 Elm və innovasiyalar**


## ALLAH RƏHMƏT ELƏSİN!

Ağstafadan Seymur Orucov tarixçi-etnoqraf, tarix elmləri doktoru, professor, AMEA-nın həqiqi üzvü, əməkdar elm xadimi, AMEA Arxeologiya və Etnoqrafiya İnstitutu Tarixi Etnoqrafiya şöbəsinin müdiri, AMEA Humanitar və İctimai Elmlər bölməsinin akademik-katibinin müavini, Azərbaycan Respublikası Milli Məclisinin I çağırış deputatı, “Şöhrət” və “Şərəf” ordenləri laureatı

**TEYMUR BÜNYADOVUN**

vəfatından kədərləndiyini bildirir və mərhumun ailəsinə dərin hüznlə başsağlığı verir.


**BAŞ REDAKTOR**
**Bəxtiyar SADIQOV**

**Ünvan**



*AZ 1073, Bakı şəhəri, Mətbuat prospekti, 529-cu məhəllə, IV mərtəbə*
***e-mail:***
secretary@azerbaijan-news.az
az.reklam@mail.ru
azerbaijan-news@mail.ru
www.azerbaijan-news.az

**Telefonlar**

Qəbul otağı - 539-68-71,
Baş redaktor müavinləri - 538-86-86, 434-63-30, 539-72-39,
Məsul katib - 539-43-23,
Məsul katib müavinləri - 539-44-91,
Parlament və siyasət şöbəsi - 539-84-41, 539-21-00,
İqtisadiyyat şöbəsi - 538-42-32, 538-35-55,
Beynəlxalq həyat, idman və informasiya şöbəsi - 432-37-68,
Humanitar siyasət şöbəsi - 538-56-60, 539-63-82
İctimai əlaqələr şöbəsi - 539-49-20, 538-31-11,
Fotoillüstrasiya şöbəsi - 538-84-73,
Kompüter mərkəzi - 538-20-87,
Mühasibatlıq - 539-59-33

**Qeydiyyat nömrəsi 1**

**“Azərbaycan” qəzetinin kompüter mərkəzində yığılıb səhifələnmiş, “Azərbaycan Nəşriyyatı” MMC-də çap edilmişdir**

**Rəsmi sənəd və çıxışlarda söylənilənlərlə bərabər, dərc üçün göndərilən digər yazılardakı fikirlər də Azərbaycan dövlətinin mənafeyinə uyğun gəlməlidir**

**Əlyazmalara cavab verilmir və onlar geri qaytarılmır**

***Gündəlik qəzet***

**Tiraj 5634**
**Sifariş 919**
**Qiyməti 40 qəpik**